RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 215 (9960) 7 oktyabr 2025-ci il ÇƏRŞƏNBƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

# Qardaşlığımız əbədidir!



Ölkəmiz Türk Dövlətləri Təşkilatının, dolayısı ilə türk dünyasının güclənməsi və qlobal nüfuza sahib olması üçün mühüm təşəbbüslərlə çıxış edir, lazımi addımlar atır və vacib dəstək göstərir. Dövlətimizin TDT-nin Katibliyinə 2 milyon və Ağsaqqallar Şurasına 100 min ABŞ dolları məbləğində maliyyə dəstəyi də bu qəbildəndir.

Təşkilatın lokomotivlərindən olan Azərbaycanın Zəfəri sayəsində qurum çərçivəsində əlaqələr daha da şaxələnib və möhkəmlənib. Ən mühümü isə vaxtilə mənfur güclərin planları ilə aralarına sədd çəkilmiş türk dünyası ölkələrinin etnosiyasi coğrafiyası bərpa edilib. Bu, kökləri, dili, mədəniyyətləri ilə bir-birlərinə sıx bağlı olan xalqlarımızın adına qazanılan misilsiz qələbə kimi tarixə yazılıb.

Türk dünyasının birləşdirici gücü kimi Azərbaycanın TDT-nin hərtərəfli inkişafında rolu böyükdür.

Prezident İlham Əliyevin ötən ilin fevralında andiçmə mərasimində səsləndirdiyi "Bizim üçün TDT əsas beynəlxalq təşkilatdır, çünki bu, bizim ailəmizdir. Bizim başqa ailəmiz yoxdur. Bizim ailəmiz türk dünyasıdır" fikirləri ölkəmizin türk dünyasının birliyinə verdiyi dəyəri bir daha nümayiş etdirir.

Ölkəmiz təşkilat çərçivəsində siyasi təşəbbüslərlə çıxış edir, yeni əməkdaşlıq sahələri yaradır və ortaq layihələrin maliyyələşdirilməsində, idarə olunmasında fəal iştirak edir. Prezident İlham Əliyevin təşəbbüsləri TDT-nin inkişaf strategiyasının əsas istiqamətlərini müəyyənləşdirib. Məhz bu təşəbbüslər nəticəsində TDT formal birlikdən real təsir gücünə malik beynəlxalq təşkilata çevrilib.

Təşkilatın baş katibi Kubanıçbek Ömüralıyev oktyabrın 3-də qeyd edilən Türk Dövlətlərinin Əməkdaşlıq Günü münasibətilə yazdığı "Bişkekdən Qəbələyə qədər: Türk dövlətlərinin nailiyyətləri və perspektivləri" sərlövhəli məqaləsində də bu məqamı xüsusi qeyd edib: "2009-cu il Naxçıvan Sazişinin imzalandığı məkan kimi Azərbaycan həmişə türk dövlətləri ailəsinin mərkəzində dayanıb...

... Azərbaycanın böyük nəqliyyat və enerji layihələrində - "Cənub qaz dəhlizi"ndən tutmuş Bakı-Tbilisi-Qars dəmir yolu və Orta dəhlizədək rolu hamıya məlumdur. Bu təşəbbüslər ticarət yollarını qısaldır, qitələri birləşdirir və qlobal əlaqəyə töhfə verir. Enerji sahəsində əməkdaşlıq isə başqa bir təməl daşıdır: Azərbaycanın iddialı dəniz külək layihələri və "yaşıl dəhliz" tərəfdaşlığı ölkələrimizin davamlı inkişaf səylərini nümayiş etdirir".

O vurğulayıb ki, ilk dəfə Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən irəli sürülmüş Türk Ticarət və Sənaye Palataları İttifaqı və Türk İnvestisiya Fondu kimi mexanizmlər milyonlarla sahibkarı bir araya gətirir və rifahın regionumuzda kiçik və orta sahibkarlığa çatmasını təmin edir.

5

## Prezident İlham Əliyev Qəbələdə qəbullar keçirib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 6-da Qəbələdə Türk Dövlətləri Təşkilatının (TDT) Ağsaqqallar Şurasının sədri Binəli Yıldırımı, Türk Dövlətləri Təşkilatının (TDT) baş katibi Kubanıçbek Ömüralıyevi qəbul edib, Şimali Kipr Türk Cümhuriyyətinin Prezidenti Ersin Tatar ilə və Macarıstanın Baş naziri Viktor Orban ilə görüşüb.

2

## Türk Dövlətləri Təşkilatı: məqsəd daha möhkəm birliyə nail olmaqdır

### TDT bunun üçün iqtisadi sahələrdə də fəaliyyətini genişləndirir




Türk ölkələri ilə əlaqələrin genişləndirilməsi, türk dünyasının və Türk Dövlətləri Təşkilatının gücləndirilməsi Azərbaycanın xarici siyasətinin prioritet istiqamətidir. Azərbaycan həmişə türk dünyasının sıx birləşməsi, onun siyasi, iqtisadi və hərbi qüdrətinin artması, qlobal arenada güc mərkəzinə çevrilməsi naminə səylər göstərmişdir. Bu məqsədlə də ölkəmiz TDT ilə iqtisadi əlaqələrini genişləndirir. Bu da özünü həm geniş formatda, həm də hər bir ölkə ilə ikitərəfli şəkildə iqtisadi əməkdaşlıqda özünü göstərir.

9

## Prezidentlər Azərbaycana səfərə gəliblər



Oktyabrın 6-da Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev, Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev və Qırğız Respublikasının Prezidenti Sadır Japarov Türk Dövlətləri Təşkilatının (TDT) Dövlət Başçıları Şurasının 12-ci Zirvə Görüşündə iştirak etmək məqsədilə Azərbaycana səfərə gəliblər.

3

## Orta dəhlizə investisiya qoyuluşu artır

Ötən il Trans-Xəzər Beynəlxalq Nəqliyyat Mərkəzi (TBNM, Orta dəhliz) üzrə yük daşımaları 62 faiz artaraq 4,5 milyon tona çatıb. Cari il artımın daha yüksək olacağı və daşımaların həcminin 5,2 milyon tona çatacağı proqnozlaşdırılır. Bunun da 4,2 milyon tonu iştirakçı ölkələrin marşrutları ilə daşınacaq. Həmin həcmin 2,5 milyon tonu quru yüklər (təxminən 96 min TEU), 1,7 milyon tonu isə enerji daşıyıcıları olacaq.

2027-ci ilə qədər marşrutun ötürücülük qabiliyyətinin ildə 10 milyon tona qədər artacağı ehtimalı var ki, bu da Azərbaycanın tranzit potensialının genişləndirilməsi və infrastrukturun inkişafına əlavə investisiyaların cəlb edilməsi üçün dayanıqlı zəmin yaradacaq.

9




8

# Prezident İlham Əliyev Qəbələdə Türk Dövlətləri Təşkilatının Ağsaqqallar Şurasının sədrini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 6-da Qəbələdə Türk Dövlətləri Təşkilatının (TDT) Ağsaqqallar Şurasının sədri Binəli Yıldırımı qəbul edib.**

AZƏRTAC xəbər verir ki, söhbət zamanı dövlətimizin başçısının Binəli Yıldırımla görüşləri, həmçinin onun ölkəmizə səfərləri məmnunluqla xatırlandı. Qonaq Türk Dövlətləri Təşkilatının fəaliyyətinə göstərdiyi dəstəyə görə Prezident İlham Əliyevə minnətdarlığını ifadə edərək vurğuladı ki, təşkilatın Ağsaqqallar Şurası bundan sonra da türk dövlətləri arasında əməkdaşlığın inkişafı prosesinə öz töhfəsini verməyə davam edəcək.

Görüşdə Türk Dövlətləri Təşkilatının Dövlət Başçıları Şurasının 12-ci Zirvə Görüşünün əhəmiyyətinə toxunuldu, ölkəmizdə təşkil edilmiş digər beynəlxalq tədbirlər kimi bu sammitin də yüksək səviyyədə keçiriləcəyinə əminlik ifadə olundu. Söhbət zamanı Azərbaycan və Türkiyə arasında qardaşlıq və strateji müttəfiqlik münasibətlərinin bütün sahələrdə daha da genişlənməsi qeyd edildi.

# Prezident İlham Əliyev Qəbələdə Türk Dövlətləri Təşkilatının baş katibini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 6-da Qəbələdə Türk Dövlətləri Təşkilatının (TDT) baş katibi Kubanıçbek Ömüralıyevi qəbul edib.**

AZƏRTAC xəbər verir ki, söhbət zamanı dövlətimizin başçısı ilə qonağın görüşləri məmnunluqla xatırlandı.

Baş katib Azərbaycanla Ermənistan arasında sülh gündəliyi ilə bağlı Amerika Birləşmiş Ştatları Prezidenti Donald Trampın şahidliyi ilə Vaşinqtonda əldə olunmuş nəticələr münasibətilə Prezident İlham Əliyevə təbriklərini çatdırdı.

Dövlətimizin başçısı təbriklərə görə təşəkkür etdi.

Kubanıçbek Ömüralıyev Türk Dövlətləri Təşkilatının beynəlxalq nüfuzunun daha da artması, üzv və müşahidəçi ölkələr arasında əməkdaşlığın gücləndirilməsi işinə Azərbaycanın verdiyi dəstəyə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirdi.

Görüşdə Türk Dövlətləri Təşkilatının Dövlət Başçıları Şurasının Qəbələdə keçiriləcək 12-ci Zirvə görüşünün "Regional sülh və təhlükəsizlik" mövzusuna həsr olunduğu vurğulanaraq, tədbir çərçivəsində təşkilatın gündəliyində duran aktual məsələlərin müzakirə ediləcəyi bildirildi.

Dövlətimizin başçısı bu Zirvə görüşünün türk dünyasında dostluq, həmrəylik və tərəfdaşlığın möhkəmləndirilməsi işinə töhfə verəcəyinə əminliyini ifadə etdi.

Söhbət zamanı ölkəmizlə təşkilat arasında əməkdaşlığın perspektivlərinə dair fikir mübadiləsi aparıldı.

# Azərbaycan Prezidenti İlham Əliyev Qəbələdə Şimali Kipr Türk Cümhuriyyətinin Prezidenti ilə görüşüb



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 6-da Qəbələdə Şimali Kipr Türk Cümhuriyyətinin Prezidenti Ersin Tatar ilə görüşüb.**

AZƏRTAC xəbər verir ki, Ersin Tatar Prezident İlham Əliyevlə ölkəmizdə və beynəlxalq tədbirlər çərçivəsində görüşlərini, həmçinin Şuşada Türk Dövlətləri Təşkilatının (TDT) Dövlət başçılarının qeyri-rəsmi Zirvə Toplantısında iştirakını məmnunluqla xatırladı, Şimali Kipr Türk Cümhuriyyətinə göstərdiyi dəstəyə görə dövlətimizin başçısına minnətdarlığını bildirdi.

Prezident İlham Əliyev ölkəmiz tərəfindən Şimali Kipr Türk Cümhuriyyətinə dəstəyin bundan sonra da davam etdiriləcəyini dedi.

Qonaq Ermənistanla Azərbaycan arasında sülh gündəliyinin irəliyə aparılması istiqamətində Vaşinqtonda Amerika Birləşmiş Ştatları Prezidentinin şahidliyi ilə əldə edilmiş nəticələrlə bağlı təbriklərini çatdırdı.

Dövlətimizin başçısı təbriklərə görə minnətdarlığını bildirdi.

Söhbət zamanı Şimali Kipr Türk Cümhuriyyətinin Türk Dövlətləri Təşkilatına müşahidəçi qismində qatılmasının önəmi qeyd edildi.

Qəbələdə keçirilən Zirvə görüşünün TDT çərçivəsində ölkələrarası tərəfdaşlığın daha da genişlənməsində rolu vurğulandı.

Görüşdə bir sıra sahələrdə əməkdaşlıq məsələlərinə toxunuldu.

# Azərbaycan Prezidenti İlham Əliyev Qəbələdə Macarıstanın Baş naziri ilə görüşüb



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 6-da Qəbələdə Macarıstanın Baş naziri Viktor Orban ilə görüşüb.**

AZƏRTAC xəbər verir ki, Macarıstanın Baş naziri Azərbaycana əvvəlki səfərlərinin, həmçinin Türk Dövlətləri Təşkilatının (TDT) Dövlət başçılarının Şuşada keçirilmiş qeyri-rəsmi Zirvə Görüşündə iştirakının önəminə toxundu.

Söhbət zamanı bu ilin mayında Budapeştdə Türk Dövlətləri Təşkilatının (TDT) Dövlət başçılarının qeyri-rəsmi Zirvə Görüşü məmnunluqla xatırlandı.

Azərbaycanla Macarıstan arasında əlaqələrin mövcud vəziyyəti yüksək qiymətləndirildi. Bu xüsusda enerji, investisiyalar, kənd təsərrüfatı, turizm və digər sahələrdə əməkdaşlıq məsələlərinə toxunuldu. Macar şirkətlərinin Cəbrayıl rayonunun Soltanlı kəndinin tikintisində iştirakı vurğulandı.

# Şimali Kipr Türk Cümhuriyyətinin Prezidenti Azərbaycana səfərə gəlib

**Şimali Kipr Türk Cümhuriyyətinin Prezidenti Ersin Tatar Türk Dövlətləri Təşkilatının (TDT) Dövlət Başçıları Şurasının 12-ci Zirvə Görüşündə iştirak etmək məqsədilə oktyabrın 6-da ölkəmizə səfərə gəlib.**

AZƏRTAC xəbər verir ki, Qəbələ Beynəlxalq Hava Limanında Şimali Kipr Prezidentini Azərbaycanın elm və təhsil naziri Emin Əmrullayev və digər rəsmi şəxslər qarşılayıblar.




# Macarıstanın Baş naziri TDT-nin Zirvə Görüşündə iştirak etmək üçün Qəbələdə səfərdədir

**Macarıstanın Baş naziri Viktor Orban Türk Dövlətləri Təşkilatının (TDT) Dövlət Başçıları Şurasının 12-ci Zirvə Görüşündə iştirak etmək məqsədilə oktyabrın 6-da Azərbaycana səfərə gəlib.**

AZƏRTAC xəbər verir ki, Qəbələ Beynəlxalq Hava Limanında ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Macarıstanın Baş naziri Viktor Orbanı hava limanında Azərbaycanın mədəniyyət naziri Adil Kərimli və digər rəsmi şəxslər qarşılayıblar.



# Prezidentlər Azərbaycana səfərə gəliblər



**Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev Türk Dövlətləri Təşkilatının (TDT) Dövlət Başçıları Şurasının 12-ci Zirvə Görüşündə iştirak etmək məqsədilə oktyabrın 6-da Azərbaycana səfərə gəlib.**

AZƏRTAC xəbər verir ki, Qəbələ Beynəlxalq Hava Limanında ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevi hava limanında Azərbaycanın elm və təhsil naziri Emin Əmrullayev və digər rəsmi şəxslər qarşılayıblar.



**Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev Türk Dövlətləri Təşkilatının (TDT) Dövlət Başçıları Şurasının 12-ci Zirvə Görüşündə iştirak etmək üçün oktyabrın 6-da Azərbaycana səfərə gəlib.**

AZƏRTAC xəbər verir ki, Qəbələ Beynəlxalq Hava Limanında ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Özbəkistan Prezidenti Şavkat Mirziyoyevi hava limanında Azərbaycanın mədəniyyət naziri Adil Kərimli və digər rəsmi şəxslər qarşılayıblar.



**Qırğız Respublikasının Prezidenti Sadır Japarov Türk Dövlətləri Təşkilatının (TDT) Dövlət Başçıları Şurasının 12-ci Zirvə Görüşündə iştirak etmək üçün oktyabrın 6-da Azərbaycana səfərə gəlib.**

AZƏRTAC xəbər verir ki, Qəbələ Beynəlxalq Hava Limanında ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Qırğızıstan Prezidenti Sadır Japarovu hava limanında Azərbaycanın elm və təhsil naziri Emin Əmrullayev və digər rəsmi şəxslər qarşılayıblar.

## *Hakan FİDAN:* "TDT-nin daha koordinasiyalı fəaliyyəti bizi böhranlara qarşı daha dayanıqlı edir"

**"Bu gün baş verən böyük geostrateji dəyişikliklər bütün yerlərə təsir etdiyi kimi, türk dünyasına da təsir edir. Lakin Türk Dövlətləri Təşkilatının (TDT) artan institusionallaşması, daha koordinasiyalı fəaliyyəti bizi bu böhranlara qarşı daha dayanıqlı edir. Bu, hamımızın birlikdə inkişaf etdirdiyimiz korporativ münasibətdir. Digər tərəfdən, türk dünyası dövlətlərinin iqtisadiyyatını, infrastrukturunu, texnologiyasını, müdafiə potensialını, əsas xidmətlərini inkişaf etdirməsi və sənaye infrastrukturunu daha da yaxşılaşdırması, əslində, hər bir dövləti daha da gücləndirir".**



AZƏRTAC xəbər verir ki, bu fikirləri Türk Dövlətləri Təşkilatının (TDT) Dövlət Başçıları Şurasının 12-ci Zirvə Görüşündə iştirak etmək üçün Azərbaycana səfər edən Türkiyənin xarici işlər naziri Hakan Fidan media nümayəndələrinə müsahibəsində deyib.

O qeyd edib ki, hər güclü dövlət birlikləri inkişaf etdikdə daha güclü təşkilat yaranır. "Ona görə də ümid edirəm ki, biz gələcəkdə dünya böhranlarına daha dayanıqlı olan türk dünyası ilə qarşılaşacağıq. Liderlərimiz bu məsələni Qəbələdə müzakirə edəcəklər. TDT-nin Dövlət Başçıları Şurasının 12-ci Zirvə Görüşünün Azərbaycanın Qəbələ şəhərində keçirilməsi isə olduqca qürurvericidir. Çünki türk dünyasının belə gözəl şəhərini liderlərə təqdim etmək və onları burada qonaq etmək çox xoşdur", - deyə Türkiyənin xarici işlər naziri vurğulayıb.

Hakan Fidan hazırda Türkiyənin xarici siyasətinin əsasını regionda sabitlik yaratmaq təşkil etməsinə də diqqət çəkib. "Sabitliyin yaradılması üçün bir neçə şərt var. Birincisi, müharibələri və münaqişələri mümkün qədər sakitləşdirmək və ya sona çatdırmaqdır. İkincisi, iqtisadi əməkdaşlığı bərabər əsasda inkişaf etdirməkdir. Bunların nəticəsində hər kəs firavanlıqdan faydalana biləcək. Üçüncüsü, münasibətləri və regional strukturları institusionallaşdırmaq və onları daha da canlandırmaqdır. Bu perspektivlə bölgəmizdə işləyirik. Bu isə hər zaman türk dünyası ilə münasibətlərimizdə və birgə regional işimizdə müşahidə olunur. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın irəli sürdüyü xarici siyasət perspektivi və Türkiyənin göstərdiyi səylər məhz bu istiqamətə yönəlib. Beləliklə, biz regionda sabitliyi təmin etmək üçün Türkiyənin regional gücündən, nüfuzundan və liderliyindən istifadə edirik", - deyə Hakan Fidan əlavə edib.

## *Türk ekspert:* "TDT zamanın ruhunu doğru oxuyur, regional sülh və təhlükəsizlik gündəliyini formalaşdırır"

**"Türk Dövlətləri Təşkilatının (TDT) Dövlət Başçıları Şurasının Qəbələdə keçirilən 12-ci Zirvə Görüşünün regional sülh və təhlükəsizlik məsələlərinə həsr olunması, təşkilatın dinamik və dəyişən geosiyasi reallıqlara uyğun fəaliyyət göstərdiyini bir daha nümayiş etdirir".**



Bu fikirləri AZƏRTAC-a açıqlamasında Türkiyənin Azərbaycandakı keçmiş hərbi attaşesi, ehtiyatda olan general Yücel Karauz səsləndirib.

Ekspert qeyd edib ki, müasir dövrdə həm dövlətlər, həm də beynəlxalq təşkilatlar dinamik struktur daşıyır və dəyişən strateji, geosiyasi reallıqlara uyğun mövqe formalaşdırırlar.

"Qəbələdə keçirilən Zirvə görüşünün regional sülh və təhlükəsizlik mövzusuna həsr olunması Türk Dövlətləri Təşkilatının zamanın tələblərinə uyğun şəkildə fəaliyyət göstərdiyini göstərir. Dünyada artan təhlükəsizlik riskləri və yeni təhdidlər fonunda TDT regional və qlobal miqyasda təhlükəsizlik məsələlərini diqqət mərkəzinə gətirir", - deyə Yücel Karauz vurğulayıb.

O qeyd edib ki, hazırda dünyanın güc mərkəzləri və potensial toqquşma bölgələri TDT məkanına yaxın coğrafiyalarda yerləşir. Bu isə təşkilatın iqtisadi, enerji və strateji təhlükəsizlik məsələlərinə daha sistemli yanaşmasını zəruri edir. "Türk Dövlətləri Təşkilatının "Türk Dünyası 2040" vizyonu çərçivəsində sülh və təhlükəsizlik məsələlərini prioritet istiqamət kimi müəyyən etməsi son dərəcə önəmlidir. Bu, təşkilatın yalnız iqtisadi əməkdaşlıqla deyil, həm də regional sabitliyin təmin edilməsi istiqamətində mühüm rola malik olduğunu göstərir", - deyə ekspert bildirib.

Yücel Karauz vurğulayıb ki, TDT 16 illik fəaliyyət tarixinə baxmayaraq, onun tarixi kökləri və mənəvi dayaqları bundan daha dərin və qədimdir. "Təşkilatın əsas missiyası sülhün qorunmasıdır. Lakin bu istiqamətdə fəaliyyət yalnız hərbi və təhlükəsizlik məsələləri ilə məhdudlaşmır. Müdafiə sənayesi, süni intellekt, kibertəhlükəsizlik, sərhəd keçidləri, qeyri-qanuni miqrasiya, narkotik və digər cinayətkar fəaliyyətlərlə mübarizə kimi mövzular da gündəlikdədir", - deyə o qeyd edib.

Ekspert vurğulayıb ki, Türk Dövlətləri Təşkilatı zamanın ruhunu düzgün oxuyur və regional sabitliyin təminində mühüm rol oynayır. "Prezident, Ali Baş Komandan İlham Əliyevin də dediyi kimi, bizim bir ailəmiz var - o da türk dövlətləri ailəsidir. Hər bir üzv bu ailənin dəyərini bilməli, birliyimizi, həmrəyliyimizi və əməkdaşlığımızı daha da möhkəmləndirməlidir", - deyə Yücel Karauz fikrini tamamlayıb.

# Türk Dövlətləri Təşkilatı qlobal gücə doğru inamla addımlayır

**XXI əsrin siyasi coğrafiyası yeni güc mərkəzlərinin formalaşması və regional ittifaqların qlobal sistemdə çəkisini artırması ilə xarakterizə olunur. Bu reallıq fonunda Türk Dövlətləri Təşkilatı (TDT) yalnız ortaq etnik və mədəni köklərə əsaslanan birlik modeli deyil, həm də siyasi suverenliklərin sinxronlaşdırıldığı, iqtisadi sinerji yaradıldığı və ortaq təhlükəsizlik müstəvisində strateji koordinasiyanın qurulduğu çoxölçülü platforma kimi ön plana çıxır. Bu təşkilat artıq yalnız mədəni birliyi deyil, həm də qlobal geosiyasi aktor kimi formalaşmaqda olan strateji müttəfiqlik modelini ifadə edir.**

AZƏRTAC bu məqalədə Türk Dövlətləri Təşkilatının Zirvə görüşlərinin geosiyasi əhəmiyyətini, regional və qlobal təhlükəsizlik arxitekturasında tutduğu strateji mövqeyi, Azərbaycanın təşkilat daxilində təşəbbüskar və qurucu lider kimi rolunu, həmçinin TDT-nin gələcək inkişaf trayektoriyasını çoxşaxəli şəkildə araşdırıb və analitik müstəvidə dəyərləndirib.

### TDT-nin XII Zirvə Görüşü: strateji geosiyasi hadisə

Oktyabrın 6-7-də Azərbaycanın Qəbələ şəhərində baş tutacaq Türk Dövlətləri Təşkilatının (TDT) XII Zirvə Görüşü "Regional sülh və təhlükəsizlik" mövzusunda keçiriləcək. Bu Zirvə görüşü yalnız formal protokol tədbiri deyil, həm də türk dünyasının gələcək konturlarının, ortaq strateji hədəflərinin və birgə fəaliyyət mexanizmlərinin müəyyən ediləcəyi tarixi hadisə olacaq. Zirvə çərçivəsində TDT-yə üzv və müşahidəçi statusuna malik ölkələrin dövlət və hökumət başçıları bir araya gələrək, sonuncu görüşdən bəri həyata keçirilmiş işləri dəyərləndirəcək, əldə olunmuş nailiyyətləri müzakirə edəcək və gələcək əməkdaşlıq istiqamətlərini müəyyənləşdirəcəklər. Görüş zamanı qəbul olunacaq sənədlər, o cümlədən XII Zirvə Görüşünün Bəyannaməsi təşkilatın siyasi və institusional strukturunun yeni mərhələyə keçidini əks etdirəcək. Zirvənin görüşünün sonunda TDT-yə sədrlik Qırğızıstandan Azərbaycana keçəcək, bu isə ölkəmizin təşkilatdakı liderlik missiyasının rəsmi təsdiqi olacaq.

Zirvə çərçivəsində həmçinin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ikitərəfli görüşləri nəzərdə tutulur, rəsmi proqram üzrə isə TDT Xarici İşlər Nazirləri Şurasının toplantısı keçiriləcək. Bu, yalnız protokol xarakterli görüşlər deyil, eyni zamanda yeni təşəbbüslərin irəli sürülməsi, ortaq qərarların qəbul edilməsi və türk dünyasının gələcək inteqrasiyasına dair strateji müzakirələrin aparılması üçün mühüm imkan olacaq.

### TDT-nin inkişaf dinamikası və artan funksional rolu

TDT 2009-cu ildə Naxçıvanda imzalanmış tarixi Naxçıvan Müqaviləsi ilə rəsmi şəkildə təsis olunsa da, onun ideyası türkdilli xalqlar arasında əsrlərlə formalaşan siyasi, mədəni və hərbi həmrəyliyə söykənir. Bildiyimiz kimi, Azərbaycan, Türkiyə, Qazaxıstan və Qırğızıstan qurucu dövlətlər olub, sonradan Özbəkistan 2019-cu ildə üzv qəbul edilib. Macarıstan (2018), Türkmənistan (2021) və Şimali Kipr Türk Respublikası (2022) müşahidəçi üzv qəbul olunublar. 2023-cü ildə isə İqtisadi Əməkdaşlıq Təşkilatına TDT-nin müşahidəçi statusu verilib.

Son illərdə TDT-nin sürətli genişlənməsi onu ənənəvi regional birliklərdən fərqləndirir. Artıq gündəlikdə təkcə mədəni və humanitar məsələlər deyil, strateji təhlükəsizlik, enerji siyasəti, texnologiya, nəqliyyat-logistika, kənd təsərrüfatı, kosmik tədqiqatlar və qlobal ticarət yolları üzərində nəzarət kimi məsələlər də yer alır.

### Türk birliyinin strateji arxitektoru və lokomotiv gücü - Azərbaycan



Azərbaycan TDT-nin ən fəal və strateji cəhətdən əhəmiyyətli üzvü olaraq həm təşkilatın yaradılmasında, həm də onun inkişafında aparıcı rol oynayıb. Prezident İlham Əliyevin "Bizim üçün TDT əsas beynəlxalq təşkilatdır, çünki bu, bizim ailəmizdir. Bizim başqa ailəmiz yoxdur. Bizim ailəmiz türk dünyasıdır" fikirləri Azərbaycanın bu birliyə verdiyi mənəvi və strateji dəyərin ən bariz ifadəsidir. Prezident bu sözləri 2024-cü il fevralın 14-də andiçmə mərasimində səsləndirərək, Azərbaycanın türk dünyası ilə bağlı mövqeyini bütün dünyaya göstərmiş oldu.

Təşkilatın digər üzvləri də təsdiq edirlər ki, Azərbaycan bu birlikdə lokomotiv funksiyasını yerinə yetirir. Ölkəmiz təşkilat çərçivəsində siyasi təşəbbüslərlə çıxış edir, yeni əməkdaşlıq sahələri yaradır və ortaq layihələrin maliyyələşdirilməsində, idarə olunmasında fəal iştirak edir. Prezident İlham Əliyevin təşəbbüsləri TDT-nin inkişaf strategiyasının əsas istiqamətlərini müəyyənləşdirib. Məhz bu təşəbbüslər nəticəsində TDT formal birlikdən real təsir gücünə malik beynəlxalq təşkilata çevrilib.

Ötən ilin iyulunda Şuşada keçirilmiş qeyri-rəsmi Zirvə görüşü və qəbul edilmiş Qarabağ Bəyannaməsi Azərbaycanın ideoloji liderlik missiyasını və TDT-nin vahid siyasət mexanizminə ehtiyac duyduğunu bir daha göstərdi. Prezident həmin Zirvə zamanı bəyan etmişdi ki, Türk Dövlətləri Təşkilatı dünya miqyasında güc mərkəzlərinin birinə çevrilməli, XXI əsr türk dünyasının inkişafı əsri olmalıdır. Bu bəyanat türk dövlətlərinin qarşısında yalnız regional deyil, qlobal miqyasda tarixi hədəf qoydu.

Həmçinin 2024-cü ilin noyabrında Bişkekdə keçirilən XI Zirvə Görüşü və 2025-ci ilin mayında Budapeştdə baş tutan qeyri-rəsmi Zirvə də təşkilatın dinamik inkişafına mühüm töhfə verib. Budapeşt görüşü əməkdaşlığın dərinləşdirilməsi baxımından xüsusi əhəmiyyət kəsb edib.

Azərbaycan həmçinin 30 illik işğaldan azad olunmuş ərazilərində qardaş ölkələrlə birgə həyata keçirdiyi infrastruktur və sosial layihələr vasitəsilə bu həmrəyliyi konkret fəaliyyətə çevirir. Qardaş dövlətlərin dəstəyi ilə həmin ərazilərdə məktəblər, yaradıcılıq mərkəzləri inşa olunub, yeni təhsil və mədəniyyət ocaqları yaradılıb. Prezident İlham Əliyev Bişkek Zirvəsində bu töhfələrə görə Özbəkistan, Qazaxıstan, Qırğızıstan və Macarıstana təşəkkürünü bildirib.

### TDT-nin strukturunun güclənməsi və təhlükəsizlik perspektivləri

TDT artıq təkcə mədəni inteqrasiyanın deyil, həm də siyasi koordinasiyanın və təhlükəsizlik əməkdaşlığının önəmli platformasına çevrilib. Avrasiya enerji yolları, "Şimal-Cənub" və "Şərq-Qərb" dəhlizləri, Böyük İpək yolunun bərpası kimi layihələrdə türk dövlətlərinin strateji mövqeyi təşkilatın qlobal güc balansında əhəmiyyətini artırır.

Bu Zirvə görüşünün əsas mövzusu olan "Regional sülh və təhlükəsizlik" istiqaməti də məhz bu zərurətdən qaynaqlanır. Bu, Türk Dövlətləri Təşkilatının müstəqil təhlükəsizlik gündəliyi formalaşdırmaq niyyətində olduğunu göstərir.

Gələcəkdə isə təşkilat çərçivəsində birgə hərbi təlimlər, müdafiə sənayesi əməkdaşlığı, kibertəhlükəsizlik, strateji informasiya mübadiləsi mexanizmlərinin yaradılması reallığa çevrilə bilər.

### Türk sivilizasiyası və TDT - tarixi irsdən müasir güc platformasına

Türk Dövlətləri Təşkilatı yalnız siyasi və iqtisadi əməkdaşlıq üçün yaradılmış qurum deyil, eyni zamanda türk sivilizasiyasının mədəni kodlarının müasir dövrün çağırışlarına uyğunlaşdırıldığı siyasi formadır. Türk sivilizasiyası tarix boyu bəşəriyyətə elm, dövlətçilik, hərb, hüquq, incəsənət və mədəniyyət sahələrində böyük töhfələr verib. Tarixin bütün dönəmlərində türklər zəngin dövlətçilik ənənələri, hərbi gücü, elm və incəsənətə verdiyi töhfələri ilə seçilib, bəşər sivilizasiyasının inkişafında özünəməxsus iz qoyublar. Bu sivilizasiya zəngin dövlətçilik ənənələri, elm və mədəniyyətə verdiyi nailiyyətlərlə bəşəriyyətin inkişafında mühüm rol oynayıb. Azərbaycan xalqı da bu böyük sivilizasiyanın önəmli parçası olaraq həm ondan faydalanıb, həm də öz töhfələrini verib.

Bu baxımdan TDT-yə üzv ölkələrin mədəniyyət, təhsil və informasiya sahələrində əməkdaşlığı prioritet istiqamətlərdəndir. Paytaxt Bakıda yerləşən Türk Dövlətləri Parlament Assambleyası (TÜRKPA) və Türk Mədəniyyəti və İrsi Fondu (TMİF) bu sahədə Azərbaycanın mədəni liderliyini və türk dünyası ilə əlaqələri yüksək səviyyədə inkişaf etdirmək istəyini əks etdirir.

### TDT gələcəyin güc platforması kimi

Bu gün Türk Dövlətləri Təşkilatı strukturlaşmış, siyasi iradə ilə yönlənən və qlobal sistemə inteqrasiya olunmuş bir güc platforması kimi formalaşır. Məqsəd yalnız əməkdaşlıq formatlarını optimallaşdırmaq deyil, həm də türk dövlətlərinin beynəlxalq münasibətlərdə vahid strateji mövqedən çıxış etməsini təmin etməkdir. Əməkdaşlıq sahələri təkcə siyasət və təhlükəsizliklə məhdudlaşmır. TDT çərçivəsində iqtisadiyyat, ticarət, enerji, nəqliyyat-logistika, kənd təsərrüfatı, mədəniyyət, turizm, informasiya texnologiyaları, kosmik tədqiqatlar və digər istiqamətlər üzrə çoxtərəfli əməkdaşlıq inkişaf etdirilir.

Türk dövlətləri arasında həmrəylik, inteqrasiya və qarşılıqlı etimadın dərinləşməsi TDT-ni getdikcə mötəbər beynəlxalq təşkilat səviyyəsinə yüksəldir. Artıq dünya ölkələri bu birliyi regionda sabitlik və əməkdaşlıq üçün etibarlı tərəfdaş kimi qəbul edir.

Gələcəkdə TDT-nin siyasi, iqtisadi və təhlükəsizlik baxımından daha sıx inteqrasiya olunmuş müttəfiqlik modelinə çevrilməsi, onu yalnız türkdilli ölkələr üçün deyil, həm də Avrasiya və Yaxın Şərq regionlarında alternativ sabitlik mərkəzinə çevirəcək. Türk Dövlətləri Təşkilatı bu gün üçün siyasi həmrəylik platforması, sabah üçün isə qlobal güc mərkəzi ola bilər. Bu yolda liderlik, iradə və strateji baxış artıq formalaşıb, indi isə həmin baxışı ortaq siyasi və iqtisadi reallığa çevirmək dövrüdür. Bu yol həm də türk xalqlarının əsrlərlə arzuladığı birlik ideyasının reallaşması deməkdir.

Türk Dövlətləri Təşkilatının inkişaf xətti göstərir ki, bu birlik yalnız tarixi-mədəni bağlılıqlara əsaslanmır, həm də gələcəyin siyasi, iqtisadi və təhlükəsizlik arxitekturasında real güc mərkəzi formalaşdırır və XXI əsr türk dövlətlərinin qlobal miqyasda söz sahibinə çevrildiyi əsr olacaq.

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin “Əlilliyin qiymətləndirilməsi Qaydası”nın təsdiq edilməsi və “Tibbi-sosial ekspert komissiyaları haqqında Əsasnamə”nin təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 5 fevral tarixli 36 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında” 2020-ci il 16 yanvar tarixli 11 nömrəli və “Əmək pensiyalarının təyin edilməsi, hesablanması, yenidən hesablanması, bir növdən başqa növə keçirilməsi və ödənilməsi Qaydası”nın təsdiq edilməsi haqqında” 2022-ci il 28 aprel tarixli 175 nömrəli qərarlarında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 289** **Bakı şəhəri, 3 oktyabr 2025-ci il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq,"Azərbaycan Respublikasının Əmək Məcəlləsində, Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində, "Əhalinin sağlamlığının qorunması haqqında", "Yol hərəkəti haqqında", "Qaçqınların və məcburi köçkünlərin (ölkə daxilində köçürülmüş şəxslərin) statusu haqqında", "Tibbi sığorta haqqında", "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında", "Daşınmaz əmlakın dövlət reyestri haqqında", "Ünvanlı dövlət sosial yardımı haqqında", "Sosial müavinətlər haqqında", "Əmək pensiyaları haqqında", "Təhsil haqqında", "İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında", "İcbari sığortalar haqqında", "Lisenziyalar və icazələr haqqında", "Əlilliyi olan şəxslərin hüquqları haqqında" və "Məşğulluq haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 29 dekabr tarixli 120-VIIQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Əlilliyin qiymətləndirilməsi Qaydası"nın təsdiq edilməsi və "Tibbi-sosial ekspert komissiyaları haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 5 fevral tarixli 36 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 16 yanvar tarixli 11 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 1, maddə 68 (Cild I); 2024, № 7, maddə 925) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 3-cü hissə aşağıdakı redaksiyada verilsin:

"3. Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 6 oktyabr tarixli 2328 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının layihələrinin hazırlanması, razılaşdırılması, qəbul edilməsi və dərc edilməsi qaydası haqqında Əsasnamə"nin 3.5-ci bəndinə uyğun edilə bilər.";

1.2. həmin Qərarla təsdiq edilmiş "Əlilliyin qiymətləndirilməsi Qaydası"na aşağıdakı məzmunda 2.6-1-ci bənd əlavə edilsin:

"2.6-1. Şəxsin əlilliyinin müəyyən edilməsi və əlilliyin müəyyən olunmasından imtina edilməsi barədə qərarlarda göstərilən məlumatlar Elektron Hökumət İnformasiya Sistemi üzərindən təqdim edilə (əldə edilə) bilər. Bu qərarlarda göstərilən məlumatların Elektron Hökumət İnformasiya Sistemi üzərindən təqdim edilməsi həmin qərarların təqdim edilməsinə bərabər tutulur.".

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 28 aprel tarixli 175 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 4, maddə 421 (Cild I); 2024, № 1, maddə 98, № 3, maddə 301, № 7, maddə 892, № 10, maddə 1160, № 11, maddə 1247; 2025, № 2, maddə 200, № 6, maddə 605) ilə təsdiq edilmiş "Əmək pensiyalarının təyin edilməsi, hesablanması, yenidən hesablanması, bir növdən başqa növə keçirilməsi və ödənilməsi Qaydası"na aşağıdakı məzmunda 3.4-cü bənd əlavə edilsin:

"3.4. Əmək pensiyalarının təyin edilməsi, təyin olunmasından imtina edilməsi, yenidən hesablanması, dayandırılması, bərpası və bir növdən başqa növə keçirilməsi barədə qərarlarda göstərilən məlumatlar Elektron Hökumət İnformasiya Sistemi üzərindən təqdim edilə (əldə edilə) bilər. Bu qərarlarda göstərilən məlumatların Elektron Hökumət İnformasiya Sistemi üzərindən təqdim edilməsi həmin qərarların təqdim edilməsinə bərabər tutulur.".

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## “Azərbaycan Respublikası Prezidentinin “Sosial müavinətlərin məbləğinin artırılması haqqında” 2013-cü il 29 avqust tarixli 973 nömrəli və “Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında” 2018-ci il 10 dekabr tarixli 387 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 12 mart tarixli 350 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 290** **Bakı şəhəri, 3 oktyabr 2025-ci il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikası Prezidentinin "Sosial müavinətlərin məbləğinin artırılması haqqında" 2013-cü il 29 avqust tarixli 973 nömrəli və "Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" 2018-ci il 10 dekabr tarixli 387 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 12 mart tarixli 350 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 22 may tarixli 236 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 5, maddə 969 (Cild I); 2024, № 2, maddə 237) ilə təsdiq edilmiş "DOST" mərkəzlərinin Nümunəvi Nizamnaməsi"ndə aşağıdakı dəyişikliklər edilsin:

1.1. 3.1.1-ci yarımbənddə "Nazirliyin aidiyyəti qurumları" sözləri "Nazirlik sisteminə daxil olan aidiyyəti qurumlar" sözləri ilə əvəz edilsin;

1.2. 4.6.14-1-ci yarımbənddə "əməkhaqqı" sözü "əməyin ödənişi" sözləri ilə əvəz edilsin;

1.3. 5-ci hissənin adında "maliyyə-təsərrüfat fəaliyyəti" sözləri "maliyyə fəaliyyətinin əsasları" sözləri ilə əvəz edilsin;

1.4. 7.2-ci bəndə "tərtib" sözündən sonra "və təqdim" sözləri əlavə edilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 17 mart tarixli 95 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 3, maddə 356 (Cild I) ilə təsdiq edilmiş 1 nömrəli əlavə - "Əmək Bazarı və Sosial Müdafiə Məsələləri üzrə Milli Observatoriyanın Nizamnaməsi"ndə aşağıdakı dəyişikliklər edilsin:

2.1. 4.7-ci bəndin dördüncü cümləsinə "qərarlar" sözündən sonra "açıq səsvermə yolu ilə" sözləri əlavə edilsin;

2.2. aşağıdakı məzmunda 4.11.1-1-ci yarımbənd əlavə edilsin:

"4.11.1-1. müavinləri və struktur bölmələrinin rəhbərləri arasında vəzifə bölgüsü aparır;";

2.3. 5-ci hissənin adında "maliyyə-təsərrüfat fəaliyyəti" sözləri "maliyyə fəaliyyətinin əsasları" sözləri ilə əvəz edilsin.

3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 30 iyul tarixli 273 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 7, maddə 1003 (Cild I); 2024, № 2, maddə 230, № 10, maddə 1161; 2025, № 7, maddə 730) ilə təsdiq edilmiş "Dövlət və bələdiyyə tərəfindən yaradılan uşaq evləri sosial xidmət müəssisələrinin Nümunəvi Nizamnaməsi"nin 5-ci hissəsinin adında "maliyyə-təsərrüfat fəaliyyəti" sözləri "maliyyə fəaliyyətinin əsasları" sözləri ilə əvəz edilsin.

4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 30 iyul tarixli 274 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 7, maddə 1004 (Cild I); 2024, № 2, maddə 230, № 10, maddə 1161; 2025, № 7, maddə 730) ilə təsdiq edilmiş "Dövlət və bələdiyyə tərəfindən yaradılan ailə tipli kiçik qrup evinin Nümunəvi Nizamnaməsi"nin 5-ci hissəsinin adında "maliyyə-təsərrüfat fəaliyyəti" sözləri "maliyyə fəaliyyətinin əsasları" sözləri ilə əvəz edilsin.

5. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 6 avqust tarixli 286 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 8, maddə 975 (Cild I); 2025, № 7, maddə 730; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 16 sentyabr tarixli 265 nömrəli Qərarı) ilə təsdiq edilmiş"Dövlət və bələdiyyə tərəfindən yaradılan sosial xidmət müəssisələrinin Nümunəvi Nizamnaməsi"nin 5-ci hissəsinin adında "maliyyə-təsərrüfat fəaliyyəti" sözləri "maliyyə fəaliyyətinin əsasları" sözləri ilə əvəz edilsin.

6. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 6 avqust tarixli 287 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 8, maddə 976 (Cild I) ilə təsdiq edilmiş "Dövlət reabilitasiya müəssisələrinin Nümunəvi Nizamnaməsi"nin 5-ci hissəsinin adında "maliyyə-təsərrüfat fəaliyyəti" sözləri "maliyyə fəaliyyətinin əsasları" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Qafqaz Müsəlmanları İdarəsinin sədri Allahşükür Paşazadənin Amerika Birləşmiş Ştatlarına səfəri davam edir



**Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə İsa Məsihin Sonuncu Gün Müqəddəsləri Kilsəsinin icması və Stirlinq Fondunun dəvəti ilə Amerika Birləşmiş Ştatlarının Yuta ştatında səfərdədir.**

Qafqaz Müsəlmanları İdarəsindən AZƏRTAC-a bildirilib ki, səfər çərçivəsində Allahşükür Paşazadə oktyabrın 4-də Solt-Leyk-Siti şəhərində İsa Məsihin Sonuncu Gün Müqəddəsləri Kilsəsinin Ümumdünya Qurultayında iştirak edib.

Tədbirdə Qafqaz Müsəlmanları İdarəsi sədrinin konfrans iştirakçılarına müraciəti səsləndirilib.

Müraciətdə Şeyxülislam A.Paşazadə ABŞ-nin Yuta ştatının ictimaiyyətinə və din xadimlərinə Azərbaycanın multikultural dəyərlər ölkəsi kimi salamlarını çatdırıb, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə mövcud olan tolerantlıq və dinlərarası həmrəyliyin dünyada nümunəvi modelə çevrildiyini vurğulayıb.

QMİ sədri ABŞ və Azərbaycanın dini konfessiyaları arasında dostluq münasibətlərinin inkişafını məmnunluqla vurğulayıb, qarşılıqlı səfərlərin və birgə layihələrin xalqlarımızın mənəvi yaxınlaşmasına xidmət etdiyini bildirib. O, həmçinin İsa Məsihin Sonuncu Gün Müqəddəsləri Kilsəsinin Azərbaycanın multikultural ailəsinə rəsmən üzv olmasını yüksək dəyərləndirib.

Müraciətdə Azərbaycan xalqının ABŞ-nin ölkəmizin ərazi bütövlüyü və regionda sülhün bərqərar olması istiqamətində göstərdiyi səyləri yüksək qiymətləndirdiyi diqqətə çatdırılıb. Şeyxülislam xüsusilə avqustun 8-də Vaşinqton Zirvə görüşünü və Prezident Donald Trampın bu istiqamətdəki şəxsi səylərini təqdir edib.

QMİ sədri Stirlinq Fonduna Azərbaycanın işğaldan azad olunmuş ərazilərinin minalardan təmizlənməsi təşəbbüsünə verdiyi humanist dəstəyə görə xalqımız və dini konfessiyalar adından minnətdarlığını bildirib.

Allahşükür Paşazadə Azərbaycanın mədəniyyətlərarası dialoqa töhfə verən "Bakı Prosesi", eləcə də 2010-cu və 2019-cu illərdə keçirilmiş Dünya dini liderlərinin sammitləri, 2024-cü ildə COP29 çərçivəsində təşkil olunan Dini liderlərin zirvə görüşü barədə məlumat verib.

O qeyd edib: "Azərbaycan dünyada azsaylı ölkələrdəndir ki, burada müxtəlif dinlərin nümayəndələri tarixən qarşıdurma olmadan, bərabərlik və qarşılıqlı hörmət şəraitində yaşayırlar. Bu ənənənin əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulub, Prezident İlham Əliyev tərəfindən isə uğurla davam etdirilir. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva multikulturalizmin dünya miqyasında təbliği sahəsində həyata keçirdiyi nəcib fəaliyyətlə Azərbaycanın sivilizasiyalararası dialoq və əməkdaşlıq istiqamətində beynəlxalq aləmdə nüfuzlu söz sahibinə çevrilməsinə mühüm töhfə verir".

Qurultay çərçivəsində kilsənin mərhum rəhbəri, prezident Rassel Nelsonun xatirəsinə həsr olunmuş film nümayiş etdirilib.

Səfər çərçivəsində QMİ sədri Yuta Ştatı Senatının sədri Adam Stüart ilə də görüşüb. Görüşdə Azərbaycan haqqında xoş sözlər səsləndirilib, ölkəmizin multikultural həyat tərzi yüksək qiymətləndirilib.

Tədbirlərdə Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin icraçı direktoru Rəvan Həsənov və Milli Məclisin deputatı Cavanşir Paşazadə də iştirak ediblər.

Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadənin Amerika Birləşmiş Ştatlarına səfəri davam edir.

# Orta dəhliz daha rəqabətqabiliyyətli və biznes üçün əlverişli marşruta çevrilmək baxımından yaxşı perspektivlərə malikdir

**Orta dəhliz Avropa ilə Asiyanı birləşdirən nəqliyyat marşrutu kimi tədricən daha böyük əhəmiyyət qazanmaqdadır. Onun inkişafı beynəlxalq ticarət və logistika üçün böyük önəm daşıyır, lakin bu marşrut infrastruktur məhdudiyyətlərindən tutmuş tariflərin və gömrük prosedurlarının razılaşdırılmasına qədər bir sıra çətinliklərlə üzləşir. Mövzu ilə bağlı beynəlxalq logistika üzrə ekspert, mürəkkəb təchizat zəncirlərinin idarə edilməsi və logistika proseslərinin optimallaşdırılmasında ixtisaslaşmış beynəlxalq "Kenderi Logistics" şirkətinin direktoru Vyaçeslav Kazarovun AZƏRTAC-a müsahibəsini təqdim edirik.**



*- Bu gün Orta dəhliz Avrasiya üçün strateji marşrut kimi dəyərləndirilir. Hazırda o, dövlət deyil, biznes baxımından ənənəvi marşrutlarla müqayisədə nə dərəcədə rəqabətqabiliyyətlidir?*

- Biz ilk növbədə müştərilərimiz üçün xidmət təminatçılarıyıq və onların biznesinin və layihələrinin uğuru məhz təqdim etdiyimiz xidmətlərin keyfiyyətindən asılıdır. Hazırda bir çox şirkətlər Orta dəhlizi seçir, çünki korporativ siyasət və ya sanksiya riski kimi müəyyən çağırışlarla üzləşirlər. Bununla belə, ənənəvi marşrutlardan istifadə imkanı olan şirkətlər hələ də həmin yollarla işləməyə üstünlük verirlər. Bu da göstərir ki, Orta dəhliz hələ inkişaf mərhələsindədir və gələcəkdə rəqabətqabiliyyətini artırmaq üçün böyük potensiala malikdir.

*- Region ölkələri arasında tranzit axınları uğrunda sağlam rəqabət mövcuddur. Bu rəqabəti sinerjiyə çevirmək mümkündürmü və biznes bu prosesə necə töhfə verə bilər?*

- Sağlam rəqabət həmişə inkişafın mühərrikidir. O, xidmət keyfiyyətinin yüksəlməsinə, yeni həllərin və alternativ marşrutların yaranmasına, eləcə də biznesin iştirakına və artmasına səbəb olur. Əsas odur ki, bu rəqabət açıq və ədalətli olsun, dövlət qurumlarının və ya ayrı-ayrı şirkətlərin əlində monopoliyaya çevrilməsin. Bu baxımdan biznes tranzit axınlarının səmərəli bölüşdürülməsində mühüm rol oynaya bilər və marşrutun "dar boğazlarında" yüklənməni minimuma endirməyə çalışa bilər.

Bizim şirkətin müxtəlif ölkələrdə ofisləri var və logistik axınlara nəzarət imkanı mövcuddur. Biz mütəmadi olaraq müxtəlif marşrutları təhlil və tətbiq edir, yüklənmələri, mövsümi və risk amillərini, eləcə də müştəri tələblərini nəzərə alaraq optimal həllər tətbiq edirik. Bu çevik yanaşma ümumi uğura və Orta dəhlizin inkişafına xidmət edir.

*- Qazaxıstan, Azərbaycan və Gürcüstan Orta dəhlizi böyük beynəlxalq yükgöndərənlər üçün daha cəlbedici etmək üçün hansı birgə addımlar atmalıdırlar?*

- Əvvəlcə bütün tranzit proseslərinin tam sistemləşdirilməsi vacibdir. Gömrük və qiymət sistemləri vahid məlumat bazalarına inteqrasiya edilməlidir. Bu ölkələrin gömrük qanunvericilikləri bir-birinə çox bənzədiyindən, vahid tranzit gömrük prosedurlarını tətbiq etmək mümkündür ki, bu da Qazaxıstan, Azərbaycan və Gürcüstan sistemlərində avtomatik əks olunsun.

Bu yanaşma gömrük keçidini xeyli sadələşdirəcək və sürətləndirəcək, tranzit yüklərin əlavə nəzarətini azaltmağa imkan verəcək. Prosedurlarda sadəlik və operativlik sifarişçilər, müştərilər və yükgöndərənlər üçün hər zaman həlledici amillərdir. Belə bir sistem Orta dəhlizi beynəlxalq bazarda daha rəqabətqabiliyyətli və cəlbedici edəcək.

*- Gələcəyə baxsaq, hansı innovasiyalar ("yaşıl logistika", pilotsuz yük maşınları, sənəd dövriyyəsində blokçeyn və s.) Orta dəhlizin üstünlüyünə çevrilə bilər?*

- Gəlin, mərhələli şəkildə nəzər yetirək. Artıq bu gün kağız sənədlərdən istifadənin əhəmiyyətli dərəcədə azaldılması mümkündür, yəni nəqliyyat və kommersiya sənədlərinin əksəriyyətini elektron şəkildə tərtib etmək və saxlamaq olar. Onlar göndərən şirkət və ya sifarişçi tərəfindən elektron imza ilə təsdiqlənir, nəzarət orqanlarının inspektorları tərəfindən elektron möhürlərlə təsdiq edilir. Bu, şəffaflığı və təhlükəsizliyi artırmaqla yanaşı, tranzit, idxal və ixrac yükləri üzrə avtomatik analitika aparmağa, həmçinin dövlət büdcələri üçün vergi daxilolmalarını və digər vacib məlumatları izləməyə imkan verir.

Növbəti təbii addım isə həm dəmir yolu, həm avtomobil daşımalarında, gələcəkdə isə hava və dəniz nəqliyyatında da pilotsuz texnologiyaların tətbiqi olacaq. Bu, insan iştirakını minimuma endirəcək, gömrük və tranzit prosedurlarını sürətləndirəcək, ümumi effektivliyi və ekoloji dayanıqlığı artıracaq.

Bu innovasiyaların birgə tətbiqi Orta dəhlizin rəqabətqabiliyyətini əhəmiyyətli dərəcədə yüksəldə, onu beynəlxalq biznes üçün ən müasir və cəlbedici marşrutlardan birinə çevirə bilər.

*- Nəhayət, təsəvvür edək ki, 2030-cu ildir: "Kenderi Logistics" harada olacaq və siz Orta dəhlizi necə görürsünüz - artıq Avrasiyanın tamhüquqlu "arteriyası", yoxsa hələ inkişafda olan layihə kimi?*

- "Kenderi Logistics" şirkətinin yaxın beş il üçün strategiyası Avropa-Asiya istiqamətində etibarlı və səmərəli tranzit marşrutu yaratmaq, həmçinin Amerika istiqamətindən axınların inteqrasiyasını təmin etməkdir. Biz bütün nəqliyyat növlərini əhatə edən bir sistem qurmağı planlaşdırırıq ki, bu da müştəri tələblərinə və tranzit vaxtına uyğun olaraq marşrut və daşınma növləri arasında çevik keçidi mümkün etsin.

Yüksək xidmət səviyyəsi, zəmanətli çatdırılma müddətləri və optimal logistika xərcləri təmin etməklə biz Orta dəhlizi biznes üçün, doğrudan da, cəlbedici etmək niyyətindəyik. Müştərilər bu marşrutu xarici məhdudiyyətlərdən deyil, Avropa ilə Asiya arasında ticarət üçün ən əlverişli şərtləri təklif etdiyinə görə seçəcəklər ki, bu da hər iki istiqamətlərdə rəqabət qabiliyyətini təmin edəcək.

Beləliklə, 2030-cu ilə qədər Orta dəhliz Avrasiyanın beynəlxalq yükdaşımalarında əsas rol oynayan tamhüquqlu "arteriyasına" çevriləcək, "Kenderi Logistics" isə regionun logistika sahəsində keyfiyyət və innovasiya standartlarını müəyyən edən aparıcı şirkətlərdən biri olacaq.

# Azərbaycanın xarici siyasətinin uğurları




# Qardaşlığımız əbədidir!

**Ölkəmiz daha bir mötəbər beynəlxalq tədbirə - Türk Dövlətləri Təşkilatının (TDT) Dövlət Başçıları Şurasının 12-ci Zirvə görüşünə evsahibliyi edir. Füsunkar şəhərimiz Qəbələdə keçirilən sammit "Regional sülh və təhlükəsizlik" mövzusuna həsr edilib.**

Zirvə görüşü qurumun üzv və müşahidəçi ölkələrinin dövlət və hökumət başçılarını, eləcə də onların nümayəndə heyətlərini bir araya gətirir. TDT-dən bildirilib ki, bu toplantı bölgədə, eləcə də beynəlxalq miqyasda aktual məsələləri müzakirə etməyə, əməkdaşlığı gücləndirməyə, o cümlədən türk dünyasında birliyi, sülhü və rifahı daha da irəli aparmaq məqsədilə mühüm sənədləri təsdiq etməyə imkan yaradacaq. Görüş zamanı qəbul olunacaq sənədlər, o cümlədən XII Zirvə Görüşünün Bəyannaməsi təşkilatın siyasi və institusional strukturunun yeni mərhələyə keçidini əks etdirəcək.

Zirvə görüşü çərçivəsində Prezident İlham Əliyevin ikitərəfli görüşləri nəzərdə tutulur. Rəsmi proqram üzrə isə TDT Xarici İşlər Nazirləri Şurasının toplantısı keçiriləcək. Bu, yalnız protokol xarakterli görüşlər deyil, eyni zamanda yeni təşəbbüslərin irəli sürülməsi, ortaq qərarların qəbul edilməsi və türk dünyasının gələcək inteqrasiyasına dair strateji müzakirələrin aparılması üçün mühüm imkan olacaq.

## Bizi birləşdirən güc

Azərbaycan hər zaman türk dövlətləri arasında birliyə, həmrəyliyə layiqli töhfələr verir.

2009-cu ildə Türkdilli Ölkələrin Dövlət Başçılarının 9-cu Zirvə görüşü qədim yurdumuz Naxçıvanda olub və həmin zaman "Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının yaradılması haqqında Naxçıvan Sazişi" imzalanıb.

Naxçıvan Sazişində təşkilatın yaradılmasında əsas məqsədlər kimi tərəflər arasında qarşılıqlı etimad, dostluq və xoş qonşuluğun möhkəmləndirilməsi, regionda və ümumilikdə dünyada sülhün qorunması, təhlükəsizlik və etimadın gücləndirilməsi nəzərdə tutulub. Həmçinin siyasi, ticari-iqtisadi, hüquq-mühafizə, təbiətin mühafizəsi, mədəni, elmi-texniki, hərbi-texniki, təhsil, enerji, nəqliyyat, kredit-maliyyə və ümumi maraq kəsb edən digər sahələrdə səmərəli regional və ikitərəfli əməkdaşlığın təşviqi, türk xalqlarının böyük mədəni-tarixi irsinin təbliği, tanınması və yayılmasında kütləvi informasiya vasitələri arasında qarşılıqlı əlaqənin və tərəflər arasında təmasların təşviqi və sair yer alıb.

Naxçıvan Zirvə görüşündə yaradılan Türkdilli Ölkələrin Əməkdaşlıq Şurasının (Türk Şurası) adı 2021-ci ildə İstanbulda keçirilən tarixi Zirvə görüşündə dəyişdirilərək Türk Dövlətləri Təşkilatı (TDT) olub.

Quruma təsisçi üzv dövlətlər - Azərbaycan, Qazaxıstan, Qırğızıstan və Türkiyə olub, daha sonra 2019-cu ilin oktyabrında Bakıda keçirilən 7-ci Zirvə görüşündə Özbəkistan tamhüquqlu üzv kimi qoşulub. Macarıstan 2018-ci ilin sentyabrında Qırğızıstanın Çolpon-Ata şəhərində keçirilmiş 6-cı Zirvə görüşündə müşahidəçi statusu qazanıb. 2021-ci ilin noyabrında keçirilən 8-ci Zirvə toplantısında Türkmənistan, 2022-ci ilin noyabrında Şimali Kipr Türk Cümhuriyyəti və 2023-cü ildə İqtisadi Əməkdaşlıq Təşkilatı (İƏT) quruma müşahidəçi üzv kimi qoşulub.

İstanbulda daimi katibliyi, Budapeştdə isə Avropa ofisi olan TDT-nin üzv və müşahidəçiləri arasında siyasətdən iqtisadiyyata, nəqliyyatdan gömrüyə, enerjidən kənd təsərrüfatına, təhsildən gənclik və idmana, rəqəmsallaşmadan ədalət və təhlükəsizliyə, mədəniyyətdən turizm və sağlamlığa qədər 30-dan artıq fərqli sahə üzrə çoxistiqamətli əməkdaşlığı həyata keçirdiyi bildirilir.

2024-cü ildə təşkilatın yayımlanan məlumatlandırıcı infoqrafik videoçarxında bildirilir ki, TDT dünya üzrə 4,5 milyon kilometr ərazidə 300 milyon insanı əhatə edir və bu dövlətlərin ümumi valyuta büdcəsi 4 trilyon dollara çatır.

Qurumun vəzifələrini yerinə yetirməsi və qarşısına qoyduğu məqsəd və hədəflərə nail olması üçün müxtəlif strukturlar yaradılıb. Dövlət Başçıları Şurası, Xarici İşlər Nazirləri Şurası, Ağsaqqallar Şurası, Baş Katiblik, Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı (TÜRKSOY), Türk Dövlətləri Parlament Assambleyası (TÜRKPA), Beynəlxalq Türk Akademiyası, Türk Mədəniyyəti və İrsi Fondu (TMİF), Türk Ticarət və Sənaye Palatası, Türk Biznes Şurası formalaşdırılıb. Türk əməkdaşlıq təşkilatlarından ikisi - Türk Dövlətləri Parlament Assambleyası və Türk Mədəniyyəti və İrsi Fondunun mənzil qərargahları Bakıda yerləşir.

## Azərbaycanın müstəsna rolu

Ölkəmiz Türk Dövlətləri Təşkilatının, dolayısı ilə türk dünyasının güclənməsi və qlobal nüfuza sahib olması üçün mühüm təşəbbüslərlə çıxış edir, lazımi addımlar atır və vacib dəstək göstərir. Dövlətimizin TDT-nin Katibliyinə 2 milyon və Ağsaqqallar Şurasına 100 min ABŞ dolları məbləğində maliyyə dəstəyi də bu qəbildəndir.

Təşkilatın lokomotivlərindən olan Azərbaycanın Zəfəri sayəsində qurum çərçivəsində əlaqələr daha da şaxələnib və möhkəmlənib. Ən mühümü isə vaxtilə mənfur güclərin planları ilə aralarına sədd çəkilmiş türk dünyası ölkələrinin etnosiyasi coğrafiyası bərpa edilib. Bu, kökləri, dili, mədəniyyətləri ilə bir-birlərinə sıx bağlı olan xalqlarımızın adına qazanılan misilsiz qələbə kimi tarixə yazılıb.

Türk dünyasının birləşdirici gücü kimi Azərbaycanın TDT-nin hərtərəfli inkişafında rolu böyükdür.

Prezident İlham Əliyevin ötən ilin fevralında andiçmə mərasimində səsləndirdiyi "Bizim üçün TDT əsas beynəlxalq təşkilatdır, çünki bu, bizim ailəmizdir. Bizim başqa ailəmiz yoxdur. Bizim ailəmiz türk dünyasıdır" fikirləri ölkəmizin türk dünyasının birliyinə verdiyi dəyəri bir daha nümayiş etdirir.

Ölkəmiz təşkilat çərçivəsində siyasi təşəbbüslərlə çıxış edir, yeni əməkdaşlıq sahələri yaradır və ortaq layihələrin maliyyələşdirilməsində, idarə olunmasında fəal iştirak edir. Prezident İlham Əliyevin təşəbbüsləri TDT-nin inkişaf strategiyasının əsas istiqamətlərini müəyyənləşdirib. Məhz bu təşəbbüslər nəticəsində TDT formal birlikdən real təsir gücünə malik beynəlxalq təşkilata çevrilib.

Təşkilatın Baş katibi Kubanıçbek Ömüralıyev oktyabrın 3-də qeyd edilən Türk Dövlətlərinin Əməkdaşlıq Günü münasibətilə yazdığı "Bişkekdən Qəbələyə qədər: Türk dövlətlərinin nailiyyətləri və perspektivləri" sərlövhəli məqaləsində də bu məqamı xüsusi qeyd edib: "2009-cu il Naxçıvan Sazişinin imzalandığı məkan kimi Azərbaycan həmişə türk dövlətləri ailəsinin mərkəzində dayanıb...

...Azərbaycanın böyük nəqliyyat və enerji layihələrində - "Cənub qaz dəhlizi"ndən tutmuş Bakı-Tbilisi-Qars dəmir yolu və Orta dəhlizədək rolu hamıya məlumdur. Bu təşəbbüslər ticarət yollarını qısaldır, qitələri birləşdirir və qlobal əlaqəyə töhfə verir. Enerji sahəsində əməkdaşlıq isə başqa bir təməl daşıdır: Azərbaycanın iddialı dəniz külək layihələri və "yaşıl dəhliz" tərəfdaşlığı ölkələrimizin davamlı inkişaf səylərini nümayiş etdirir".

O vurğulayıb ki, ilk dəfə Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən irəli sürülmüş Türk Ticarət və Sənaye Palataları İttifaqı və Türk İnvestisiya Fondu kimi mexanizmlər milyonlarla sahibkarı bir araya gətirir və rifahın regionumuzda kiçik və orta sahibkarlığa çatmasını təmin edir.

## İlham ƏLİYEV: "Qardaşlığımız əbədidir!"

Obrazlı ifadə etsək, TDT-nin doğuluş ünvanı olan Azərbaycan təşkilatın möhkəmlənməsi, türkdilli ölkələr arasında əməkdaşlığın daha da inkişafı üçün əməli addımlar atır. Həmçinin qurumun ölkəmizdə keçirilən tədbirləri də hər zaman yüksək təşkilatçılığı, dost və qardaş ölkələrdən gələn əziz qonaqlara göstərilən diqqət və qayğı ilə yadda qalır.

Ötən ilin 6 iyul tarixində Şuşada Türk Dövlətləri Təşkilatının Dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşü buna bariz nümunədir. Şuşa Zirvəsi həm də türk dünyasının zəfərini simvolizə etdiyi üçün xüsusi rəmzi məna daşıyırdı. Həmin tarixdə Azərbaycan Prezidenti İlham Əliyev mötəbər qonaqlarını - Özbəkistan Prezidenti Şavkat Mirziyoyevi, Qırğız Prezidenti Sadır Japarovu, Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevi, Macarıstanın Baş naziri Viktor Orbanı, Türkiyənin vitse-prezidenti Cevdet Yılmazı, Şimali Kipr Türk Cümhuriyyətinin Prezidenti Ersin Tatarı, TDT-nin Baş katibi Kubanıçbek Ömüralıyevi Qarabağ torpağında qürurla qarşıladı.

Ölkəmizin rəhbəri sözügedən Zirvə görüşü zamanı bəyan etdi ki, Türk Dövlətləri Təşkilatı dünya miqyasında güc mərkəzlərinin birinə çevrilməli, XXI əsr türk dünyasının inkişafı əsri olmalıdır.

Şuşada keçirilən qeyri-rəsmi Zirvə görüşü çərçivəsində əməkdaşlığın daha da dərinləşməsinə töhfə verən mühüm Qarabağ Bəyannaməsi imzalanıb.

Azərbaycan həmçinin 30 illik işğaldan azad olunmuş ərazilərində qardaş ölkələrlə birgə həyata keçirdiyi infrastruktur və sosial layihələr vasitəsilə bu həmrəyliyi konkret fəaliyyətə çevirir. Qardaş dövlətlərin dəstəyi ilə həmin ərazilərdə məktəblər, yaradıcılıq mərkəzləri inşa olunub, yeni təhsil və mədəniyyət ocaqları yaradılıb. Prezident İlham Əliyev Bişkek Zirvəsində bu töhfələrə görə Özbəkistan, Qazaxıstan, Qırğızıstan və Macarıstana təşəkkürünü bildirib.

Bu gün isə türk dünyasının həmrəyliyinin növbəti təntənəsi tarixi şəhərimiz Qəbələdə yaşanır. Qurumun üzv və müşahidəçi ölkələrinin dövlət və hökumət başçılarını, eləcə də onların nümayəndə heyətlərini bir araya gətirən və "Regional sülh və əməkdaşlıq" mövzusuna həsr edilən Qəbələ Zirvə görüşündə bölgədə, eləcə də beynəlxalq miqyasda aktual məsələlər müzakirə mövzusu olacaq.

Onu da bildirək ki, Qəbələ şəhərində keçirilən 12-ci Zirvə görüşünün sonunda TDT-yə sədrlik Qırğızıstandan Azərbaycana keçəcək.

Gələcəkdə TDT-nin siyasi, iqtisadi və təhlükəsizlik baxımından daha sıx inteqrasiya olunmuş müttəfiqlik modelinə çevrilməsi onu yalnız türkdilli ölkələr üçün deyil, həm də Avrasiya və Yaxın Şərq regionlarında alternativ sabitlik mərkəzinə çevirəcək.

Yalnız regional deyil, qlobal miqyaslı problemlərin həllinin artıq fəal iştirakçısına çevrilən təşkilatın timsalında ümumilikdə türk dünyasının birliyinin daimi və əbədi olması üçün Azərbaycan bundan sonra da səylərini əsirgəməyəcək.

Prezident İlham Əliyevin rəsmi sosial şəbəkə səhifələrində bu il 3 Oktyabr - Türk Dövlətlərinin Əməkdaşlıq Günü ilə bağlı paylaşımında bəyan etdiyi kimi: "Ötən 16 il ərzində təşkilatımız güclənmiş, dünya miqyasında böyük nüfuz qazanmış, sıralarımız genişlənmişdir. Türk Dövlətləri Təşkilatı ölkələrimiz arasında siyasi, iqtisadi və humanitar sahələrdə əməkdaşlığın gücləndirilməsinə, türk xalqları arasında həmrəyliyin daha da möhkəmlənməsinə böyük töhfə vermişdir.

Azərbaycan türk dünyasının birliyinin gücləndirilməsi istiqamətində səylərini bundan sonra da davam etdirəcək. Qardaşlığımız əbədidir!"

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

# Türk dünyası həmrəyliyinin Qəbələ zirvəsi



**Oktyabrın 6-da Azərbaycanın Qəbələ şəhərində "Regional sülh və təhlükəsizlik" mövzusunda Türk Dövlətləri Təşkilatının (TDT) Dövlət Başçıları Şurasının 12-ci Zirvə toplantısı öz işinə başladı. Bu hadisə həm Azərbaycan, həm də bütün türk dünyası üçün xüsusi əhəmiyyət kəsb edir, çünki beynəlxalq birliyin köklü transformasiyalarla üzləşdiyi, regional ittifaqların və birliklərin isə qlobal siyasi səhnədə getdikcə daha nüfuzlu aktorlara çevrildiyi bir dövrə təsadüf edir.**

Milli Məclisin deputatı Kamran Bayramov "Azərbaycan" qəzetinə açıqlamasında bildirib ki, təşkilatın Zirvə toplantısının 16-cı ildönümündə ölkəmizdə keçirilməsi rəmzi və strateji əhəmiyyət daşıyır, çünki onun təməli qədim Azərbaycan torpağında qoyulub: 2009-cu il oktyabrın 3-də Naxçıvanda sonradan TDT-yə çevrilmiş Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının yaradılması haqqında saziş imzalanıb: "Türk Dövlətləri Təşkilatının tarixi türkdilli ölkələr arasında koordinasiya və dialoq ideyasından geniş gündəliyə və artan təsirə malik olan tamhüquqlu beynəlxalq quruma qədər uzanan bir yoldur. Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına ilkin olaraq Azərbaycan, Qazaxıstan, Qırğızıstan və Türkiyə daxil idi. Daha sonra Özbəkistan üzv oldu, Türkmənistan, Macarıstan və Şimali Kipr Türk Cümhuriyyəti isə müşahidəçi statusu aldı. 2021-ci il noyabrın 12-də İstanbulda keçirilən 8-ci Zirvə toplantısında təşkilatın adının dəyişdirilərək Türk Dövlətləri Təşkilatı adlandırılması barədə qərar qəbul edildi. Bu sadəcə ad dəyişikliyi deyil, təşkilatın siyasi yetkinləşməsini və beynəlxalq institut kimi fəaliyyət göstərməyə hazırlığını simvolizə edən inteqrasiyanın yeni səviyyəsinə keçid idi".

Deputat qeyd edib ki, təxminən 175 milyon əhalisi və 4,5 milyon kvadratkilometr ərazisi olan türk regionu mühüm iqtisadi potensiala malikdir. 2024-cü ildə üzv və müşahidəçi dövlətlərin ümumi ÜDM-i 2,1 trilyon dolları keçib, ticarət dövriyyəsi 1,1 trilyon dollara çatıb, TDT-nin üzvü olan dövlətlər arasında ticarət isə təxminən 850 milyard dollar təşkil edib. Bu, böyük iqtisadi, demoqrafik və geosiyasi potensialı əks etdirir. Təşkilatın üzvü olan dövlətlər enerji ehtiyatları ilə zəngindir və strateji nəqliyyat dəhlizləri onların üzərindən keçir. Bu platformada TDT-nin üzvü olan dövlətlər siyasət, iqtisadiyyat, nəqliyyat, müdafiə, təhlükəsizlik, mədəniyyət, təhsil, turizm və idman sahələrində əməkdaşlığı fəal şəkildə inkişaf etdirirlər. Bütün bunlar Türk Dövlətləri Təşkilatını qlobal siyasətdə mühüm oyunçuya çevirir.

O bildirib ki, TDT-nin strukturuna Dövlət Başçıları Şurası, Xarici İşlər Nazirləri Şurası, Ağsaqqallar Şurası, Yüksəkvəzifəli Şəxslər Komitəsi və Katiblik daxildir: "Bundan əlavə, təşkilat Türk Dövlətlərinin Parlament Assambleyası (TÜRKPA), Beynəlxalq Türk Akademiyası, TÜRKSOY, Türk İnvestisiya Fondu və Türk Mədəniyyəti və İrsi Fondunun fəaliyyətini əlaqələndirir. Təşkilat BMT, ATƏT, İƏT, Ümumdünya Gömrük Təşkilatı və digər beynəlxalq qurumlarla əməkdaşlıq edir və bununla da qlobal siyasətdə öz təsirini tədricən genişləndirir. Xüsusilə qeyd edilməlidir ki, İstanbulda keçirilən 8-ci Zirvə toplantısında qəbul edilmiş və etimadın, siyasi həmrəyliyin möhkəmləndirilməsi, iqtisadi və texniki əməkdaşlığın inkişafı, mədəni irsin qorunması, vahid nəqliyyat məkanının yaradılması, təhlükəsizliyin əlaqələndirilməsi kimi uzunmüddətli prioritetləri özündə əks etdirən "Türk dünyasına baxış - 2040" konsepsiyası TDT-nin mühüm strateji sənədinə çevrildi".

Azərbaycanın Türk Dövlətləri Təşkilatında xüsusi yer tutduğunu deyən K.Bayramov əlavə edib ki, ölkəmiz türk inteqrasiyası gündəliyini əsas beynəlxalq prioritet kimi qəbul etməklə, onu fəal şəkildə təşviq edir. Prezident İlham Əliyev TDT-nin xüsusi əhəmiyyətini dəfələrlə vurğulayıb və bu gün də onu qabardır. Dövlət başçısı oktyabrın 3-də Qəbələ Zirvə toplantısı ərəfəsində öz sosial şəbəkə hesablarında paylaşım edərək bildirib: "3 Oktyabr - Türk Dövlətlərinin Əməkdaşlıq Günüdür. Məhz bu gün 2009-cu ildə qədim Azərbaycan torpağı olan Naxçıvanda Türk Dövlətləri Təşkilatının əsası qoyulmuşdur. Bu əlamətdar gün münasibətilə türk dünyasını səmimi-qəlbdən təbrik edirəm. Türk dünyası bizim ailəmizdir! Ötən 16 il ərzində təşkilatımız güclənmiş, dünya miqyasında böyük nüfuz qazanmış, sıralarımız genişlənmişdir. Türk Dövlətləri Təşkilatı ölkələrimiz arasında siyasi, iqtisadi və humanitar sahələrdə əməkdaşlığın gücləndirilməsinə, türk xalqları arasında həmrəyliyin daha da möhkəmlənməsinə böyük töhfə vermişdir. Azərbaycan türk dünyasının birliyinin gücləndirilməsi istiqamətində səylərini bundan sonra da davam etdirəcək. Qardaşlığımız əbədidir!"

Deputat qeyd edib ki, bu sözlər TDT-ni təkcə siyasi birlik kimi deyil, həm də sivilizasiya layihəsi kimi qəbul edən Azərbaycanın uzunmüddətli strategiyasını əks etdirir. Bu baxımdan İlham Əliyevin ötən il fevralın 14-də andiçmə mərasimindəki söylədiyi nitqində olan bu sözlər xüsusi əhəmiyyət kəsb edir: "Biz beynəlxalq təşkilatlarla bağlı bundan sonra da öz addımlarımızı atacağıq, ilk növbədə Türk Dövlətləri Təşkilatı çərçivəsində səylərimizi davam etdirəcəyik. Bu, bizim üçün prioritetdir, mən bunu açıq demək istəyirəm, yəqin ki, indi aparılan siyasət də hər kəsə bunu aydın göstərir. Bu, bizim üçün əsas beynəlxalq təşkilatdır, çünki bu, bizim ailəmizdir. Bizim başqa ailəmiz yoxdur. Bizim ailəmiz türk dünyasıdır".

K.Bayramov deyib ki, Türk Dövlətləri Təşkilatının Dövlət Başçıları Şurasının Qəbələdə keçiriləcək 12-ci Zirvə toplantısı onun inkişafında mühüm mərhələ olacaq: "Toplantının "Regional sülh və təhlükəsizlik" şüarı bu günün əsas çağırışını əks etdirir: artan turbulentlik fonunda TDT həmrəyliyin, qarşılıqlı yardımın və koordinasiyanın təkmil, səmərəli və uğurlu modelini təklif edə bilər. Azərbaycan isə toplantıya evsahibliyi edən ölkə kimi, təhlükəsizlik çağırışlarını birgə həll etmək, iqtisadi əməkdaşlığı genişləndirmək və nəqliyyat layihələrini təşviq etmək üçün qardaş türk dövlətlərinin konsolidasiyasını gücləndirmək naminə hər cür səy göstərəcək".

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Azərbaycanın sülh addımları beynəlxalq miqyasda təqdim olundu

**Prezident İlham Əliyevin Kopenhagenə səfəri ölkəmizin Avropa siyasi məkanındakı fəal rolunun və artan diplomatik çəkisinin növbəti göstəricisidir. Bu iştirak həm Azərbaycanın xarici siyasət prioritetlərinin davamlılığı, həm də Avropa ilə strateji tərəfdaşlıq münasibətlərinin dərinləşdirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir.**

Milli Məclisin deputatı Rəşad Mahmudov qəzetimizə açıqlamasında bildirib ki, Avropa Siyasi Birliyi 2022-ci ildə qitənin müxtəlif ölkələrini - həm Avropa İttifaqına üzv, həm də üzv olmayan dövlətləri bir platformada toplayaraq təhlükəsizlik, enerji, nəqliyyat, iqlim, miqrasiya və sabitlik kimi qlobal məsələlər üzrə dialoqu gücləndirmək məqsədilə yaradılıb: "Azərbaycan bu platformanın ilk gündən etibarən fəal iştirakçılarından biridir. Bu, ölkəmizin qlobal və regional proseslərdə öz mövqeyini birbaşa ifadə etməsinə, həm də yeni əməkdaşlıq istiqamətləri açmasına imkan yaradır. Azərbaycanın bu formatda iştirakı ilk növbədə onun Avropa üçün strateji əhəmiyyət daşıyan enerji və nəqliyyat tərəfdaşı statusunu möhkəmləndirir. Avropanın enerji təchizatında mühüm paya malik olan Azərbaycan bu gün qitənin enerji təhlükəsizliyində etibarlı və uzunmüddətli tərəfdaş kimi tanınır. Bu, təkcə iqtisadi deyil, həm də siyasi etimad məsələsidir. Prezident İlham Əliyevin Kopenhagen sammitində iştirakı bir daha göstərdi ki, Azərbaycan öz enerji potensialını yalnız iqtisadi mənfəət üçün deyil, həm də regional sabitlik və qarşılıqlı etimadın möhkəmlənməsi naminə istifadə edir".

Deputat qeyd edib ki, Avropa Siyasi Birliyində iştirak Azərbaycanın Cənubi Qafqazda sülh və sabitlik istiqamətində atdığı addımların beynəlxalq miqyasda daha dolğun təqdim olunmasına şərait yaradır: "Postmünaqişə dövründə regionda davamlı sülhün və qarşılıqlı etimadın bərqərar olması Azərbaycanın prioritet istiqamətlərindəndir. Belə beynəlxalq platformalarda ölkəmizin bu siyasətinin birbaşa Avropa liderlərinin diqqətinə çatdırılması mühüm diplomatik nəticələr doğurur".



R.Mahmudovun sözlərinə görə, Azərbaycanın bu cür görüşlərdə fəal iştirakı həm də milli maraqlar baxımından çoxvektorlu siyasətin uğurlu təzahürüdür: "Qlobal miqyasda geosiyasi dinamika getdikcə mürəkkəbləşir, yeni iqtisadi və təhlükəsizlik xəritələri formalaşır. Belə şəraitdə Azərbaycanın həm Şərq, həm də Qərb istiqamətində balanslı və rasional siyasət yürütməsi ölkəmizin beynəlxalq aləmdə etibarlı tərəfdaş imicini gücləndirir. Avropa Siyasi Birliyi bu baxımdan Azərbaycan üçün əlavə dialoq və əməkdaşlıq meydanıdır, burada səslənən mövqelər təkcə diplomatik bəyanat deyil, həm də gələcək strateji istiqamətlərin bünövrəsidir. Bütün bunlar göstərir ki, Avropa Siyasi Birliyi platformasında Azərbaycanın iştirakı yalnız formal xarakter daşımır. Bu həm dövlətimizin Avropa ilə münasibətlərində yeni səhifənin açılması, həm də milli maraqların beynəlxalq səviyyədə müdafiəsi baxımından əhəmiyyətli addımdır. Azərbaycanın bu proseslərdə iştirakı iqtisadi, siyasi və humanitar aspektlərdə yeni əməkdaşlıq imkanlarının yaranmasına xidmət edir".

R.Mahmudov bildirib ki, Prezident İlham Əliyevin Kopenhagen Zirvəsində iştirakı Azərbaycanın regionda sabitliyin, qlobal dialoqun və enerji təhlükəsizliyinin mühüm oyunçusu olduğunu bir daha sübut etdi və ölkəmizin Avropa Siyasi Birliyində tutduğu mövqe, qarşılıqlı etimad və konstruktiv əməkdaşlıq xətti gələcək illərdə də Azərbaycanın beynəlxalq nüfuzunun daha da artmasına xidmət edəcək.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Layiqli Əmək Səfirləri ilə görüş keçirilib









**Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının Layiqli Əmək Səfirləri ilə görüş keçirilib.**

Qeyd edək ki, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası ölkəmizin tanınmış və nüfuzlu simalarının təmsil olunduğu "Layiqli Əmək Səfirləri" layihəsini həyata keçirir. Layihənin məqsədi əmək hüquqlarının təbliği, bu sahədə maarifləndirmənin gücləndirilməsi və layiqli əməyin təşviqidir.

Görüşdə dövlətimizin uğurlu sosial siyasətindən, əmək münasibətlərinin rəqəmsallaşdırılmasından, sosial təminat sisteminin genişləndirilməsindən, eləcə də ölkəmizdə həmkarlar ittifaqlarının fəaliyyətinə yaradılmış əlverişli şəraitdən bəhs edilib.

Həmçinin həmkarlar ittifaqları sistemində aparılan islahatlar və tətbiq olunan yeniliklər, həyata keçirilən layihələr, əmək hüquqlarının müdafiəsi, layiqli iş şəraitinin yaradılması, üzvlərin sağlamlığının qorunması, müalicə və istirahətin səmərəli təşkili istiqamətində görülən işlər barədə məlumat verilib.

Vurğulanıb ki, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının Layiqli Əmək Səfirləri əmək hüquqlarının təbliğində təşkilata yaxından dəstək göstərirlər. Belə ki, sosial məsuliyyətin gücləndirilməsində və sağlam əmək münasibətlərinin formalaşmasında layihənin rolu önəmlidir.

Tədbirdə Layiqli Əmək Səfirləri Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası tərəfindən görülən işləri, həmkarlar ittifaqları sistemində aparılan islahatları və yenilikləri yüksək dəyərləndirib, konfederasiya ilə əməkdaşlığa böyük əhəmiyyət verdiklərini bildiriblər.

Görüşdə AHİK-in fəaliyyətindən və "Layiqli Əmək Səfirləri" layihəsi ilə bağlı hazırlanmış videoçarxlar nümayiş etdirilib.

Layiqli Əmək Səfirləri ilə əməkdaşlığın genişləndirilməsi barədə fikir mübadiləsi aparılıb, rəy və təkliflər dinlənilib.

*N.ƏSGƏROVA,*
*"Azərbaycan"*

# Müstəqil siyasətin yaratdığı reallıq

## Azərbaycan sabitlik adası ilə yanaşı, beynəlxalq konfransların keçirildiyi məkan statusuna da sahiblənib

**Son illər Azərbaycanın beynəlxalq aləmdə artan nüfuzu və regional gücə çevrilməsi dünya ictimaiyyətinin diqqətindən yayınmır. Strateji mövqeyi, enerji siyasəti, uğurlu diplomatik addımları sayəsində Azərbaycan yalnız Cənubi Qafqazın deyil, Avrasiyanın mühüm aktorlarndan biri kimi qəbul olunur.**

Ümumiyyətlə, Azərbaycanın bugünkü reallıqlarına nəzər salanda görürük ki, ölkəmiz, sözün əsl mənasında, müstəqil dövlət kimi dünya xəritəsində öz yerini tutub. Bütün regional məsələlərdə fəal iştirak edən Azərbaycan sabitlik və inkişaf amilinə çevrilib.

Prezident İlham Əliyevin beynəlxalq aləmdə artan nüfuzu həm ölkəmizi gücləndirir, həm də regionda gedən proseslərə çox müsbət təsir göstərir. Azərbaycan Prezidenti hər zaman qlobal liderlik keyfiyyətini və təşəbbüskarlığını ortaya qoyaraq çox mühüm ideyalar irəli sürür və bu gün də onun təşəbbüsü ilə reallaşan transmilli layihələr ölkəmizə iqtisadi-siyasi dividendlər qazandırır. Bütün bunlar Azərbaycanın beynəlxalq münasibətlər sistemində rolunun artmasına böyük təsir göstərməklə yanaşı, İlham Əliyevin də dünyada şəxsi nüfuzunun artmasına gətirib çıxarıb.

Prezident İlham Əliyevin rəhbərliyi altında ölkəmizin xarici diplomatiyası böyük uğurlar əldə edib. Prezidentin vizyonu, ardıcıl və prinsipial siyasəti, dünya miqyasında güclü əlaqələrin qurulması və Azərbaycanın beynəlxalq arenada mövqeyinin möhkəmləndirilməsi uğurla həyata keçirilir.

İlham Əliyevin diplomatik təşəbbüsləri xüsusilə regional və qlobal səviyyədə strateji tərəfdaşlıqların qurulması baxımından mühüm əhəmiyyət daşıyır. Sözü imzası qədər keçərli olan İlham Əliyevin ən mühüm diplomatik uğurlarından biri Azərbaycanı Cənubi Qafqazın lider dövləti kimi möhkəmləndirməsidir.

Azərbaycanın xarici siyasətinin əsasını həmçinin güclü iqtisadi diplomatiya təşkil edir. Prezident İlham Əliyevin dövründə ölkəmiz dünya enerji bazarında əsas oyunçulardan birinə çevrilib. Xüsusilə "Cənub qaz dəhlizi" kimi böyük enerji layihəsinin həyata keçirilməsi Azərbaycanın Avropaya enerji ixracını artırıb, ölkə iqtisadiyyatına müsbət təsir göstərib. Qlobal layihələr, Azərbaycanın həm regionda, həm də dünyada enerji təhlükəsizliyinə töhfə verməsini təmin edib.

Azərbaycana rəhbərlik etdiyi 23 ildə İlham Əliyev elə bir dövlət yaradıb ki, özünün də söylədiyi kimi, mövcudluğu tarixində ölkəmiz heç zaman indiki kimi qüdrətli, güvənli, istiqrarlı olmayıb. Bu gün İlham Əliyev şəxsiyyətinə, liderliyinə geosiyasi, geoiqtisadi miqyasda nəzər yetirsək görərik ki, o, təkcə Azərbaycanın, Qafqazın alternativsiz lideri deyil, ümumiyyətlə, dünya miqyasında tanınan, qlobal liderliyi etiraf olunan böyük şəxsiyyətdir. Elə bir beynəlxalq və mötəbər toplantı yoxdur ki, Azərbaycan Prezidenti həmin tədbirə dəvət edilməsin və orada müasir dövrün çağırışları, mövcud qlobal problemlərin həlli yolları barədə fikirlər səsləndirməsin, təkliflərini irəli sürməsin.



Yəni İlham Əliyev təkcə regional məsələlərdə deyil, mahiyyətindən asılı olmayaraq, dünya miqyasında baş verən qlobal hadisələr zamanı qətiyyətli mövqe nümayiş etdirir. Dövlət başçısının təşəbbüsləri qlobal miqyasda beynəlxalq həmrəyliyin və əməkdaşlığın möhkəmləndirilməsi istiqamətində mühüm nümunədir.

İlham Əliyev Azərbaycanın beynəlxalq təşkilatlarda, xüsusən BMT, ATƏT, Qoşulmama Hərəkatı kimi platformalarda fəallığını artırıb. Azərbaycan eyni zamanda Türk Dövlətləri Təşkilatı və İslam Əməkdaşlıq Təşkilatında da əhəmiyyətli fəaliyyətini davam etdirir. Dövlət başçısı bu təşkilatlar çərçivəsində ölkənin maraqlarını müdafiə edərək, Azərbaycanın beynəlxalq təsirini daha da genişləndirib.

Oktyabrın 6-da Qəbələ şəhərində Türk Dövlətləri Təşkilatının (TDT) XII Zirvə görüşü işinə başlayıb. "Regional sülh və təhlükəsizlik" mövzusunda olan Zirvə görüşü yalnız formal protokol tədbiri deyil, həm də türk dünyasının gələcək konturlarının, ortaq strateji hədəflərinin və birgə fəaliyyət mexanizmlərinin müəyyən ediləcəyi tarixi hadisədir. Zirvə görüşü çərçivəsində TDT-yə üzv və müşahidəçi statusuna malik ölkələrin dövlət və hökumət başçıları bir araya gələrək, sonuncu görüşdən bəri həyata keçirilmiş işləri dəyərləndirəcək, əldə olunmuş nailiyyətləri müzakirə edəcək və gələcək əməkdaşlıq istiqamətlərini müəyyənləşdirəcəklər. Görüş zamanı qəbul olunacaq sənədlər, o cümlədən XII Zirvə Görüşünün Bəyannaməsi təşkilatın siyasi və institusional strukturunun yeni mərhələyə keçidini əks etdirəcək. Zirvənin sonunda TDT-yə sədrlik Qırğızıstandan Azərbaycana keçəcək, bu isə ölkəmizin təşkilatdakı liderlik missiyasının rəsmi təsdiqi olacaq.

Onu da qeyd etmək yerinə düşər ki, TDT-dən gözləntilər böyükdür, təməllər möhkəmdir. Azərbaycanın strateji mövqeyi, siyasi çəkisi və iqtisadi potensialı təşkilatı yeni inkişaf mərhələsinə və beynəlxalq arenada daha böyük nüfuz qazanmağa istiqamətləndirir. Cənubi Qafqazda sülhü təşviq edən son Vaşinqton sənədləri ilə bu sammitin mövzusu bütün regionumuz üçün dərin rezonans doğurur.

Prezident İlham Əliyevin dediyi kimi: "Türk Dövlətləri Təşkilatı bizim fundamental beynəlxalq təşkilatımızdır. O, bizim ailəmizdir. Türk dünyası bizim ailəmizdir. Bizim başqa ailəmiz yoxdur. Bişkekdən Qəbələyə və ondan çox-çox uzaqlara səyahətimizi müəyyən edən də məhz bu ailə ruhu və taleyimizdir. TDT bundan sonra da birliyi möhkəmləndirəcək, əməkdaşlığı dərinləşdirəcək, regionumuzda və dünyada sülh və tərəqqi üçün güc kimi xidmət edəcəkdir".

Prezident İlham Əliyevin xarici diplomatiyasının uğurları, TDT çərçivəsində irəli sürdüyü təşəbbüsləri Azərbaycanın beynəlxalq müstəvidə güclü və etibarlı tərəfdaş kimi mövqeyinin möhkəmlənməsinə gətirib çıxarıb. Dövlət başçısının strateji baxışları və qətiyyətli fəaliyyəti, Azərbaycanın dünya səhnəsində daha da mühüm rol oynamağa davam edəcəyini göstərir. Bu yolda əldə edilən nailiyyətlər Azərbaycanın xarici siyasətinin daha da inkişafı üçün möhkəm təməl yaradıb.

Hazırda Azərbaycan böyük layihələrin təşəbbüskarı və iştirakçısı qismində regional əməkdaşlığı inkişaf etdirən və beynəlxalq nüfuza malik dövlətdir. Etibarlı tərəfdaş kimi qəbul edilən Azərbaycanın xarici siyasətinin uğurları qonşu ölkələrlə və dünyanın digər dövlətləri ilə balanslaşdırılmış münasibətlərin qurulmasına, qarşılıqlı maraqlardan irəli gələn bərabər dialoq və əməkdaşlığın həyata keçirilməsinə əsaslanır.

Bu gün dünyada geosiyasi güclərin müxtəlif maraqlar uğrunda apardıqları münaqişələr, müharibələr fonunda Azərbaycanda mövcud olan sabitlik və tərəqqi xüsusi diqqət çəkir. Beynəlxalq arenada təhlükəsizlik adası kimi tanınan ölkəmiz nizamı pozulan dünyaya Qarabağ Zəfəri ilə həm də ədalətin təmini, sülh və sabitliyin bərqərar olması ilə bağlı mükəmməl örnək göstərib. Torpaqlarının işğalı dövründə belə münaqişənin danışıqlar yolu ilə tənzimlənməsinin tərəfdarı olan Azərbaycanın yürütdüyü düşünülmüş və uzaqgörən siyasət son beş ildir bölgədə dayanıqlı sülh üçün mühüm zəmin formalaşdırıb. Məhz buna görə də beynəlxalq qurumlar konfransların, forumların Azərbaycanda keçirilməsi ilə bağlı müsbət qərar qəbul edirlər. Bununla da Azərbaycan həm də dünyanı narahat edən qlobal problemlərin müzakirə olunduğu məkan kimi də qəbul edilir.

*Rəşad BAXŞƏLİYEV,*
*"Azərbaycan"*

# "Laçın" qızıl və gümüş sikkə kolleksiyası təqdim edildi





**Azərbaycanın aparıcı dağ-mədən şirkəti "AzerGold" QSC daha bir gümüş və qızıl sikkə kolleksiyasını təqdim edib. Qurumun Mətbuat xidmətindən verilən məlumata görə, yeni sikkə kolleksiyası füsunkar təbiəti, qədim tarixi ilə seçilən və gündən-günə abadlaşan Laçın şəhərinə ithaf olunub.**

Sikkənin hazırlanmasında Laçın bölgəsinin mədəni irsinin, sənət ənənələrinin və xalq yaradıcılığının vacib bir hissəsi olan, Qarabağ xalçaçılıq məktəbinə aid "Qasımuşağı" xalçasının naxışlarından istifadə edilib. Sikkənin əsas elementi dövlət rəmzlərinin əsas tərkib hissələrindən biri - səkkizguşəli ulduz və kənarlarındakı Laçın quşunun həndəsi formalı motivləridir. Laçın quşu azad ruhun, əzəmətin, gücün və cəsarətin rəmzidir. Təsvir həm də Laçın şəhərinin adının mənşəyi ilə bağlı ən geniş yayılmış fərziyyələrdən birinə işarədir. Sikkənin haşiyəsindəki qədim naxış elementləri arasında diqqətli baxışla sezilən, məhsulun incə və zərif şəkildə həkk olunmuş adı - "Lachin" yazısı kompozisiyaya xüsusi məna qatır.

Qeyd edək ki, "Laçın" kolleksiyası "AzerGold" QSC-nin təşəbbüsü ilə istehsal edilən sayca 13-cü kolleksiyadır. Yeni məhsullar ölkəmizdə hasil edilən qızıl və gümüşdən 5, 10, 20 qram çəkilərdə hazırlanıb. İstehlakçılar kolleksiyanı "AzerGold" QSC-nin Bakı şəhəri, Bülbül prospekti 3 ünvanında yerləşən Satış və Mübadilə Mərkəzindən, eləcə də şirkətin onlayn satış platforması **www.azergold.gift**-dən sifariş edərək əldə edə bilərlər.

Azərbaycan qızılı və gümüşündən müxtəlif dizaynlarda sikkələr, eləcə də qızıl külçələr ilk dəfə 2018-ci ildə istehsal edilərək, 2019-cu ildən yerli pərakəndə satış bazarına təqdim olunub. Məqsəd ölkəmizin qiymətli metallar bazarının inkişafına təkan vermək və pərakəndə satışı stimullaşdırmaqdır. Qızıl sikkə kolleksiyaları ölkəmizin, onun tarixi, incəsənəti, mədəni irsinin və digər dəyərlərinin təbliğinə xidmət edən unikal hədiyyə seçimi, həm də istənilən zaman milli valyuta ilə mübadilə edilə bilən sərfəli investisiya alətidir.

# Ənənə davam edir

**Göygöl kənd təsərrüfatı və turizm sahəsində zəngin potensiala malik olmaqla yanaşı, həm də üzümçülük və şərabçılıq ənənələri ilə seçilən rayondur. Tarixi alman irsi ilə iç-içə olan Göygöl şəhəri bu sahədə illərdir formalaşmış istehsal mədəniyyəti və məhsul keyfiyyəti ilə tanınır.**



Göygöldə şərab istehsalının ilkin tarixi 1860-cı ilə təsadüf edir. Bu tarix Azərbaycanda genişmiqyaslı şərabçılıq sənayesinin yaranmasının və onun sonrakı inkişafının başlanğıcı hesab olunur. Azərbaycanda ilk konyak zavodunun 1892-ci ildə Helenendorf kəndində (indiki Göygöl şəhəri) Forer qardaşları tərəfindən təməli qoyulmuşdur. 1895-ci ildə isə Hummel qardaşları tərəfindən Helenendorfda konyak zavodu açılmışdır.

Bu gün də bölgənin aparıcı istehsalçıları həm ənənəvi istehsal üsullarını qoruyub saxlayır, məhsul keyfiyyəti ilə beynəlxalq bazarlarda tanınırlar.

Bu dəyərli irsin qorunması, inkişafı və yerli məhsulların tanıdılması məqsədilə müxtəlif təşəbbüslər həyata keçirilir. Növbəti belə tədbir rayon icra hakimiyyətinin təşkilatçılığı, Aqrar İnnovasiya Mərkəzi, Dövlət Turizm Agentliyi, Azərbaycan Şərab İstehsalçıları və İxracatçıları Assosiasiyası və özəl qurumların tərəfdaşlığı ilə Heydər Əliyev adına Mədəniyyət və İstirahət Parkında keçirilən "Göygöl Brendi - Konyak Günü" olmuşdur. Tədbirin açılış mərasimində Almaniya Federativ Respublikasının, İsveç Krallığının, Latviya Respublikasının, Avstriya Respublikasının, İsveçrə Konfederasiyasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfirləri, rayonun Aqrar İnnovasiya Mərkəzinin, Azərbaycan Şərab İstehsalçıları və İxracatçıları Assosiasiyasının rəhbərləri iştirak etmişlər.

Proqram çərçivəsində müxtəlif brendli konyak və üzüm məhsullarının təqdimatı, dequstasiyası və satış yarmarkalarının təşkili, içki istehsalı üzrə ustad dərsləri və brendi üzrə peşəkar yarışlar keçirilmişdir. Həmçinin tədbir iştirakçılarına zövqlü musiqi proqramları, klassik musiqi axşamları, milli mətbəx guşələri, əl işləri sərgiləri təqdim olunmuşdur.

MDB Oyunları ilə bu tədbirin üst-üstə düşməsi Göygölə gələn yerli və xarici qonaqlara xoş anlar yaşatmaqla yanaşı, yerli məhsulların daha geniş auditoriyaya tanıdılmasına, bölgənin turizm və istehsal potensialının nümayişinə xidmət etmişdir.

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*

# *Özbəkistanın rəsmi xəbər agentliyi:* "TDT Dövlət Başçıları Şurasının 12-ci Zirvə Görüşü niyyət siyasətindən icra mexanizminə keçidi qeyd edir"

**"Türk Dövlətləri Təşkilatının Dövlət Başçıları Şurasının Qəbələdə keçiriləcək 12-ci Zirvə görüşü Özbəkistan və bütün türk dövlətləri üçün əməkdaşlığın yeni istiqamətlərini müəyyən edəcək".**




AZƏRTAC xəbər verir ki, bu fikir Özbəkistan Milli Xəbər Agentliyinin saytında dərc olunmuş "Qəbələ: "Türk treki" Özbəkistanın əlaqələrini necə gücləndirir və yeni bazarlar açır" sərlövhəli analitik məqalədə yer alıb.

Agentlik qeyd edir ki, Özbəkistan Prezidenti Şavkat Mirziyoyev Azərbaycan Prezidenti İlham Əliyevin dəvəti ilə oktyabrın 6-7-də Azərbaycanda işgüzar səfərdə olacaq və Türk Dövlətləri Təşkilatının (TDT) "Regional sülh və təhlükəsizlik" devizi altında Qəbələdə keçiriləcək 12-ci Zirvə görüşündə iştirak edəcək. Toplantı "Gündəlik qarşılıqlı ticarət və investisiyaların artırılmasından tutmuş logistika, enerji layihələri və humanitar proqramların sinxronlaşdırılmasına qədər mühüm məsələləri əhatə edir. Əsas diqqət müqavilələrin dəqiq müddətləri və məsuliyyətli icraçıları olan konkret mexanizmlərə çevrilməsinə yönəlib. İştirakçı ölkələr arasında əməkdaşlığın daha da gücləndirilməsinə istiqamətlənmiş razılaşdırılmış qərarların qəbulu və sənədlərin imzalanması gözlənilir", - deyə məqalədə vurğulanır.

Qeyd olunur ki, Özbəkistan liderinin səfəri iki aspekti birləşdirir: ikitərəfli (Daşkənd-Bakı) və çoxtərəfli (TDT) əsaslarda müzakirələr aparılacaq. Bu mötəbər tədbirin devizi də ritual deyil; artıq razılaşdırılmış məsələlərin icrası, tranzit dəhlizlərində prosedurların birləşdirilməsi, birgə sənaye və enerji layihələrinin maliyyələşdirilməsinin tənzimlənməsi və humanitar təşəbbüslərin konsolidasiyası üzrə konkret addımlar atılacaq.

Məqalədə Özbəkistan-Azərbaycan əlaqələrinə xüsusi diqqət yetirilir: "Daşkənd-Bakı əlaqəsi praktiki əməkdaşlıq üçün ən sürətli kanal olaraq qalır. Azərbaycanın statistikasına görə, 2024-cü ildə ikitərəfli ticarət dövriyyəsi əvvəlki illə müqayisədə 41 faiz artaraq 252 milyon dolları ötüb. Bu, rəsmi məlumatlara əsaslanan, bir neçə hesabatla təsdiqlənən sabit tendensiyadır. Hədəf diqqətlə, lakin iddialı şəkildə 2030-cu ilə qədər ticarət həcmini 1 milyard dollara çatdırmaqdır. 2025-ci il iyulun 2-də təsdiq edilmiş sənədlərin məqsədi məhz budur: "Ticarət dövriyyəsinin 2030-cu ilədək 1 milyard ABŞ dollarına çatdırılması üzrə Tədbirlər Planı" və Sənaye Kooperasiyası Proqramı. Onlar konkret tədbirləri və məsul icraçıları özündə əks etdirən yol xəritəsini müəyyənləşdirir".

Agentlik iki ölkənin investisiya gündəliyinin dörd qrupda təsnifatını təqdim edib:

Tekstil sənayesi. Özbəkistan şirkətləri Azərbaycanda pambıq və tekstil klasterlərini inkişaf etdirir. İmişli rayonunda TST Tekstil layihəsi ("Tukimachi Sanoat Tekstil" törəmə müəssisəsi) üçün təxminən 5000 hektar sahə ayrılıb. Növbəti mərhələ Mingəçevirdə istehsal müəssisələrinin işə salınmasıdır.

Tikinti materialları. Özbəkistanda Azərbaycanın "Mətanət-A" şirkətinin iştirakı ilə ümumi büdcəsi təqribən 100 milyon ABŞ dolları olan gips və quru qarışıqların istehsalı inkişaf etdirilir ki, bu da ticarətdən sənaye kooperasiyasına və texnologiya transferinə keçidin göstəricisidir.

Avtomobil sənayesi. Hacıqabulda yerləşən "UzAuto-Azərmaş" müştərək zavodu artıq konveyer xəttini işə salıb və lokallaşdırmanı dərinləşdirməyə hazırlaşır. Bu, Özbəkistan tərəfi üçün Cənubi Qafqaz bazarına çıxış, Azərbaycan tərəfi üçün isə yeni iş yerlərinin yaradılması deməkdir.

İnkişaf və turizm. "Ritz-Carlton Daşkənd" layihəsi (hədəflənən investisiya 200 milyon ABŞ dollarıdır) və 2025-ci ilin avqustunda təsdiq edilmiş "Sea Breeze Uzbekistan" layihəsi (577 hektar sahə, 5 milyard dollara qədər investisiya) turizmə və əlaqəli infrastruktura uzunmüddətli investisiya potensialını nümayiş etdirir. Bakı üçün bu, idarəetmə və inkişaf təcrübəsinin ixracını təmsil edir. Daşkənd üçün isə turizm və xidmət klasterləri üçün sürətləndirici rolunu oynayır.

Məqalədə Orta dəhlizin inkişafı məsələsinin Zirvə görüşünün diqqət mərkəzində olacağı da vurğulanır: "Azərbaycan Orta Dəhlizin (Trans-Xəzər) əsas qovşağı olaraq qalır. Bakı limanı və onun dəmir yolu şəbəkəsi Qafqaz və Türkiyə üzərindən Avropaya keçidi təmin edir: 2024-cü ildə bu liman yük dövriyyəsini 7,6 milyon tona çatdırıb və konteyner daşımaları ən sürətli artım nümayiş etdirib. Orta dəhliz boyunca çatdırılma müddətləri blok qatarları üçün 15 gün olmaqla, 19-23 günə endirilib. Bu, Özbəkistan üçün Qara və Aralıq dənizləri bazarlarına ən qısa çıxışı təmin edir. Bu əlaqənin praktiki faydaları artıq ölçülə bilər. Açıqlanan məlumatlara görə, 2024-cü ildə Bakı limanı vasitəsilə Özbəkistan yüklərinin 1 milyon tonu ötməsi Trans-Xəzər marşrutuna güclü tələbatın olduğunu təsdiqləyir. Eyni zamanda Xəzər-Qafqaz marşrutu ilə neft və neft məhsullarının tranziti artır, dəhlizin şəbəkə effekti güclənir".

Zirvə görüşünün daha bir mühüm müzakirə mövzusu - energetika və "yaşıl gündəlik" barədə ekspert rəyini təqdim edən agentlik yazır: "Enerji sektorunda bir-birini tamamlayan iki yol yaranır. Birincisi, karbohidrogenlərdir. 2025-ci il iyulun 24-də Özbəkistan Energetika Nazirliyi, SOCAR və "Uzbekneftqaz" arasında Üstyurt neft-qaz regionu üzrə hasilatın pay bölgüsü sazişi imzalanıb. ARDNŞ ən azı 1000 kvadratkilomert ərazini əhatə edən 3D seysmik tədqiqatlar və ilk beş ildə kəşfiyyat quyusunun qazılması planlaşdırılan fazanın operatorudur.

İkincisi, "yaşıl enerji" və qarşılıqlı əlaqələrdir. 2024-cü ilin mayında Azərbaycan, Qazaxıstan və Özbəkistan enerji sisteminin qarşılıqlı əlaqəsi haqqında memorandum imzalayıb, o cümlədən artıq bərpaolunan enerjinin Azərbaycan şəbəkəsi vasitəsilə Avropaya və daha sonra Xəzər-Qara dəniz "yaşıl dəhliz"i boyunca ixracı üçün Xəzər dənizinin dibi ilə yüksəkgərginlikli kabelin çəkilməsinin qiymətləndirilməsi aparılıb. Tərəflərin fikrincə, Xəzər-Avropa "yaşıl dəhliz"inin texniki-iqtisadi əsaslandırılması 2025-ci ilin ortalarına qədər yekun mərhələsinə qədəm qoyub. Bu, Özbəkistan üçün təkcə "yaşıl meqavatlar" bazarı deyil, həm də şəbəkənin çevikliyini və pik saatlarda təchizatın etibarlılığını artıran inteqrasiya qaydalarına çıxışdır".

Məqalənin sonunda vurğulanır: "Qəbələ Zirvə görüşü niyyət siyasətindən icra mexanizminə keçidi qeyd edir. Sammit türk məkanının əlaqə vektorunu qurur və sazişləri əməliyyat alətlərinə çevirir, dəhlizlər daxilində prosedurların unifikasiyası, ixtisaslaşmış fondlar vasitəsilə uzunmüddətli kapitala çıxış, enerji və sənaye əməkdaşlığında texnoloji tərəfdaşlıq üzrə istiqamətləri müəyyənləşdirir. Əsas diqqət üfüqi sənayeləşməyə verilir - dəyər zəncirləri bir ölkədə deyil, TDT-nin bütün perimetri boyunca birləşdirilir".

# Gəncənin ballistik raket atəşinə tutulması əmrinin Ermənistan rəhbərliyi tərəfindən verildiyi məhkəmədə növbəti dəfə təsdiqlənib

**Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə, onu zorla saxlama və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, David Babayan, Levon Mnatsakanyan və digərlərinin barəsində olan cinayət işləri üzrə açıq məhkəmə prosesinin baxış iclası oktyabrın 6-da davam etdirilib.**



AZƏRTAC xəbər verir ki, Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Camal Ramazanovdan və Anar Rzayevdən ibarət tərkibdə (ehtiyat hakim Günel Səmədova) keçirilən məhkəmə iclasında təqsirləndirilən şəxslərin hər biri bildikləri dildə tərcüməçi, həmçinin müdafiələri üçün vəkillərlə təmin olunub.

İclasda təqsirləndirilən şəxslər, onların müdafiəçiləri, zərərçəkmiş şəxslərin bir qismi, onların hüquqi varisləri və nümayəndələri, həmçinin dövlət ittihamını müdafiə edən prokurorlar iştirak ediblər.

Məhkəmə prosesi cinayət işləri üzrə sənədlərin elan olunması ilə davam etdirilib.

Əvvəlcə 2020-ci ildə 44 günlük Vətən müharibəsi zamanı Gəncə şəhərinin raketlərlə vurulmasına dair sənədlər elan edilib.

Tədqiq olunan sənədlərdə göstərilib ki, Ermənistan silahlı qüvvələri atəşkəs rejimini və beynəlxalq hüquq normalarını, o cümlədən silahlı münaqişələr zamanı mülki şəxslərin müdafiəsinə dair 12 avqust 1949-cu il tarixli Cenevrə Konvensiyasının tələblərini kobud şəkildə pozaraq, 2020-ci il oktyabr ayının 4-də, 5-də, 8-də, 11-də və 17-də cəbhədən uzaqda yerləşən Gəncə şəhərində yaşayış məntəqələrinə, hərbi hədəf olmayan mülki obyektlərə, həmçinin mülki əhaliyə 9K58 "Smerç" (BM-30) və 9K72 "Elbrus" tipli raketlərlə zərbələr endiriblər.

Bununla da Ermənistan silahlı qüvvələri hərbi zərurətdən irəli gəlməyən genişmiqyaslı dağıntılar, mülki vətəndaşların xəsarət alması və ölümü ilə nəticələnən, habelə mülki əhalinin xüsusilə külli miqdarda əmlakının məhv edilməsi ilə müşayiət olunan terrorçuluq və digər cinayətlər törədiblər.

İbtidai istintaq zamanı qeyd olunan hadisələrin hər biri üzrə hadisə yerlərinə baxış keçirilib, həlak olmuş şəxslərin meyitlərinin məhkəmə-tibbi eksperti tərəfindən müayinə edilməsi, yaralanmış şəxslərin xəsarətlərinə dair məhkəmə-tibbi ekspertizasının rəylərinin alınaraq iş materiallarına əlavə edilməsi, ölmüş zərərçəkmiş şəxslərin hüquqi varislərinin tanınaraq dindirilməsi həyata keçirilib, eyni zamanda xəsarət almış şəxslərin zərərçəkmiş şəxs qismində tanınmalarına dair qərarların qəbul edilərək iş üzrə dindirilməsi, habelə şahidlərin dindirilməsi və sair istintaq hərəkətlərinin həyata keçirilməsi təmin edilib.

Sənədlərdə qeyd olunub ki, 2020-ci il oktyabr ayının 4-də, 5-də, 8-də, 11-də və 17-də Gəncə şəhərinə edilmiş raket hücumları nəticəsində 26 mülki şəxs qəsdən öldürülüb, 175 nəfər isə müxtəlif dərəcəli bədən xəsarətləri alıb.

Həlak olmuş 26 nəfərdən 10-u kişi, 10-u qadın, 6-sı isə yetkinlik yaşına çatmayan şəxslərdir. Xəsarət almış 175 nəfərin isə 61-i kişi, 66-sı qadın, 48-i isə yetkinlik yaşına çatmayanlardır.

Şəhərdə yerləşən mülki infrastruktur obyektlərinə, nəqliyyat vasitələrinə, yaşayış evlərinə və digər tikililərə külli miqdarda ziyan dəyib.



Sənədlərə əsasən, hadisə yerinə ilkin baxış keçirilməsi haqqında 2020-ci il 11 oktyabr tarixli protokola əsasən müəyyən edilib ki, Ermənistan silahlı qüvvələri ballistik raketdən istifadə etməklə Gəncəyə zərbə endirib.

Aparılmış araşdırmalarla müəyyən edilib ki, partlayış 1978-ci ildən sonrakı müddətdə SSRİ-də istehsal olunmuş, NATO təsnifatı üzrə "SS-1c Skud B" adlandırılan 9K72 "Elbrus" markalı əməliyyat-taktiki təyinatlı raketin partlaması nəticəsində baş verib.

Raketin ən çoxu 275 km uzaqlıqdan, Ermənistanın Vardenis yaşayış məntəqəsindən Gəncəyə istiqamətlənməsi ehtimal olunur. R-17 birpilləli maye yanacaqlı ballistik trayektoriyalı raket keçmiş SSRİ-də istehsal edilib və 1987-ci ildən istehsalı dayandırılıb.

Bu tip raketlər keçmiş SSRİ-nin, habelə MDB dövlətlərinin silahlı qüvvələri üçün strateji vasitə olan əməliyyat-taktiki silah sistemlərinə aid olduğundan, tətbiq hüququ müvafiq dövlətin başçısına, habelə onun razılığı ilə müdafiə nazirinə məxsusdur.

Belə raketlər dəqiq hərbi hədəflərə deyil, yaşayış məntəqələrinə və mülki infrastruktura qarşı tətbiq edildikdə ağır fəsadlarla, yəni kütləvi insan tələfatı və böyük dağıntılarla nəticələnir.

Bundan sonra təqsirləndirilən David Manukyan məhkəməyə müraciət edərək nümayiş olunan raket qurğularının və onların tətbiqinə dair "əmr" verməyin qondarma rejimin "rəhbərliyinin və ordusunun" səlahiyyətində olmadığını bildirib.



Hakim Zeynal Ağayev isə bildirib ki, hazırkı mərhələdə sənədlərin elan olunması prosesi gedir. Sənədlərin elanı başa çatdıqdan sonra münasibət bildirmək üçün müdafiə tərəfinə şərait yaradacaq.

Sonra təqsirləndirilən şəxs Arayik Harutyunyanın vəkili məhkəmə iclasında tədqiq edilən sənədlərin surətlərinin təqdim olunmasını xahiş edib.

İclasa sədrlik edən Zeynal Ağayev sənədlərin surətlərinin təqdim olunacağını bildirib.

Sonra 44 günlük Vətən müharibəsi zamanı Göygöl, Tovuz, Daşkəsən, Samux, Siyəzən, Kürdəmir, Qəbələ rayonlarının, həmçinin Mingəçevir şəhərinin və Göygöl Milli Parkının ərazisinin raket atəşinə tutulması faktları ilə bağlı sənədlər elan olunub.

Daha sonra təqsirləndirilən Levon Mnatsakanyanın vəkili müdafiə etdiyi şəxslə konfidensial görüş üçün vəsatətlə çıxış edib.

Hakim Zeynal Ağayev vəsatəti təmin edib və məhkəmədə fasilə elan olunub.

Fasilədən sonra məhkəmə iclası sənədlərin elan olunması ilə davam etdirilib.

Elan olunan sənədlərdən biri 44 günlük Vətən müharibəsi dövründə Ermənistan silahlı qüvvələri tərəfindən müharibə ərazisindən kənarda yerləşən Bərdə şəhərinə raket hücumları ilə bağlı olub.

Tədqiq edilən sənədlərdə göstərilib ki, Vətən müharibəsi dövründə ayrı-ayrı vaxtlarda Bərdəyə raket hücumları nəticəsində aralarında uşaq, qadın və yaşlılar da olmaqla 29 nəfər qəsdən öldürülüb, 112 nəfər yaralanıb, şəhərdə yerləşən mülki infrastruktur obyektlərinə, nəqliyyat vasitələrinə, yaşayış evlərinə və digər tikililərə külli miqdarda ziyan dəyib.

Sənədlərin tədqiqi cinayət işlərinə aid fotolarla müşayiət olunub.

Məhkəmə prosesi oktyabrın 9-da davam etdiriləcək.

Qeyd edək ki, Ermənistan dövlətinin, onun dövlət qurumlarının vəzifəli şəxslərinin, hərbi qüvvələrinin və qanunsuz silahlı birləşmələrin bilavasitə rəhbərliyi və iştirakı, şifahi-yazılı qaydada verdiyi tapşırıq, göstəriş və təlimatları, maddi, texniki, şəxsi heyətlə verdiyi dəstəyi, mərkəzi qaydada idarəçiliyi əsasında, eləcə də ciddi nəzarəti altında Azərbaycan ərazisində daxili və beynəlxalq hüquq normalarına zidd şəkildə, Azərbaycana hərbi təcavüz etmək məqsədilə yaradılmış, həmçinin Köçəryan Robert Sedraki, Sarkisyan Serj Azati, Manukyan Vazgen Mikaeli, Sarkisyan Vazgen Zaveni, Babayan Samvel Andraniki, Balasanyan Vitali Mikaeli, Balayan Zori Hayki, Ohanyan Seyran Muşeqi, Qaramyan Arşavir Surenoviç, Melkonyan Monte Çarlz və digərlərinin rəhbərliyi, bilavasitə və dolayı iştirakları ilə Ermənistan dövləti, o cümlədən sözügedən cinayətkar birlik tərəfindən aparılan təcavüzkar müharibənin gedişində törədilmiş çoxsaylı cinayət faktlarına dair cinayət işi üzrə 15 təqsirləndirilən şəxs ittiham edilir.

Həmin şəxslər, yəni Harutyunyan Arayik Vladimiri, Qukasyan Arkadi Arşaviri, Sahakyan Bako Sahaki, İşxanyan Davit Rubeni, Manukyan David Azatini, Babayan David Klimi, Mnatsakanyan Levon Henrikoviç, Beqlaryan Vasili İvani, Qazaryan Erik Roberti, Allahverdiyan Davit Nelsoni, Stepanyan Qurgen Homeri, Balayan Levon Romiki, Babayan Madat Arakeloviç, Martirosyan Qarik Qriqori, Paşayan Melikset Vladimiri Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 100 (təcavüzkar müharibəni planlaşdırma, hazırlama, başlama və aparma), 102 (beynəlxalq müdafiədən istifadə edən şəxslərə və ya təşkilatlara hücum etmə), 103 (soyqırımı), 105 (əhalini məhvetmə), 106 (köləlik), 107 (əhalini deportasiya etmə və ya məcburi köçürmə), 109 (təqib), 110 (insanları zorakılıqla yoxa çıxarma), 112 (beynəlxalq hüquq normalarına zidd azadlıqdan məhrumetmə), 113 (işgəncə), 114 (muzdluluq), 115 (müharibə qanunlarını və adətlərini pozma), 116 (silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma), 118 (hərbi soyğunçuluq), 120 (qəsdən adam öldürmə), 192 (qanunsuz sahibkarlıq), 214 (terrorçuluq), 214-1 (terrorçuluğu maliyyələşdirmə), 218 (cinayətkar birlik (təşkilat) yaratma), 228 (qanunsuz olaraq silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə), 270-1 (aviasiya təhlükəsizliyinə təhdid yaradan əməllər), 277 (dövlət xadiminin və ya ictimai xadimin həyatına sui-qəsd etmə), 278 (hakimiyyəti zorla ələ keçirmə və onu zorla saxlama, dövlətin konstitusiya quruluşunu zorla dəyişdirmə), 279-cu (qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri və qrupları yaratma) və digər maddələri ilə ittiham olunurlar.




# Müzəffər Sərkərdənin qüdrətli Ordusu



## ZƏFƏR gündəliyi
## 7 oktyabr 2020-ci il

**7 oktyabr**

### İlham ƏLİYEV: "Ermənistan döyüş meydanında bizim qarşımızda dura bilmir"



Prezident İlham Əliyev "CNN-Türk" və "Euronews" televiziyalarına müsahibə verib.

Hər şeyin plan üzrə getdiyini vurğulayan dövlət başçısı deyib ki, Azərbaycan Ordusu öz ərazi bütövlüyünü bərpa edir. Əməliyyat uğurla davam edir. Artıq bir şəhər və bir çox kənd işğaldan azad edilib. Bu, bir daha onu göstərir ki, Azərbaycan xalqı işğalla heç vaxt barışmayacaq: "Qarabağ bizim tarixi, əzəli torpağımızdır! Təəssüf ki, uzun müddət ərzində aparılan müzakirələr bir nəticəyə gətirib çıxarmadı. Belə olan halda, əlbəttə ki, Azərbaycan təkbaşına öz ərazi bütövlüyünü bərpa etməli idi və bunu edir".

Döyüş meydanında məğlub olan Ermənistanın dinc əhaliyə qarşı zorakılıq göstərməsini, cəbhə xəttindən çox uzaq olan şəhər və rayonlarımıza ballistik raketlər atmasını isə Prezident belə şərh edir: "Bu, Ermənistan ordusunun acizliyi və Ermənistanın hərbi-siyasi rəhbərlərinin cinayətidir. Çünki mülki şəxslərə zorakılıq göstərmək, onlara qarşı atəş açmaq, ballistik raketlərlə mülki şəhərləri dağıtmaq müharibə cinayəti sayılır. Bu, onu göstərir ki, Ermənistan döyüş meydanında bizim qarşımızda dura bilmir. Döyüşü uduzur və bizi dayandırmaq, eyni zamanda mülki əhaliyə qarşı maksimum dərəcədə cinayət törətmək üçün belə çirkin əməllərə əl atır".

### Çaşbaş qalan erməni hərbçilər bir-birini güllələyiblər

Bütün cəbhəboyu döyüşlər davam edib.

Cəbhənin müxtəlif istiqamətlərində qoşunlarımız qazanılan nailiyyəti genişləndirmək məqsədilə döyüş əməliyyatları aparıb. Qarşılıqlı artilleriya atışları qeydə alınıb.

Düşmənə endirilən artilleriya zərbələri nəticəsində Ermənistan silahlı qüvvələrinin 5-ci dağatıcı alayının müdafiə sahəsində komanda müşahidə məntəqəsi sıradan çıxarılıb. Çoxlu sayda ölən və yaralananlar var.

Əldə olunan məlumata əsasən, Ermənistan silahlı qüvvələrinin 1-ci motoatıcı alayında ərzaq çatışmazlığı səbəbindən şəxsi heyətin qida təminatında ciddi problemlər yaranıb. Bunun nəticəsi olaraq düşmən bölmələrinin şəxsi heyəti döyüş mövqelərini özbaşına tərk edərək fərarilik edir. Digər bölmələrdə döyüş sursatları və yanacaq təminatında ciddi problemlər mövcuddur. Düşmənin bəzi istiqamətlərdəki müdafiə bölmələri arasında qarşılıqlı əlaqənin kəsilməsi səbəbindən onlar bir-birilərinə atəş açıb, ölən və yaralananlar olub.

### Düşmənin 10-dək tankı, 6 D-20 topu, 30 avtomobil texnikası məhv edilib



Gün ərzində cəbhənin müxtəlif istiqamətlərində gedən döyüşlər zamanı Azərbaycan Ordusunun endirdiyi zərbələr nəticəsində düşmən xeyli itki verib.

Qoşunlarımızın atəş zərbəsi ilə düşmənin 10-dək tankı, 6 ədəd D-20 topu, 1 ədəd "Akasiya" özüyeriyən artilleriya qurğusu, 30-dək avtomobil texnikası və xeyli sayda canlı qüvvəsi məhv edilib.

Ermənistan ordusunun 1-ci və 7-ci alaylarının müdafiə sahələrində yerləşən bölmələrinin bir qrup əsgəri döyüş mövqelərini özbaşına tərk ediblər.

### Ali Baş Komandan: "Biz haqq yolundan dönməyəcəyik"



Ali Baş Komandan Müdafiə Nazirliyinin Mərkəzi Komanda Məntəqəsində müşavirə keçirib. Prezident qeyd edib ki, Azərbaycan Ordusu döyüş meydanında uğurlar əldə edir, hər gün döyüş bölgələrində aparılan əməliyyatlarla bağlı ona operativ məlumatlar verilir.

Vəziyyət tam nəzarət altındadır və işğal edilmiş torpaqlarımızın bir hissəsi düşməndən təmizlənib. Artıq həmin şəhər və kəndlərimizdə Azərbaycan bayrağı dalğalanır.

Sonda baş sərkərdə qətiyyətlə vurğulayıb: "Azərbaycan xalqını əmin etmək istəyirəm ki, biz bundan sonra da haqq yolundan dönməyəcəyik və heç bir qüvvə bizim iradəmizə təsir edə bilməz. Düşməni sona qədər qovacağıq və ərazi bütövlüyümüzü bərpa edəcəyik".

### Ağstafada düşmənin PUA-sı məhv edilib

Saat 22:00 radələrində Ermənistana məxsus pilotsuz uçuş aparatı (PUA) Ermənistan-Azərbaycan dövlət sərhədinin Ağstafa rayonu sahəsində uçuş keçirməyə cəhd göstərib.

Azərbaycan hava hücumundan müdafiə bölmələri tərəfindən aşkar olunan düşmən PUA-sı dərhal məhv edilib.

### 250-dək tank, 270 artilleriya, 150 avtomobil, 8 silah-sursat anbarı məhv edilib



Azərbaycan Ordusu müəyyən olunmuş istiqamətlərdə irəliləyərək yeni dayaq məntəqələrini azad etməklə ərazini düşmən qüvvələrindən təmizləyir. Döyüşlərdə düşmənin xeyli sayda canlı qüvvəsi, hərbi texnikası və digər texniki vasitələri məhv edilib.

Sentyabrın 27-dən oktyabrın 7-si saat 05:30-dək düşmənin ümumi itkiləri bunlardır:

- 250-dək tank və digər zirehli texnika;
- 270-dək artilleriya, yaylım atəşli raket sistemləri, minaatan;
- 60-dək hava hücumundan müdafiə vasitələri;
- 11 komanda-idarəetmə və komanda-müşahidə məntəqəsi;
- 8 silah-sursat anbarı;
- 150-dək avtomobil texnikası;
- 1 ədəd "S-300" zenit-raket kompleksi.

*Rəşad BAXŞƏLİYEV,*
*"Azərbaycan"*

# Füzulidə şəhidlərin xatirəsi anılıb, məzarları ziyarət olunub

**44 günlük Zəfər yürüşü zamanı torpaqlarımızın azad edilməsi üçün silaha sarılaraq döyüşlərdə şəhid olan Tural Qubatov və Qismət Qardaşxanovun anım günündə məzarları ziyarət olunub. Müqəddəs amal uğrunda şəhadətə ucalan şəhidlərin şərəfli həyatından bir daha söhbət açılıb.**

AZƏRTAC xəbər verir ki, şəhidlərin anım mərasimində ailə üzvləri ilə yanaşı, rayon icra hakimiyyətinin əməkdaşları, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Füzuli rayon şöbəsinin nümayəndələri, təhsil və mədəniyyət işçiləri, şəhid ailələri, qazilər, kənd sakinləri və ziyalıları iştirak ediblər.

* * *

Tural Firəddin oğlu Qubatov 1998-ci il iyunun 4-də Füzuli rayonunun Böyük Bəhmənli kəndində anadan olub. Atasının yolunu davam etdirmək arzusu ilə yaşayan Tural həqiqi hərbi xidməti başa vurduqdan sonra ordu sıralarında qalmağı qərara alıb. Tural müddətdən artıq hərbi xidmətçi kimi həmlə taborunda ön cəbhədə döyüşüb. Alxanlı istiqamətindən başlayan əks-hücum zamanı pulemyotçu olaraq düşmənə qarşı mərdliklə vuruşub. O və hərbçi yoldaşları 30 illik erməni səddinin yarılmasında şücaət göstəriblər. Daha sonra Tural və döyüşçü yoldaşları Cəbrayıl istiqamətində düşmənə qarşı mərdliklə vuruşublar. Gərgin döyüşlərdən birində Tural qəhrəmancasına şəhidlik zirvəsinə ucalıb. Prezident İlham Əliyevin sərəncamlarına əsasən, Tural Qubatov ölümündən sonra "Cəsur döyüşçü", "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edilib.



Qismət Qərib oğlu Qardaşxanov 1993-cü il avqustun 30-da Füzuli rayonu Birinci Mahmudlu kəndində anadan olub. Qismət uşaqlıq illərini də elə cəbhə rayonunda keçirərək vətənpərvər ruhda böyüyüb. Həqiqi hərbi xidmətə ruh yüksəkliyi ilə yollanıb. Xidmətini bitirdikdən sonra müddətdən artıq xidmətçi olaraq Vətənin keşiyində dayanıb. Əks-hücumlar zamanı Qismət də ön sıralarda döyüşə qoşulub. Füzuli, Cəbrayıl, Xocavənd uğrunda döyüşlərdə mərdliyi və qorxmazlığı ilə seçilib. Oktyabrın 5-də gərgin döyüşlər zamanı Qismət şəhidlik zirvəsinə yüksəlib. Prezident İlham Əliyevin sərəncamlarına əsasən, Qismət Qardaşxanov ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif olunub.

# *Şəhid anası:* "Vətən sağ olsun!" deyib övladlarımızı cəbhəyə yolladıq"

**30 il işğal altında qalan torpaqlarımız 2020-ci ilin payızında şəhidlərimizin qanı bahasına azad olundu. Bu sevinci xalqımıza yaşadanlar sırasında Suqovuşanın azadlığı uğrunda şəhadətə yüksələn Aslan Hüseynov da var.**



Atası Malik Hüseynov AZƏRTAC-a açıqlamasında deyir ki, həmişə vətənpərvərliyi ilə seçilən Aslan hərbi xidməti başa vurandan sonra müddətdən artıq hərbi xidmətçi kimi fəaliyyətə başlayıb. 2016-cı ilin Aprel döyüşlərində yaralansa da, yolundan dönməyib. Gizir hazırlığı kursunu başa vurub xidmətini davam etdirib. 2020-ci il Vətən müharibəsində Suqovuşan döyüşlərində düşmənin 3 tankını vurub sıradan çıxarıb. Sentyabrın 30-da şəhid olub.

Malik kişi deyir ki, Aslan şəhid olacağını bilirdi: "Sentyabrın 23-də evə gəlmişdi. Dostu ilə Tərtərin bütün küçələrini gəzmişdi. Ona şəhid olacağını demişdi... Allah bütün şəhidlərimizə rəhmət eləsin, qazilərə cansağlığı versin. Vətən sağ olsun!"

Anası İradə xanım Aslan haqqında danışmağın nə qədər çətin olsa da, qürurlu olduğunu deyir: "Vətən sağ olsun!" deyib övladlarımızı cəbhəyə yolladıq. Aslanla bərabər digər oğlumu da yola salmışdıq. İkisi də ön cəbhədə idi. Biri şəhidlik zirvəsinə ucaldı, digəri sağ-salamat gəldi... Aslan vətənini sevən, vətənə bağlı insan idi. Çox məsuliyyətli idi. Özü də bilirdi şəhid olacaq. Deyirdi ki, erməni kimdir ki, bizim torpaqlarımız onların tapdağı altında qala. Aslan cəsur oğlan idi. Aprel döyüşlərində yaralansa da, evə qayıtmaq istəmirdi. Bu gün üzümdə qürur, ürəyimdə nisgil var. Aslan haqqında danışmaq nə qədər çətin olsa da, qürurla danışıram. Şəhid elin şəhididir. Azərbaycanın Qarabağ kimi yarasına mənim oğlumun timsalında 3000 mindən artıq şəhid məlhəm oldu. Ana kimi həmişə qürurlanıram, amma onların nisgili, yarası gedən deyil. Vətən sağ olsun!... Aslanın iki övladı - bir oğlu, bir qızı yadigar qalıb, onun adına layiq övlad olsunlar".

Qeyd edək ki, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçusu Aslan Hüseynov Prezident İlham Əliyevin sərəncamları ilə ölümündən sonra "Azərbaycan Bayrağı" ordeni, "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif olunub. Aslan Hüseynova sağlığında isə "Hərbi xidmətdə fərqlənməyə görə", "Azərbaycan Ordusunun 100 illiyinə görə" medalları verilib. Şəhidin adının əbədiləşdirilməsi üçün Tərtər şəhərində küçələrdən birinə onun adı verilib, doğulduğu kənddə isə adına bulaq inşa edilib.

# *Şəhid atası:* "Bizi ayaqda tutan, qürurlandıran odur ki, Xocalının qisası alındı"

**44 günlük Vətən müharibəsində neçə-neçə Azərbaycan oğlu böyük hünərlə ana yurdun bütövlüyü, təhlükəsizliyi naminə özünü odun-alovun içinə ataraq Zəfər tariximizi yazdı. Vətənə sevgisindən, onun qarşısındakı borcun məsuliyyətindən, milli qürur hissindən güc alaraq ən uca igidlik, qəhrəmanlıq zirvəsini fəth edənlərin bir qismi bu dünyadan qəlblərə köçərək şəhid adı qazandı.**

Belə oğullarımızdan biri də Xüsusi Təyinatlı Qüvvələrin əsgəri Muraz Cabbarovdur.

Cabbarov Muraz İlham oğlu 2000-ci il martın 7-də Daşkəsən rayon Zağalı kəndində anadan olub. Qazaxyolçular tam orta məktəbini bitirən Muraz 2018-ci ildə həqiqi hərbi xidmətə yollanıb. Şəhidin atası İlham Cabbarov deyir ki, Muraz elə uşaq yaşlarından vətənpərvər olub. Vətən qarşısında borcunu ödəmək üçün həqiqi hərbi xidmətə böyük həvəslə yollanıb.

"Hərbi xidmətini Xüsusi Təyinatlı Qüvvələrdə davam etdirdi. Həmişə silahlarla necə davranmağı çox öyrənmək istəyirdi. Hərbi xidməti zamanı da sevinirdi ki, ona bunları lazımınca öyrədirlər. Çox məsuliyyətli idi. 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində də igidlik göstərdi, cəsur davrandı, yoldaşları ilə birgə üzərinə düşən tapşırıqları yerinə yetirdi. Sonda isə Vətən uğrunda şəhid oldu", - deyə İlham Cabbarov bildirir.

Az bir zamanda döyüş sirlərinə yiyələnən və bir çox silahdan istifadə etməyi bacaran Muraz Cabbarov Kəlbəcər və Füzuli istiqamətlərində gedən döyüşlərdə iştirak edib. 2020-ci il oktyabrın 20-də Füzuli istiqamətində gedən döyüş zamanı snayper gülləsinə tuş gələrək qəhrəmancasına şəhid olub. Noyabrın 2-də Daşkəsən Şəhidlər xiyabanında dəfn edilib.



"Həmin gün sanki kürəyimə bıçaq sancıldı. Ürəyimdə narahatlıq var idi. Zəng edib, oğlumun şəhid olduğunu öyrəndim, nəşi tapılan günədək evdə deyə bilmirdim. Qürur duyuram ki, Vətən uğrunda elə bir oğul böyütdüm. Əsrlərin qələbəsi olan bu qələbə Prezidentimizin uğurlu siyasətinin, ordumuzun peşəkarlığının, xalqımızın birliyinin qələbəsi oldu, Xocalı ləkəsini alnımızdan sildi. Oğul dərdi çox ağır dərddir, amma bu gün bizi ayaqda tutan, qürurlandıran odur ki, Xocalının qisası alındı", - deyə şəhid atası vurğulayır.

Şəhidin anası Zeynəb Cabbarova da övladının şəhidlik zirvəsinə yüksəlməsi ilə qürur duyduğunu deyir: "Muraz yaxşı oğul olub. Deyirdi ki, "qarğa kimi çox yaşamaqdansa, qartal kimi ömrüm olsun, adım qalsın". Həmişə söyləyirdilər ki, "oğul düşmən çəpəridir". Mən də deyirdim ki, görən nəyə görə belə deyirlər. Deməli ki, həqiqətən belə imiş. Onunla həmişə fəxr edirdim. Yenə də fəxr edirəm, çünki o, ad qoyub getdi. Şəhid adı böyük bir ucalıqdır. Biz ölüb getsək də, balam həmişə yaşayacaq" deyən Zeynəb Cabbarova əlavə edir ki, Muraz 4 qardaşı ilə yanaşı, yetişən nəsillər üçün də qəhrəmanlıq örnəyidir.

Şəhid Muraz Cabbarov Prezident İlham Əliyevin sərəncamına əsasən, ölümündən sonra III dərəcəli "Rəşadət" ordeni, "Kəlbəcərin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Vətən uğrunda" və "Cəsur döyüşçü" medalları ilə təltif olunub.

# *Vətən müharibəsi qazisi:* "Qələbəmizin möhtəşəmliyi bütün yaralarımızı unutdurur"

**Vətən müharibəsi ordumuzun qüdrətinin, əsgər-zabitlərimizin rəşadətinin, peşəkarlığının ən ali ifadəsinə çevrildi. 44 günlük Zəfər yürüşündə minlərlə oğul gecə-gündüz demədən torpaqlarımızın azadlığı uğrunda vuruşdu, qazi, şəhid oldu. İkinci Qarabağ müharibəsində düşmənə qan udduran hərbçilərimizdən biri də Həmzə Əliyevdir.**

Qəhrəman eloğlumuz AZƏRTAC-a açıqlamasında Vətən müharibəsində keçdiyi döyüş yolu ilə bağlı təəssüratlarını bölüşüb.

Həmzə Əliyev deyib ki, 2020-ci il sentyabrın 27-dən başlanan Vətən müharibəsində xüsusi təyinatlı kimi iştirak edib: "Döyüşə Cəbrayıl rayonu istiqamətindən başladıq. İlk şəhidimizi həmin yerdə verdik, kapitan Nihad Babayevi orada itirdik. Mən isə ilk dəfə düşmənin atdığı artilleriya mərmisindən yaralandım. Son döyüşüm isə Xocavənd rayonu ərazisində olub".




Həmzə qeyd edir ki, ilk ciddi xəsarətini Füzuli rayonunun Qarğabazar ərazisində alıb. Xocavənddəki ağır döyüşlərdən sonra aldığı yaralar və bu səbəbdən sonradan yaranan xəstəliklər, o cümlədən "xərçəng" həyatını çətinləşdirsə də, Vətən uğrunda çəkilən bu əzab Həmzə üçün qürur mənbəyidir.

"Bu gün Ali Baş Komandanın rəhbərliyi ilə qalib ölkənin vətəndaşı olmaq, Azərbaycanın dünya dövlətləri arasında yüksək nüfuza sahib olduğunu görmək bizə böyük qürur verir. Zəfər yolunda əlimizdən gələni əsirgəmədiyimiz üçün çox sevinirik. Qələbəmizin möhtəşəmliyi bütün çətinlikləri, yaralarımızı unutdurur. Biz bu Zəfərlə şəhidlərimizə olan borcumuzu da ödədik, onların qanını yerdə qoymadıq", - deyə Həmzə Əliyev fəxrlə əlavə edir.

Bəli, Vətən müharibəsində Həmzə Əliyev kimi oğullarımız hər bir gəncimiz üçün oxunması vacib, zəruri sayılan vətənpərvərlik dərsidir. Otuzillik həsrət yükünü çiyinlərimizdən götürən, bizə qalib xalq adını qazandıran igidlərimizin döyüş yolu daim öyrənilməli, qəhrəmanlıqları dastana, hekayələrə, məqalələrə çevrilməlidir.

# İqtisadiyyat və sosial həyat

## Türk Dövlətləri Təşkilatı: məqsəd daha möhkəm birliyə nail olmaqdır

### TDT bunun üçün iqtisadi sahələrdə də fəaliyyətini genişləndirir

**Hazırda Türk Dövlətləri Təşkilatı (TDT) dünya miqyasında güc mərkəzlərinin birinə çevrilməyi hədəfləyir. Bu da təsadüfi deyil. Çünki həmin dövlətlər böyük coğrafi məkanı əhatə edir, üzv ölkələrdə müsbət demoqrafik dinamika müşahidə olunur və s. Zəngin təbii resurslar, onların nəqli üçün müasir infrastruktur, Mərkəzi Asiyanı, Qafqazı Aralıq və Qara dəniz limanları ilə birləşdirən nəqliyyat dəhlizləri, eləcə də qədim tarix və mədəniyyətləri bu ökələrin xalqlarının böyük sərvətidir.**

Türk ölkələri ilə əlaqələrin genişləndirilməsi, türk dünyasının və Türk Dövlətləri Təşkilatının gücləndirilməsi Azərbaycanın xarici siyasətinin prioritet istiqamətidir. Azərbaycan həmişə türk dünyasının sıx birləşməsi, onun siyasi, iqtisadi və hərbi qüdrətinin artması, qlobal arenada güc mərkəzinə çevrilməsi naminə səylər göstərmişdir.Bu məqsədlə də ölkəmiz TDT ilə iqtisadi əlaqələrini genişləndirir. Bu da özünü həm geniş formatda, həm də hər bir ölkə ilə ikitərəfli şəkildə iqtisadi əməkdaşlıqda özünü göstərir.

Azərbaycanın qardaş Türkiyə ilə birlikdə reallaşdırdığı qlobal enerji layihələri bunun ən parlaq nümunələrindəndir. Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəməri, Azərbaycanı dünyada qaz ixracatçısı kimi tanıdan Bakı-Tbilisi-Ərzurum kəməri, "Cənub qaz dəhlizi"nin ən böyük hissəsi olan TANAP... Bir sözlə, Azərbaycan neftinin və qazının dünyaya yolu Türkiyədən keçir.

Son vaxtlar Azərbaycan, Qazaxıstan və Özbəkistanın Xəzərin dibi ilə çəkəcəyi "yaşıl dəhliz" layihəsi də dünyanın diqqətindədir. Bu, 2022-ci il dekabrın 17-də Buxarestdə imzalanan "Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya və Macarıstan hökumətləri arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş"ə əsasən, Xəzərin və Qara dənizin dibi ilə Avropaya uzanan "yaşıl enerji" dəhlizinin önəmli bir hissəsi olacaq. Belə misalların sayı çoxdur.

TDT-nin iqtisadi əlaqələrinin inkişafında keçən il iyulun 6-da təşkilatın Şuşada keçirilən qeyri-rəsmi Zirvə görüşü növbəti mühüm addım olmuşdur. Bunu tədbirin "Nəqliyyat, bağlantı və iqlim fəaliyyəti vasitəsilə dayanıqlı gələcəyin qurulması" mövzusuna həsr olunması da təsdiqləyir.

Zirvə görüşündə Prezident İlham Əliyev demişdir: "Hesab edirəm ki, Türk Dövlətləri Təşkilatının cari büdcəsi və strukturu bizim birlikdə nəzərdə tutduğumuz hədəflərin reallaşdırılması üçün yetərli deyil. Buna görə Azərbaycan bu günlərdə Katibliyin hesabına 2 milyon ABŞ dolları məbləğində vəsait köçürmüşdür. "Şərq-Qərb" nəqliyyat dəhlizinin genişləndirilməsi qarşımızda duran prioritet məsələlərdən biridir. Orta dəhlizin ayrılmaz bir hissəsi olan Bakı-Tbilisi-Qars dəmir yolunun illik yükaşırma qabiliyyəti Azərbaycanın əlavə sərmayəsi nəticəsində 1 milyondan 5 milyon tona çatdırılıb. Xəzər dənizində 50-dən çox ticarət gəmisi olan Azərbaycan Türk dövlətləri üçün önəmli tranzit xidmətləri göstərir. Artan yükdaşımaları nəzərə alaraq, hazırda Bakı gəmiqayırma zavodunda 6 gəmi inşa edilir. Gələn il ölkəmizin 9-cu Beynəlxalq Hava Limanı Laçında istismara veriləcək. Ələt Beynəlxalq Ticarət Limanının yükötürmə qabiliyyəti 15 milyon tondan 25 milyon tona qədər genişləndiriləcək.. Enerji sahəsində strateji tərəfdaşlığımız, o cümlədən bərpaolunan enerji və enerji səmərəliliyi sahəsində əməkdaşlığımız çox əhəmiyyətlidir. Xəzər dənizi vasitəsilə Azərbaycan ərazisindən Avropa və Asiya arasında fiber-optik telekommunikasiya marşrutu yaratmaq məqsədi daşıyan "Rəqəmsal İpək Yolu" layihəsi də mühüm təşəbbüslərdən biridir".




Sözügedən qeyri-rəsmi Zirvə görüşündə qəbul edilmiş Qarabağ Bəyannaməsindən bəzi müddəaları xatırlatmaq da yerinə düşər. Belə ki, həmin sənəddə türk dövlətlərinin regionda və dünyada qlobal ticarətin və iqtisadiyyatın inkişafında əvəzsiz rolu nəzərə alınmaqla, müvafiq nəqliyyat infrastrukturunun və səmərəli transregional dəhlizlərin yaradılması yolu ilə onların arasında bağlılığın daha da inkişaf etdirilməsinin vacibliyi vurğulanıb. Eləcə də ticarət həcmlərini artırmaq, limanlara, dəmir yollarına, avtomobil yollarına və logistika qovşaqlarına infrastruktur investisiyalarını cəlb etməklə dayanıqlı inkişaf, iqtisadi rifah və beynəlxalq ticarət üçün təməl daşı kimi Avropa-Türkiyə-Cənubi Qafqaz-Mərkəzi Asiya-Çini birləşdirən Trans-Xəzər Beynəlxalq Şərq-Qərb Orta dəhlizi vasitəsilə üzvlər arasında regional əlaqəni və inteqrasiyanı gücləndirmək üçün üzv dövlətlər arasında sıx əməkdaşlığa çağırış edilib. Regional ticarət həcminin davamlı artdığı qeyd edilərək, qarşıdan gələn illərdə ticarət həcminin həqiqi potensialına çatdırılması üçün konkret tədbirlərin görülməsi barədə razılığa gəlinib.

Məlum olduğu kimi, Türk İnvestisiya Fondu da mövcuddur. Yeri gəlmişkən onu da qeyd edək ki, bu fondun yaradılması ideyası Prezident İlham Əliyev tərəfindən irəli sürülmüşdür. Türk dünyasının iqtisadi inkişafının sürətləndirilməsi və TDT üzvləri arasında iqtisadi əlaqələrin dərinləşməsində fondun üzərinə önəmli vəzifə düşür. Başqa sözlə, məqsədi türk dövlətləri coğrafiyasının daha firavan gələcəyi üçün onun iqtisadi inkişafını dəstəkləmək və maliyyə davamlılığını qorumaq olan fond onların birliyini, əməkdaşlığını və iqtisadi əlaqələrini dərinləşdirmək əzminin rəmzidir. Fondun fəaliyyəti sayəsində regional ticarət və iqtisadi əməkdaşlıq yeni səviyyəyə qalxacaq. 500 milyon dollar nizamnamə kapitalına malik Türk İnvestisiya Fondunun işlək mexanizmlərinin hazırlanmasının keçən il Şuşada imzalanmış bəyannamədə yer alması məhz investisiya imkanlarını genişləndirmək və iqtisadi inteqrasiyanı gücləndirmək məqsədi daşıyır.

Fond həm dövlət, həm də özəl sektor investisiyalarını sürətləndirəcək, bir çox sahədə layihələrə texniki dəstək verəcək. İnfrastruktur, bərpaolunan enerji, kənd təsərrüfatı və turizm kimi sahələrə investisiyaların artırılmasında mühüm rol oynayaraq davamlı iqtisadi inkişafa töhfə verəcək. Fond türk ölkələrinin iqtisadiyyatına əhəmiyyətli maliyyə resursları axınını stimullaşdırmaqla, xarici investisiyaların cəlb edilməsi istiqamətində də fəal iş aparacaq. Bütün bunların yekun məqsədi isə türk dövlətlərinin inteqrasiyasıdır.

Əsas hədəflərdən biri ondan ibarətdir ki, türk dövlətlərinin iqtisadi inkişaf sürəti dünya üzrə orta göstəricidən yüksək olsun və bunun üçün potensial var. Çünki türk dövlətlərinin hamısı azad iqtisadiyyat prinsipləri əsasında inkişaf edir, ümumi dirçəlişə güclü təsir göstərən islahatlar və bu istiqamətdə konkret proqramlar həyata keçirir.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

## Ölkəmizdə ilk dəfə Gələcəyin Peşələri Sammiti keçiriləcək

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyinin təşkilatçılığı ilə ölkəmizdə ilk dəfə Gələcəyin Peşələri Sammiti (GPS) keçiriləcək. Tədbir oktyabrın 30-da Naxçıvan şəhərində "Gələcəyə tərəf" devizi altında təşkil olunacaq.**

Sammitin məqsədi əmək bazarında baş verən dəyişiklikləri, yeni peşə və bacarıqlarla bağlı tələbləri, texnologiya və innovasiyaların iş dünyasına təsirlərini peşəkar mühitdə müzakirə etmək, təhsil və məşğulluq sahələrində yeni çağırışlar nəzərə alınmaqla, bu ekosistem iştirakçılarının gələcək əmək bazarına hazırlıqlarını dəstəkləməkdir.

GPS işəgötürənlər, dövlət qurumları, təhsil müəssisələri və peşəkarlar arasında sağlam fikir mübadiləsi üçün vahid platforma yaratmağı nəzərdə tutur. Sammitin hədəfləri gələcəyin peşə və bacarıqlarının müəyyənləşdirilməsi və tanıdılması, iş dünyasının yeni tendensiyalarının paylaşılması, tərəfdaşlar arasında əməkdaşlığın gücləndirilməsi, hədəf qrup olan peşəkarların daha çevik, innovativ və rəqabətədavamlı karyera həlləri ilə təmin olunmasına şərait yaradılmasıdır.

Tədbir çərçivəsində "Əmək bazarının transformasiyası" və "Dəyişikliklərə adaptasiya" adlı iki panel müzakirəsi təşkil olunacaq. Panellərdə təhsil strategiyalarında yeni yanaşmalar və gələcək addımlar, müasir məşğulluq strategiyaları, gələcəyin peşə və bacarıqlarında gözlənilən yeniliklər və bu yeniliklərə adaptasiya yolları, gələcək əmək bazarına hazırlıq və bu çərçivədə Naxçıvan Muxtar Respublikasının qarşısında duran çağırışlar müzakirə ediləcək.

Sammitdə yerli və xarici karyera məsləhətçiləri, təlimçilər, insan resursları üzrə mütəxəssislər, sahibkarlar, təhsil ekspertləri, dövlət və özəl sektorun nümayəndələri, inkişaf mentorları iştirak edəcəklər.

Gələn ay Gələcəyin Peşələri Sammitinin Bakı şəhərində də keçirilməsi nəzərdə tutulub.

## 9 ayda istehlakçılara 140 milyon manatdan çox ƏDV qaytarılıb

**Cari ilin yanvar-sentyabr ayları ərzində ölkə üzrə istehlakçılara 140 milyon 216 min manat ƏDV qaytarılıb.**

Bu, Azərbaycan ərazisində pərakəndə ticarət və ya iaşə fəaliyyəti göstərən şəxslərdən alınmış mallara (neft və qaz məhsulları, avtomobillər, alkoqollu içkilər və tütün məmulatları istisna olmaqla), teatr tamaşaları, film nümayişi, muzey ziyarəti və simfonik orkestrin konserti sahəsində göstərilən xidmətlərə, habelə tibb müəssisələri və özəl tibbi praktika ilə məşğul olan fiziki şəxslər tərəfindən göstərilən tibbi xidmətlərə görə ödənilmiş ƏDV-nin müvəkkil banklar tərəfindən istehlakçılara qaytarılan həcmidir.

Dövlət Vergi Xidmətindən verilən məlumata görə, bu ilin 9 ayında xarici vətəndaşlar tərəfindən respublika ərazisində fərdi istehlak üçün alınmış mallara görə dövlət büdcəsindən qaytarılmış ƏDV-nin ("tax free") məbləği 7 milyon 928,2 min manat təşkil edib.

Sözügedən müddət ərzində aktiv təsərrüfat subyektlərinin (obyektlərinin) sayı 5,1 faiz artıb və 228,5 min olub.

## Orta dəhlizə investisiya qoyuluşu artır

### Dəhliz təhlükəsizlik və səmərəlilik baxımından daha cəlbedici olur

**Dünyada baş verən gərgin beynəlxalq proseslərin qlobal iqtisadiyyata mənfi təsiri davam edir. Hətta o dərəcədə ki, dünya üzrə istehsalın həcmi azalıb. Bu da dünyanın ticarət arteriyası olan iki marşrutda - Qırmızı dəniz Süveyş kanalı və Trans-Sibir-Avropa marşrutlarının fəaliyyətini iflic edib.**

Odur ki, indi dünya Orta dəhlizə yeganə çıxış yolu kimi baxır. Səbəb bu qlobal marşrutun təhlükəsiz və iqtisadi cəhətdən səmərəli olmasıdır. Amma bütün ağırlıq Orta dəhlizin üzərinə düşdüyündən onun yükötürmə qabiliyyəti də yüksək olmalıdır. Bunun üçün dəhliz boyunca marşrutun bütün hissəsində yolların modernləşdirilməsi lazımdır. Bu isə ilk növbədə investisiya qoyuluşu tələb edir. Məlumdur ki, investorlar sabit gəlir gətirməyən layihələrə kapital qoyuluşunu həyata keçirmirlər. Orta dəhlizlə bağlı isə hər kəs bilir ki, bu marşrut rentabellidir və ona sərmayə yatırmaq elə də risk tələb etmir. O üzdən beynəlxalq maliyyə qurumları və bankları Orta dəhlizə sərmayə qoymaqdan çəkinmirlər.

Dünya Bankının Azərbaycan üzrə meneceri Ştefani Ştalmayster bildirir ki, hazırda Dünya Bankı və Azərbaycan hökuməti Bakı Beynəlxalq Dəniz Limanının genişləndirilməsinin hansı mərhələsinin maliyyələşdiriləcəyini müəyyənləşdirirlər. Bankın menecerinin verdiyi məlumatda bildirilir: "AZCON Holdinq" və "Azərbaycan Dəmir Yolları" QSC ilə hökumət üçün prioritet olan Bakı limanının genişləndirilməsi barədə danışıqlar aparırıq. Hazırda hansı mərhələnin və necə maliyyələşdiriləcəyi müəyyən edilir. Düşünürəm ki, söhbət artıq xərclər üzrə yekun qərardan gedir. Biz hökumətlə əməkdaşlıq etməkdən məmnunuq. Çünki bu, Orta dəhlizin inkişafı və gücləndirilməsi üçün mühüm layihədir".

Bəlli olduğu kimi, indi Azərbaycanda quru yük körpüsünün və liman stansiyalarının genişləndirilməsini əhatə edən Bakı limanının tikintisinin ikinci mərhələsi həyata keçirilir. Hazırda limanın tutumu 150 000 TEU-dur və bu göstərici iki il ərzində 260 000 TEU-ya qədər artacaq.

Qardaş Türkiyə də yüklərin Asiyadan Avropaya və əks-istiqamətdə daşınmasında mühüm tranzit ölkədir. Yüklərin tez və təhlükəsiz daşınmasında bu ölkənin infrastrukturu önəmli rol oynayır. Bu məqsədlə Türkiyə hökuməti iki irimiqyaslı infrastruktur layihəsi - Şərqi Türkiyə Dəmir Yolu İnfrastrukturunun İnkişafı (ETMIC) və İstanbul Şimal Dəmiryolu Bağlantısı (INRAIL) layihələri üçün Dünya Bankı və digər beynəlxalq maliyyə qurumlarından təxminən 9,7 milyard dollar həcmində maliyyə cəlb etmək niyyətindədir. Dünya Bankının verdiyi xəbərə görə, ETMIC layihəsinin təxmini dəyəri ƏDV daxil olmaqla 1,615 milyard, INRAIL layihəsi isə ƏDV, gözlənilməz hallar, tikintiyə nəzarət və layihənin idarə edilməsi daxil olmaqla 8,1 milyard dollar səviyyəsində qiymətləndirilir. ETMIC layihəsi Orta dəhlizin (Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu, TBNM) bir hissəsi olan Divriği-Qars-Gürcüstan sərhədi dəmir yolu xəttinin bərpasını və elektrikləşdirilməsini nəzərdə tutur. Proqrama 587 km dəmir yolu infrastrukturunun və relslərin üst quruluşunun bərpası, Divriğidən Gürcüstan sərhədinə qədər olan 667 km xəttin elektrikləşdirilməsi, körpülərin, tunellərin, suötürücülərin, istinad divarlarının tikintisi, stansiyaların genişləndirilməsi, idarə olunan dəmir yolu keçidlərinin tətbiqi, təhlükəsizliyi və istifadənin rahatlığını təmin etmək üçün sosial obyektlərin inkişafı, müasir nəqliyyatın idarə olunması sisteminə isə yarımstansiyalar və 154 kV-luq elektrik verilişi xətləri, siqnalizasiya və telekommunikasiya avadanlığı, Mərkəzləşdirilmiş Hərəkətə Nəzarət (CTC) və 320 km paylanmış akustik monitorinq sistemi (DAS) daxildir.

Dünya Bankının məlumatında bildirilir ki, təkmilləşdirilmiş Şərq dəhlizi Türkiyə daxilində Orta dəhlizin strateji hissəsinə çevriləcək və Türkiyə ilə Gürcüstan, Xəzər regionu və Mərkəzi Asiya arasında birbaşa əlaqəni təmin edəcək. Elektrikləşdirilmiş yük xətti daşımaların sürətini, etibarlığını və ətraf mühitə uyğunluğunu artıracaq, eləcə də Türkiyənin Avrasiya logistikasında mühüm mərkəz rolunu gücləndirəcək. Türkiyə eyni vaxtda INRAIL layihəsini - İstanbul aqlomerasiyasından yan keçməklə ölkənin Asiya və Avropa hissələrini birləşdirəcək. Hazırda qardaş ölkə təxminən 125 km uzunluğunda olacaq yeni dəmir yolu xəttinin tikintisini həyata keçirməyə hazırlaşır. Bu dəmir yolu xətti Çayırova stansiyasının (Asiya tərəfində) yaxınlığından başlayacaq və Yavuz Sultan Səlim körpüsü üzərindən keçərək Çatalca stansiyasında (Avropa tərəfində) sona çatacaq. Həm sərnişinlərin, həm də yüklərin daşınması üçün nəzərdə tutulan yeni xətt elektrikləşdiriləcək və tam siqnallaşdırılacaq. Layihəyə əsasən, sərnişin qatarlarının sürəti 160, yük qatarlarının isə 80-120 km/saata çatdırılacaq. Bu xətt İstanbul Hava Limanı ilə Sabiha Gökçen Hava Limanı arasında birbaşa əlaqəni təmin edəcək, onları milli dəmir yolu şəbəkəsinə inteqrasiya edəcək və multimodal logistikanı gücləndirəcək.



Bu yerdə bildirək ki, ötən il Trans-Xəzər Beynəlxalq Nəqliyyat Mərkəzi (TBNM, Orta dəhliz) üzrə yük daşımaları 62 faiz artaraq 4,5 milyon tona çatıb. Cari il artımın daha yüksək olacağı və daşımaların həcminin 5,2 milyon tona çatacağı proqnozlaşdırılır. Bunun da 4,2 milyon tonu iştirakçı ölkələrin marşrutları ilə daşınacaq. Həmin həcmin 2,5 milyon tonu quru yüklər (təxminən 96 min TEU), 1,7 milyon tonu isə enerji daşıyıcıları olacaq.

2027-ci ilə qədər marşrutun ötürücülük qabiliyyətinin ildə 10 milyon tona qədər artacağı ehtimalı var ki, bu da Azərbaycanın tranzit potensialının genişləndirilməsi və infrastrukturun inkişafına əlavə investisiyaların cəlb edilməsi üçün dayanıqlı zəmin yaradacaq.

Yeri gəlmişkən qeyd edək ki, Litvanın Azərbaycandakı səfiri Kestutis Vaskelyaviçyus Orta dəhlizin perspektivlərini yüksək qiymətləndirib və bu istiqamətdə əməkdaşlığın genişləndirilməsini vacib sayıb. "Bakı Cənubi Qafqazda əsas limandır. Onun Mərkəzi Asiyaya və hətta onun sərhədlərindən kənara çıxmaq imkanı var. Litvanın Klaypeda limanı isə öz növbəsində Skandinaviya və Almaniya bazarlarına giriş nöqtəsi kimi yaxşı mövqe tutur. Hər iki liman praktiki olaraq dəmir yolu ilə əlaqələndirilə bilər ki, bu da yüklərin Klaypedaya çatdırılmasına, oradan dəniz nəqliyyatı ilə Skandinaviyaya, Böyük Britaniyaya, Almaniyaya və digər ölkələrə göndərilməsinə imkan verir. Bunda böyük potensial görürəm və işgüzar dairələr də bu marşrutlardan istifadəyə fəal maraq göstərirlər. Məsələn, Klaypeda limanı artıq Norveç və İsveçdən Azərbaycana yük çatdırır və bu istiqamətdə imkanları dərinləşdirmək istəyi mövcuddur. Bu məqsədlə Klaypeda limanının baş direktoru Algis Latakasın Bakıda səfərdə olub. Səfər Litvanın Orta dəhlizin inkişafına marağını göstərir. Biz bu layihəni siyasi baxımdan da dəstəkləyirik. Çünki Orta dəhliz təcavüzkar dövlətlərdən, iqtisadiyyatı siyasi alət kimi istifadə edən qeyri-sabit ölkələrdən yan keçməyə imkan verən alternativ marşrutdur. Belə alternativ marşrutlara malik olmaq imkanı Litva üçün vacibdir. Bundan əlavə, Orta dəhliz biznes baxımından dəyərlidir: logistika səmərəliliyini artırır, çatdırılma vaxtına qənaət edir, xərcləri azaldır. Əminəm ki, marşrutun inkişaf perspektivləri var".

*Rüstəm KAMAL,*
*"Azərbaycan"*

**Qədimliyi ilə gözoxşayan müasir Bakıda dünya standartlarına uyğun yeni magistral yolların, körpülərin, dünyanın brend arxitektura layihələri əsasında inşa edilən yüksəkmərtəbəli binaların möhtəşəmliyi, yerli mədəniyyət abidəsi hesab edilən mülklərin, məscid və inanc yerlərimizin bərpası məmnunluq doğurur.**



# Paytaxtın "yaşıl xəritə"sinə əlavə olunan daha bir park

Yeri gəlmişkən, Bakı haqqında gözəl şeirlərin və mahnıların müəllifi - tanınmış rus şairi və fiziki Aleksandr Qorodnitski bir neçə il əvvəl Bakıda olarkən mətbuata açıqlamasında demişdir: "Bakıya gəzməyə gələndə şəhərin gündən-günə gözəlləşməsinə heyran qalıram. Deməliyəm ki, Bakını sonuncu dəfə görəndə möhkəm heyrətləndim. Mən bu şəhəri tanıya bilmədim. Yenidənqurmanın belə dönüşünü görməmişdim. Bulvardakı füsunkarlıq bir yana, Bakıda yeni salınan yaşıllıqlar xüsusilə diqqətçəkəndir. Bir neçə ay əvvəl Parisdə olmuşam, Bakını Parislə müqayisə etməyə bilməzdim... Hesab edirəm ki, Bakı bu görkəmi ilə dünyanın ən gözəl şəhərlərindən biridir".

Bu reallıqdır ki, Azərbaycan Prezidenti İlham Əliyevin tapşırıq və tövsiyələrinə əsasən Bakının yaşıllaşdırılmasına, yeni park və xiyabanların, istirahət güşələrinin yaradılmasına xüsusi diqqət yetirilir. Yəqin elə buna görədir ki, istər fərdi qaydada, istər turist kimi Bakıda olanlar, gəzənlər, şəhəri görənlər həmişə belə ürəkaçıqlığı ilə danışırlar, ölkəmizə yenidən qayıtmaq istəyində olurlar. Etiraf edək ki, Bakını gözəlləşdirən, onu belə ürəyəyatımlı edən son illər şəhərdə aparılan möhtəşəm quruculuq işləri, ətraf qəsəbələrdə yaradılmış 53-dən çox yeni, 90-dan çox əsaslı təmir olunmuş mədəniyyət və istirahət parklarıdır.

Odur ki, istər regiondan, istərsə də digər xarici ölkələrdən Bakıya gələnlərin sayı ildən-ilə çoxalır. Çünki Bakı və onun ətraf qəsəbələri gündən-günə gözəlləşir, abadlaşır, insanların sosial şəraitinin hərtərəfli təmini üçün lazımi infrastruktur yaradılır, xüsusilə də yeni yaşıllıqlar, parklar, istirahət guşələri gözoxşayır. Belə yaşıl məkanlardan biri də Bakının Nərimanov rayonu ərazisində salınan yeni parkdır.









Açılışında Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın iştirak etdiyi yeni istirahət məkanı Əhməd bəy Ağaoğlu, Təbriz və Tələt Şıxəliyev küçələrinin kəsişməsində, İtaliya-Azərbaycan Universitetinin yaxınlığında yerləşir. Ərazisi 3,5 hektar olan parkda sakinlərin istirahəti üçün söhbətgahlar, amfiteatr, tennis meydançası, uşaqlar üçün əyləncə zonaları salınıb, müasir işıqlandırma sistemi qurulub. Burada həm sakit istirahət, həm də idmanla məşğul olmaq üçün bütün imkanlar yaradılıb.

Açılışdan sonra yolumuzu yeni yaradılmış parkdan saldıq. Havanın bir az sərin, Abşeron yarımadasına xas olan bir az da küləkli olmasına baxmayaraq, parka gələnlərin ardı-arası kəsilmir, əksəriyyəti də yaxın ərazilərdə yaşayan sakinlərdir. Onlardan biri - nəvələri ilə parkla tanışlığa və istirahətə gələn orta yaşlı pensiyaçı Əməl Kərimova ilə həmsöhbət oluruq.

- Yaxınlıqda yaşayıram, dünəndən nəvələrim, onlar Həzi Aslanov metrosu yaxınlığında olurlar, zəng edib əl çəkmirlər ki, nənə, sizin evin yanında təzə park salınıb, gələk, bizi apar o parka. Yolları bir az uzaq olduğundan, getdim özüm gətirdim. Xeyli gəzmişik, onlar yorulmaq bilmir, dedim, bir az dincələk, yenə hərlənərik.

Sualımızı cavablandırırmış kimi Əməl xanım dedi: - İnsafən yaxşı bağdı. Təbriz küçəsinin sağında yeni çoxmərtəbəli binalar var, Ərazidəki ictimai-iaşə obyektləri, restoranlar köhnə və yararsız yaşayış binaları sökülüb, yəqin ki, başqa yerə köçürülüb. Ərazidəki dəyişikliklər, sadəcə, görünüşün yenilənməsi deyil, biz sakinlərin gündəlik həyatının keyfiyyətini artırmağa yönəlmiş genişmiqyaslı planların tərkib hissəsidir.

Mənə elə gəlir, ərazidə həyata keçirilən yenilənmə "Bakı şəhərinin 2040-cı ilədək inkişafına dair Baş Planı" çərçivəsində yaşıl, rahat və sosial-mədəni baxımdan zəngin ictimai məkanların yaradılması istiqamətində atılan növbəti əhəmiyyətli addımlardan biridir.

Parkı gəzdikcə fikirlərini öyrənmək istədiyimiz insanların sayı da artırdı. Hüquqşünas Rauf Quliyev, Azərbaycan Dövlət Tibb Universitetinin müəllimi Şöhrət Qasımov, Gəncə şəhərindən gəlmiş Elşən Əliyev, Sabunçu rayonundakı 3 saylı Klinik Xəstəxananın həkimi Şahin Məmmədov, paytaxt sakini Ruslan Bədəlov, Səbuhi və Kəmalə Həsənova ilə həmsöhbət oluruq.

**Rauf Quliyev dedi:**

- Yay aylarında ailəlikcə Bakının bir neçə görməli-gəzməli istirahət məkanında - Heydər Əliyev Mərkəzində, Rixard Zorgenin adını daşıyan parkda, Dədə Qorqud bağında, köhnə Sovetski ərazisində yaradılan Mərkəzi Parkda, "Çəmbərəkənd"də olduq. Elə bil dünyanın hansısa başqa şəhərindəyəm, köhnə parklar da tamam dəyişib, təzələri isə lap möcüzədir. Bütün bunlar mənim 20 il əvvəl gördüyüm Bakı deyil. Hər şey dəyişib, yollar da, binalar da, parklar və xiyabanlar da. Bu bağın yaxınlığındakı yüksəkmərtəbəli yarlı-yaraşıqlı binalar da adamı heyran edir. Qızım İsraildə yaşayır, tez-tez onlar Bakıya, biz də ora gedirik. Həyat yoldaşının ailəsi köhnə bakılıdırlar, təhsilləri və işləri ilə əlaqədar köçüb orada yaşayırlar. Bakının təzə məkanlarından çoxlu şəkillər və videoçəkiliş etmişəm, gedəndə aparıb orada həmyerlilərimizə göstərəcəyəm. Onlar Bakını çox sevirlər, özləri demiş, belə videoçəkilişlərə baxanda sanki özlərini Bakıda hiss edirlər və buraya turist kimi gəzməyə, istirahət etməyə gəlmək istəyində olurlar. Bu, bir Bakı sakini olaraq məni çox məmnun edir.

**Şöhrət Qasımov söhbətə qoşulur:**

- Parkda yaradılan səliqə-sahman, yarlı-yaraşıqlı dekorativ kollar, yenicə qol-budaq atmağa başlayan Gəncə çinarları, müxtəlif ölkələrdən gətirilmiş ağaclar, müasir işıqlandırma sistemi, oturacaqlar gözoxşayır. Bu sıradan həyata keçirilən dəyişikliklər eyni zamanda şəhərin mərkəzindəki yaşıllıq sahələrinin əhəmiyyətli dərəcədə genişləndirilməsi, deyərdim ki, Bakı kimi sıxlıq hiss olunan şəhərdə yeni parkların, bağların salınması ekoloji cəhətdən olduqca gərəklidir, bütün bunlar bilavasitə insanların sağlamlığına xidmət edir. Buna görə ölkə rəhbərinə, aparılan quruculuq və yaşıllaşdırma işlərində əməyi keçən hər kəsə çox sağ olun deyirik, minnətdarıq.

Dövlətimizin başçısının tapşırığı ilə paytaxt Bakıda parkların və xiyabanların əsaslı şəkildə yenidən qurulması və yeni parkların salınması, sakinlərin və şəhərimizin qonaqlarının rahatlığı üçün müasir istirahət guşələrinin yaradılması istiqamətində ardıcıl tədbirlər davam etdirilir. "Yaşıl dünya naminə həmrəylik ili"ndə yeni parkların və yaşıllıq zolaqlarının salınması, əhaliyə xidmət göstərən müasir infrastrukturun yaradılması Bakının dünyanın ən gözəl şəhərlərindən birinə çevrilməsi istiqamətində həyata keçirilən əhəmiyyətli tədbirlərdir.

Görünən odur ki, Prezident İlham Əliyevin diqqət və qayğısı sayəsində ölkəmizin hər yerində, Qarabağ bölgəsindən tutmuş, paytaxt Bakıyadək abadlıq-quruculuq işləri geniş vüsət alıb. Azərbaycanın 2030-cu ilə qədər təmiz ətraf mühit və yaşıl artım ölkəsinə çevrilməsi sosial-iqtisadi inkişafa dair milli prioritetlər sırasındadır. Bu xüsusda görülən işlər həm paytaxt sakinlərinin və Bakıya gələn çoxsaylı turistlərin istirahəti üçün müvafiq şəraitin yaradılması, həm də şəhərin ekoloji durumunun yaxşılaşdırılması istiqamətində həyata keçirilən tədbirlərin davamlı olduğunu bir daha nümayiş etdirir. Ölkəmizdə "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində görülən abadlıq və yenidənqurma işləri ətraf mühitin sağlamlaşdırılmasına mühüm töhfə verir, eyni zamanda Bakını dünyanın ən gözəl şəhərlərindən birinə çevirir.

*Rəhman SALMANLI,*
*"Azərbaycan"*




# "Düşünən" robotlar

**Mətn, şəkil, audio və hətta video yarada bilən generativ süni intellekt sistemləri getdikcə daha geniş yayılır. Onlar robotlar üçün əməliyyat ardıcıllığı təqdim edə bilirlər. "Google DeepMind"ın təqdim etdiyi "Gemini Robotics" layihəsi də məhz bu prinsip üzərində qurulub. Layihə çərçivəsində iki bir-birini tamamlayan model təqdim olunub ki, bunlar robotlara hərəkət etməzdən öncə "düşünmək" imkanı verir.**



Robotlar "Gemini Robotics 1.5" və "Gemini Robotics-ER 1.5" modelləri vasitəsilə əvvəlcə tapşırığı "düşünüb", sonra icra edirlər. Texnologiya generativ süni intellekt sistemlərinə əsaslanır və hər bir konkret tapşırıq üçün uzunmüddətli sazlama tələb edən müasir robotların məhdudiyyətlərini aradan qaldırmağa yönəlib.

Ənənəvi böyük dil modellərinin (LLM) müəyyən məhdudiyyətləri olsa da, simulyasiya edilmiş məntiqi düşüncə mexanizminin tətbiqi onların imkanlarını əhəmiyyətli dərəcədə genişləndirib. "Google DeepMind" komandası hesab edir ki, generativ süni intellekt robot texnologiyasını köklü şəkildə dəyişdirərək onlara universal funksionallıq təmin edə bilər.

"Gemini Robotics-ER 1.5" "görmə-dil" (VLM) modeli olub, bədənləşdirilmiş məntiqi düşüncə funksiyasına malikdir. O, vizual və mətn məlumatlarını təhlil edir, tapşırığın addım-addım icra planını formalaşdırır və konteksti dəqiqləşdirmək üçün "Google" axtarışı kimi xarici alətləri qoşa bilir. "Gemini Robotics-ER 1.5" isə "görmə-dil-əməl" (VLA) modelidir. Bu model alınan təlimatları robotun fiziki hərəkətlərinə çevirir, eyni zamanda onları vizual geribildirim və hər addım üzrə öz "düşünmə" prosesinə əsasən tənzimləyir.

Tərtibatçılar yeni modellərin necə işlədiyini əyani şəkildə nümayiş etdiriblər. "Gemini Robotics 1.5" ilə təchiz edilmiş "Apollo" adlı insanabənzər robot səyahət üçün əşyaları yığıb, digər robot "Aloha 2" isə hər iki əlindən istifadə edərək tullantıları çeşidləyib.

# Çinin kosmik raket sənayesi sürətlə inkişaf edir

**Çinin aerokosmik sənayesindəki inqilabı raket və peyk istehsalını avtomobil istehsalı qədər səmərəli edə bilər. Ekspertlərin qiymətləndirmələrinə görə, 2045-ci ilə qədər orbitə buraxılan faydalı yükün həcmi ildə 170 min tona çatacaq.**



Yeni "First Assembly Pull" strategiyası peyk və raket komponentlərinin yüksək keyfiyyət standartlarını qorumaqla aşağı maya dəyəri ilə kütləvi istehsalına yönəlib. Strategiyanın mahiyyəti ondan ibarətdir ki, komponentlərin yığılması zamanı yalnız lazım olan miqdarda detallar mövcud olsun. Bu yanaşma aerokosmik sənaye üçün daha ənənəvi olan üsuldan fərqlənir. Belə ki, indiyədək komponentlər buraxılış proqnozları və qrafiklərinə əsasən istehsal olunur və anbara göndərilirdi. Bu isə tez-tez müddətlərin pozulmasına və resursların səmərəsiz istifadəsinə gətirib çıxarırdı. Yeni sistem daha çevikdir. O, ilk dəfə 20-ci əsrin ortalarında "Toyota" zavodlarında tətbiq edilib və sonradan bütün dünyada qənaətcil istehsalın əsasını təşkil edib. Komponentlər yalnız tələb olunan miqdarda alınır ki, bu da tullantıları azaldır. Artıq ehtiyatların idarə edilməsi və daşınmasına sərf olunan vaxt qısaldılır. Çinin aerokosmik sənayesi bu metodu raket və peyk istehsalında tətbiq edir.

Hər bir mərhələ - son yığım prosesindən tutmuş yarımsistemlərin yığılmasına, komponentlərdən xammala qədər - yalnız növbəti mərhələ onun zəruriliyi barədə siqnal verdikdə işə salınır. Belə strategiya Çinin kosmik sənayesinin fəaliyyətinə əhəmiyyətli təsir göstərəcək. Sabit, universal istehsal xətlərinin əvəzinə, Çin modul tipli, çevik yığım sistemlərini tətbiq edir. Yığım mərkəzlərində iş proseslərinin dinamik uyğunlaşdırılması üçün süni intellekt və robototexnika istifadə olunacaq. Birgə rəqəmsal platforma isə müxtəlif laboratoriyaları, təchizatçıları və zavodları birləşdirir. "Rəqəmsal idarəetmə paneli" vasitəsilə menecerlər təchizat zəncirlərinin real vəziyyəti barədə təsəvvür əldə edəcəklər.

# "Wikipedia"nın analoqu

**"Wikipedia"dakı məlumatlar şəxsi maraqlara uyğun olaraq redaktə olunur. Buna görə də İlon Mask "xAI" şirkətinin "Grok" adlı çat-botunun imkanlarından istifadə edən qlobal bir ensiklopediya yaratmağı planlaşdırır. Bir müddət öncə şirkət sahibi "Wikipedia"da şəxsi bioqrafiyası ilə bağlı bəzi faktların, məlumatların təhrif edilməsindən narazılığını bildirmişdi. Növbəti podkast çıxışı zamanı Mask etiraf edib ki, onun startapı "Grok" çat-botu üçün proqram aləti hazırlayır. Bu alət onlayn mənbələrdə verilən məlumatlardakı qeyri-dəqiqlikləri avtomatik aşkarlayacaq və həmin məlumatları yenidən işləyəcək.**




Bu cür "sintetik düzəlişlər" tədricən milyarderin ilkin olaraq "Grokipedia" adlandırdığı yeni onlayn məlumat bazasının əsasını təşkil edəcək. Maskın fikrincə, "Wikipedia"nın rəqibi olacaq bu resursun məzmunu faktların və hadisələrin siyasi təhriflərindən, həmçinin müxtəlif növ "ideoloji tullantılardan" azad olmalıdır. "xAI" qurucusunun sözlərinə görə, "Grok" çatbotu hazırda onlayn mənbələrdən aldığı məlumatları ciddi uyğunsuzluqları aşkar etmək məqsədilə təhlil edə bilir: ""Wikipedia" çox möhtəşəm məzmun təqdim edir, amma o, səhvlərdən və qərəzlərdən tam azad deyil. "Grok" isə bütün bunları təmizləyə bilər".

Hələ 2022-ci ildə Mask "Wikipedia"da təqdim olunan məlumatların etibarlılığına diqqət çəkmişdi. Belə ki, "resessiya" termini ilə bağlı səhifə bir həftə ərzində 180 düzəlişə məruz qalmışdı. Bir il sonra o, platformanın neytrallığı və şəffaflığı mövzusunda resursun qurucusu Cimmi Uales ilə mübahisəyə girmişdi.

"Wikipedia"nın analoqu da qüsursuz deyil. Ekspertlərin fikrincə, süni intellekt emal etdiyi məlumatlara təhrif və səhvlər gətirə bilər və hələlik bəzi mürəkkəb suallara adekvat cavab verməkdə çətinlik çəkir. Bu halda senzuranın həddindən artıq avtomatlaşdırılması oxucuların bu cür resurslara olan etimadını sarsıda bilər.

# Süni intellekt əsaslı videoların yaradılması servisi təqdim edilib

**"Meta Platforms" süni intellektin köməyilə qısa videolar yaratmaq və paylaşmaq üçün "Vibes" platformasını təqdim edib. Platforma "Meta AI" tətbiqində və "meta.ai" saytında əlçatandır. Servis "İnstaqram"da elan edilib və orada süni intellekt vasitəsilə hazırlanmış bir sıra videolar da təqdim olunub.**



Platforma vasitəsilə videoları sıfırdan yaratmaq, mövcud kontentdən istifadə etmək və ya videoların remiksini hazırlamaq, onlara yeni vizual effektlər əlavə etmək və ya musiqi qoymaq mümkündür. Hazırlanmış videonu "Vibes" lentində paylaşmaq, digər istifadəçilərə göndərmək və ya "İnstaqram", "Feysbuk"da paylaşmaq olar.

"Meta"nın süni intellekt komandasının rəhbəri Aleksandr Uang bildirib ki, şirkət "Vibes"in erkən versiyasını işə salmaq məqsədilə süni intellekt əsaslı şəkil generatorları "Midjourney" və "Black Forest Labs" ilə əməkdaşlıq edib. O, eyni zamanda öz süni intellekt modellərini də hazırlamağa davam etdiyini bildirib.

# Fiziki məhdudiyyətli insanlar üçün xüsusi nəqliyyat növü hazırlanır

**"Tesla" hazırda yalnız Texasın Ostin şəhərində fəaliyyət göstərən "Robotaxi" xidmətini inkişaf etdirmək üzərində aktiv işləyir. Şirkətin sahibi İlon Maskın sözlərinə görə, şirkət 2025-ci ilin sonuna qədər ABŞ ərazisinin yarısını əhatə etməyi planlaşdırır.**



"Robotaxi" nəqliyyat xidmətləri üçün "Tesla Model Y" elektromobillərindən istifadə olunur, lakin onlar fiziki məhdudiyyətli insanlar üçün nəzərdə tutulmayıb. Bu vəziyyət yaxın zamanda dəyişəcək. "Tesla" fiziki məhdudiyyətli sərnişinlərin daşınması üçün xüsusi nəqliyyat növünü hazırlayır. Şirkət nümunə olaraq "Robovan"ı təqdim edib. Bu elektrikli avtonom miniven yüksək əhali sıxlığı olan ərazilərdə 20 nəfərə qədər sərnişin və yüklərin daşınması üçün nəzərdə tutulub. O, pandus və digər zəruri avadanlıqlarla təchiz olunacaq.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*





# Mədəniyyət





● Süleyman Sani Axundov – 150

**Qarabağda ad-sanı, nüfuzu olan nəsillərdən birinin - Axundovların övladıydı. Yalnız Qarabağ deyil, bütün Azərbaycanda tanınan Axundovların ulu babası Molla Əli Kəbirlidir. Kəbirli elinin Seyidli obasında bilikli, nüfuzlu alim kimi ehtiram qazanıb, mahalların dini işləri ilə məşğul olub. O, təkcə axund deyildi, eyni zamanda həkim idi. Molla Əli Kəbirliyə Qarabağ hakimləri İbrahimxəlil xan və Mehdiqulu xan böyük hörmət göstəriblər. 1814-cü ildə adına verilmiş təliqədə Mehdiqulu xan ona "Ərəstun bilikli" olaraq nişan verib və yazıb: "Seyidli obasının başçısı Kosa yüzbaşıya, Ərəstun bilikli Axund Molla Əliyə obanı verirəm. Bəbirəlini və nökər Məhəmmədəlini də onun xidmətinə bağışlayıram".**

## Məşhur nəslin şöhrətli oğlu



Bu nəslin nümayəndələri arasında müxtəlif sahələrdə mükəmməl təhsil almış, savadı, zəkası, istedadı və bacarığı ilə parlamış şəxsiyyətlər çox olub. Onlardan Mirzə Mehdi bəy dövrünün sayılıb-seçilən ziyalısı, savadlı həkimi, İsmayıl bəy Mirzə Allahqulu bəy oğlu şair idi, "Daruğə" təxəllüsü ilə şeirlər yazıb. Tibb üzrə ali təhsil almış Bəhram bəy Mirzə Cəfər bəy oğlu həm də siyasətlə məşğul olub, Azərbaycan Xalq Cümhuriyyətinin Milli Məclisinin üzvü idi.

Məşhur Axundov soyadının ən şöhrətli nümayəndələrindən biri isə o oldu

# Ədəbiyyatdan əbədiyyətə...

- maarif xadimi, dramaturq, nasir, jurnalist Süleyman Sani Axundov. Süleyman Sani Axundov 1875-ci il oktyabrın 3-də Şuşa şəhərində dünyaya gəlib. Uşaqlıq illərinə qayğılar, dərd, ələm gətirən atası Rzaqulu bəyin vaxtsız vəfatı olub. Süleyman dayısı, görkəmli maarif xadimi Səfərəli bəy Vəlibəyovun himayəsində böyüyüb.

Dövrünə görə yaxşı təhsil alıb. Süleyman Sani Axundov 1885-ci ildə Qori Müəllimlər Seminariyasına daxil olub. 1894-cü ildə seminariyanı bitirdikdən sonra Bakıdakı III dərəcəli rus-tatar məktəbinə müəllim təyin edilib. Uzun illər çox sevdiyi pedaqoji fəaliyyətdən ayrılmayıb. O, ömrünün sonlarınadək müəllim işləyib.

Süleyman Sani Axundov 1906-cı ildə Bakıda çağırılmış Azərbaycan Müəllimlərinin I Qurultayının iştirakçılarından olub. 1908-ci ildə Abdulla Şaiq, Mahmud bəy Mahmudbəyov və başqa qabaqcıl maarif xadimləri ilə birlikdə məşhur "İkinci il" dərsliyini tərtib edib. Dərslik Azərbaycan pedaqoji fikir tarixində mütərəqqi bir hadisə sayılıb.

1920-ci ildə Qarabağ İnqilab Komitəsinin qərarını yerinə yetirən Süleyman Sani Qarabağ və Zəngəzurda məktəb, uşaq evi, klub, qiraətxana və başqa mədəni-maarif ocaqlarının açılmasında fəal iştirak edib. 1920-1921-ci illərdə Qarabağ vilayətinin maarif şöbəsinin müdiri, 1922-1930-cu illərdə Bakıda məktəb müdiri işləyib. 1922-ci ildə Azərbaycan Ədib və Şairlər İttifaqının ilk sədri seçilib. 1921-ci ildən 1930-cu ilədək fasiləsiz Bakı Soveti üzvü, Bakı İcraiyyə Komitəsinin namizədi və Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin üzvü olub.

1922-ci ildə hazırlanan "Yeni türk əlifbası"nın həmüəlliflərindən biri idi. 1923-cü ildən nəşrə başlayan "Maarif və mədəniyyət", "Şərq qadını" jurnallarında dövrün aktual mövzularında yazdığı bir sıra hekayələrinə yer verilib.

Ədəbi və pedaqoji fəaliyyətinə görə, 1932-ci ildə "Əmək Qəhrəmanı" adına layiq görülüb.

## Təxəllüsünün mənası ikinci, özü isə hər zaman birinci olan Süleyman Sani Axundov

O, özünə ərəbcə "ikinci" mənasını daşıyan "sani" sözünü təxəllüs seçib. Tədqiqatçı-jurnalist Vasif Quliyev bu barədə bildirib: "Süleyman Sani Axundov deyirdi: "Bakıda Süleyman adında ikinci bir müəllim də olmuşdur. Lakin onun familiyası Əbdürrəhmanbəyov idi. O, ali ibtidai məktəbdə tarix müəllimi vəzifəsində işləyirdi və özü də Tiflisdə Müəllimlər İnstitutunu bitirmişdi. Təhsildə məndən yuxarı olduğu üçün onu birinci, özümü ikinci (Sani) adlandırmalı oldum".

Onun ədəbiyyatda həmsoyadı Mirzə Fətəli Axundovdan fərqlənmək üçün "Sani" təxəllüsünü götürərək soyadının əvvəlinə əlavə etdiyini bildirənlər də var.

Amma hər kəsin qəbul etdiyi bir həqiqət var ki, o, heç zaman ikinci olmayıb, müəllim kimi böyük nüfuz qazanan, Azərbaycanın qabaqcıl, yəni birinci sırada dayanan pedaqoqlarından biri idi. Yazıçı-dramaturq kimi də tayı-bənzəri yox idi, əsərləri böyük maraqla qarşılanır, sevilə-sevilə oxunurdu.

Süleyman Sani Axundovun yazıçılıq istedadına qol-qanad verən onun ədəbiyyata sonsuz sevgisi və tükənməz yazıb-yaratmaq yanğısı idi. Uzun illər pedaqoji fəaliyyət göstərən, müəllimlik peşəsinə cani-könüldən bağlı olan Süleyman Sani üçün ədəbiyyat da bambaşqa bir aləm idi. Yazıçı ilk gənclik illərindən ömrünün sonlarınadək ədəbiyyatın vurğunu oldu.

Soydaşlarının geriliyinə səbəb olan problemlər, nöqsanlar onu daim düşündürürdü. O, öz əsərlərində cəhaləti, nadanlığı, qadın hüquqsuzluğunu yalnız tənqid etmirdi, həm də onları yaradan, meydana çıxaran səbəbləri cəmiyyətin diqqətinə çatdırırdı, qurtuluş yollarını göstərməyə çalışırdı.

Süleyman Sani ilk dram əsəri olan "Tamahkar" komediyasını 1899-cu ildə Mirzə Fətəli Axundzadənin "Hacı Qara" əsərinin təsiri ilə yazıb. 1907-ci ildə qələmə aldığı "Dibdat bəy", "Türk birliyi" adlı komediyaları ilə Azərbaycan teatr səhnəsinə siyasi-ictimai mövzunu gətirib. "Laçın yuvası", "Qaranlıqdan işığa", "Şahsənəm və Gülpəri", "Səadət zəhmətdədir", "Molla Nəsrəddin Bakıda", "Eşq və intiqam" və başqa pyeslərində müəllif cəmiyyət üçün vacib, aktual məsələlərdən bəhs edib.

İlk hekayələrini - "Qonaqlıq", "Kövkəbi-hürriyyət" və "Yuxu"nu 1905-ci ildə yazıb. Sonrakı illərdə "Tutuquşu", "Qan bulağı", "Ümid çırağı", "Cəhalət qurbanı", "Nə üçün", "Təbrik", "Sona xala", "Namus", "Mister Qreyin köpəyi", "Son ümid", "İki dost, iki düşmən", "Gənc maşinistka və qoca yazıçı" hekayələrini qələmə alıb.

XX əsr Azərbaycan uşaq ədəbiyyatının formalaşmasında və inkişafında da Süleyman Sani Axundovun rolu böyük, xidmətləri misilsizdir. O, 1912-1914-cü illərdə "Qorxulu nağıllar" başlığı altında yazdığı "Əhməd və Məleykə", "Abbas və Zeynəb", "Nurəddin", "Qaraca qız", "Əşrəf" əsərləri ilə Azərbaycan uşaq ədəbiyyatına yeni forma, məzmun, üslub gətirdi. Süleyman Sani Axundovu yazıçı kimi daha da məşhurlaşdıran "Qorxulu nağıllar" uşaqlar üçün nəzərdə tutulub. Ancaq həmin nağıllar, doğrudan da, qorxuludur. "Qorxulu nağıllar"ın "Qaraca qız"ı Qaraca qızın ölümü ilə, "Abbas və Zeynəb"i isə uşaqların güllələnməsi ilə bitir. Müəllif həmin hekayələrindən belə bəhs edib: "Bu hekayələr, həqiqətən də, qorxulu idi. Lakin onlar uşaqları qorxutmur, onlara həyat həqiqətlərini, həyatın işıqlı və qaranlıq tərəflərini açır, xeyirxahlıq və ədavətin təntənəsini əks etdirirdi".

Azərbaycanın böyük ziyalılarından olan Süleyman Sani Axundov 1939-cu il martın 29-da dünyasını dəyişdi. Görkəmli maarif xadimi, istedadlı yazıçı, dramaturq, jurnalist kimi fəaliyyəti onun adını əbədiyyətə qovuşdurdu.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

# Üzeyir bəy Hacıbəylinin 140 illik yubileyi münasibətilə ustad dərsləri keçiriləcək

**Mədəniyyət Nazirliyinin Mədəniyyət üzrə Elmi-Metodiki və İxtisasartırma Mərkəzinin təşkilatçılığı, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının üzv təşkilatı - Mədəniyyət İşçiləri Həmkarlar İttifaqı, Bakı Şəhər Mədəniyyət Baş İdarəsi və Abşeron-Xızı Regional Mədəniyyət İdarəsinin dəstəyi ilə oktyabrın 8-dən 18-dək bu idarələrin tabeliyində fəaliyyət göstərən musiqi və incəsənət məktəblərinin müəllim və şagirdləri üçün ustad dərsləri keçiriləcək.**




Mərkəzdən AZƏRTAC-a bildirilib ki, dahi bəstəkar, musiqişünas və pedaqoq Üzeyir bəy Hacıbəylinin 140 illik yubileyi münasibətilə həyata keçirilən layihənin əsas məqsədi musiqi və incəsənət məktəblərində tədris prosesinin ixtisas proqramlarının tələblərinə uyğunlaşdırılması, müəllimlərin peşəkarlıq səviyyəsinin artırılması, şagirdlərin bilik və bacarıqlarının zənginləşdirilməsidir.

Ustad dərsləri tar, kamança, saz, balaban, qanun, xanəndəlik, fortepiano, skripka, violonçel, klarnet, vokal və rəqs ixtisaslarını əhatə edəcək.

Bakı, Xırdalan və Sumqayıt şəhərlərində keçiriləcək ustad dərslər respublikanın tanınmış musiqiçiləri, professor və müəllimləri, eləcə də təcrübəli mütəxəssislər tərəfindən aparılacaq.

# Türkiyədə "Suverenliyimizə qovuşduran şanlı Zəfər" adlı sərgi reallaşacaq

**Türkiyədə yaşayan azərbaycanlı rəssamların əsərlərindən ibarət "Suverenliyimizə qovuşduran şanlı Zəfər" adlı sərgi keçiriləcək.**




Tədbir ölkəmizdə elan olunmuş "Konstitusiya və Suverenlik İli", habelə 44 günlük Vətən müharibəsində qazanılan Zəfərin 5 illiyi münasibətilə Türkiyədəki Azərbaycan Mədəniyyət Mərkəzinin Ankara Rəsm və Heykəllər Muzeyi ilə birgə layihəsi əsasında reallaşacaq.

AZƏRTAC xəbər verir ki, sərginin təşkilat komitəsi nümayiş etdiriləcək əsərlərin seçilməsini həyata keçirəcək. Sərgiyə təqdim olunacaq dəyərli əsərlərin Azərbaycan və Türkiyənin muzeylərinə daimi eksponat kimi göndərilməsi nəzərdə tutulub.

Sərginin Türkiyənin Ankara və İstanbul şəhərlərində il ərzində keçirilməsi planlaşdırılır.

Qeyd edək ki, Türkiyədə çox sayda azərbaycanlı sənət adamları və rəssamları yaşayır, aparıcı universitetlərdə, sənət mərkəzlərində fəaliyyət göstərirlər. Onların əsərləri beynəlxalq və yerli sərgilərdə nümayiş etdirilir, bir sıra rəsm qalereyalarının fondlarında saxlanılır.

Türkiyədə yaşayan azərbaycanlı rəssamların sərgiləri Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin "Azərbaycan nişanələri dünyada" adlı layihəsinə əsasən, Türkiyədəki Azərbaycan Mədəniyyət Mərkəzi tərəfindən keçirilir.

# Azərbaycan və Qırğızıstan teatrları arasında əməkdaşlıq memorandumu imzalanıb

**Azərbaycan Dövlət Akademik Milli Dram Teatrı ilə T.Abdumomunov adına Qırğızıstan Milli Akademik Dram Teatrı arasında əməkdaşlıq memorandumu imzalanıb.**



AZƏRTAC xəbər verir ki, memorandum Akademik Milli Dram Teatrının direktoru, Əməkdar mədəniyyət işçisi İlham Əsgərov və Qırğızıstan Milli Akademik Dram Teatrının direktoru, Xalq artisti Asılbek Özübekov tərəfindən imzalanıb.

Bu münasibətlə keçirilən tədbirdə çıxış edən Qırğızıstan Milli Akademik Dram Teatrının direktoru Asılbek Özübekov qeyd edib ki, iki dost və qardaş ölkənin milli teatrlarının rəsmiləşdirdiyi əməkdaşlıq müqaviləsi mədəniyyət tarixinin vacib hadisəsidir.

Memorandum Qırğızıstanın Milli Akademik Dram Teatrı və Azərbaycan Dövlət Akademik Milli Dram Teatrı arasında səmərəli əməkdaşlıq, klassik və müasir dramaturgiyanın dəyərli nümunələrinin, tamaşaların yaradıcı kollektivlərinin, teatr sahəsində çalışan ayrı-ayrı peşə nümayəndələrinin - rejissor, aktyor, səhnə tərtibatçısı və kostyum ustalarının ikitərəfli mübadiləsi, forum və ustad dərslərinin keçirilməsini nəzərdə tutur.

"Teatrlarımız arasında imzalanmış bu memorandum çərçivəsində həyata keçirilən tədbirlər hər iki ölkənin teatr həyatında canlanma yaradacaq, Azərbaycan və Qırğızıstan arasında mədəni və dostluq əlaqələrinin inkişafına dəyərli töhfələr verəcək", - deyə Asılbek Özübekov əlavə edib.

Akademik Milli Dram Teatrının direktoru İlham Əsgərov isə qeyd edib ki, rəhbərlik etdiyi teatr Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinin müəyyən etdiyi yol xəritəsinə uyğun olaraq beynəlxalq əlaqələrini genişləndirir: "Çox şadam ki, teatr tariximizin bu vacib hadisəsi 2009-cu ildə Naxçıvanda Türk Dövlətləri Təşkilatının yaradılmasının 16-cı ildönümünə təsadüf edir. Azərbaycanın beynəlxalq əlaqələri günbəgün böyük uğurla inkişaf edir. Ölkəmizin beynəlxalq əlaqələr sahəsində qazandığı uğurlara uyğun olaraq, biz də teatr kimi, mədəniyyətin bir istiqaməti olaraq, öz işimizi dövlətimizin atdığı mühüm addımlara uyğun şəkildə qururuq. Mədəniyyət Nazirliyi tərəfindən müxtəlif ölkələrdə təntənəli şəkildə Azərbaycan mədəniyyəti günləri keçirilir. Məhz bu istiqaməti, bu yol xəritəsini əsas tutaraq, əməkdaşlıq əlaqələri qururuq. Növbəti əməkdaşlıq müqavilələri Qazaxıstan və Özbəkistanın milli teatrları ilə imzalanacaq".

Bişkekə rəsmi səfəri çərçivəsində İlham Əsgərov həmçinin Ata-Beyit Milli Tarixi Memorial Kompleksində Çingiz Aytmatovun məzarını və yazıçının ev-muzeyini ziyarət edib, Qırğızıstan-Azərbaycan Dostluq Parkında və Azərbaycanın Qırğızıstandakı səfirliyində olub, səfirliyin müşaviri Zülfüqar Tanarverdi və "Birlik" Azərbaycan diaspor təşkilatının sədri Xansuvar Baxşəliyevlə görüşüb, gələcəkdə teatr sahəsində vacib addımların atılması istiqamətində müzakirələr aparıb.

# "İmadəddin Nəsimi Şirvani" kitabının təqdimatı olub




**XI Bakı Beynəlxalq Kitab Sərgisi çərçivəsində filologiya üzrə fəlsəfə doktoru, dosent Firudin Qurbansoyun "İmadəddin Nəsimi Şirvani" adlı kitabının təqdimatı keçirilib.**

AZƏRTAC xəbər verir ki, təqdimatda çıxış edən müəllif əsərin ərsəyə gəlmə prosesi, toplanan materiallar və faktların əhəmiyyəti barədə danışıb.

Firudin Qurbansoy vurğulayıb ki, İmadəddin Nəsiminin zəngin irsi bu gün də aktuallığını qoruyur və onun poeziyasında yer alan humanizm, azadlıq və mənəvi bütövlük ideyaları müasir oxucu üçün dərin mənəvi mənbə rolunu oynayır.

Tədbir iştirakçıları kitab haqqında ətraflı məlumat əldə edib, müəllifin Nəsimi irsinin tədqiqinə verdiyi töhfələri yüksək qiymətləndiriblər.

# Krasnoyarskda Eldar Əhədovun yaradıcılıq axşamı keçiriləcək

**Oktyabrın 9-da Rusiyanın Krasnoyarsk Regional Xüsusi Kitabxanasında rus şairi və yazıçısı, Azərbaycan və Rusiya Yazıçılar birliklərinin fəxri üzvü, Ümumdünya Yazıçılar Təşkilatının (WOW) Əlaqələndirmə Şurasının rəhbəri Eldar Əhədovun yaradıcılıq axşamı keçiriləcək.**

AZƏRTAC xəbər verir ki, Eldar Əhədov Rus Coğrafiya Cəmiyyətinin üzvüdür. Onun yaradıcılığına 100-ə yaxın nəsr, poeziya, ədəbiyyat, tarix və toponimik tədqiqatlar daxildir. Ədibin kitabları Azərbaycan, Misir, Hindistan, Kanada, Meksika, Rusiya, Serbiya və ABŞ-də nəşr olunub. Onlar Rusiyanın böyük kitabxanalarında, ABŞ-də Konqres Kitabxanasında, Böyük Britaniyada Kral Kitabxanasında, Azərbaycan Milli Kitabxanasında, Berlin və Münxen kitabxanalarında, ABŞ, Almaniya, İspaniya və digər ölkələrin universitet kolleksiyalarında saxlanılır.

Eldar Əhədovun iki nəşri Tümen vilayətində və Krasnoyarsk diyarında müvafiq olaraq 2020-ci və 2022-ci illərdə "İlin ən yaxşı kitabı" kimi tanınıb.

# "Qoruqlar və muzeylər - keçmişdən gələcəyə körpü"

**Quba Soyqırım Memorial Kompleksində "Qoruqlar və muzeylər - keçmişdən gələcəyə körpü" adlı III Quba simpoziumu keçirilib.**



Tədbirdə Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin şöbə müdiri Səbuhi Bəşirov, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin prorektoru, Əməkdar mədəniyyət işçisi, dosent Sədaqət Əliyeva, yerli idarə-müəssisələrin rəhbərləri, ölkədə fəaliyyət göstərən mədəniyyət müəssisələrinin, eləcə də muzeylərin əməkdaşları, tarixi abidə mühafizəçiləri, ziyalılar, həmçinin gənc fəallar iştirak ediblər.

Simpozium Azərbaycan Rəssamlar İttifaqının üzvü Sahib Quliyev və Vüqar Quliyevin əsərlərindən ibarət sərgi ilə tanışlıqdan sonra öz işinə başlayıb. Giriş sözü ilə çıxış edən kompleksin direktoru Rəxşəndə Bayramova bildirib ki, Quba Soyqırım Memorial Kompleksi 2013-cü ildən fəaliyyət göstərir. 12 il ərzində 200 mindən çoxu xarici olmaqla 1 milyondan çox ziyarətçini qarşılayan kompleksdə mütəmadi olaraq simpozium, konfrans və forumlar təşkil edilir. R.Bayramova qeyd edib ki, budəfəki simpoziumun qoruq və muzey işinin inkişafı, abidələrin mühafizəsi, bələdçilik və insanlarda qoruq və muzeylərə marağın artırılmasında əhəmiyyəti böyükdür.

Çıxış edən Quba RİH başçısının müavini Səidə Abasova simpozium çərçivəsində əldə olunan bilik və təcrübələrin tətbiqi nəticəsində regionda və ölkəmizdə qoruq və muzey işinin səviyyəsinin yüksələcəyini, tarixi-mədəni irsin qorunması sahəsində uğurların artacağını vurğulayıb. Bildirilib ki, tarix və mədəniyyət abidələrinin qorunması, bərpası, təbliği, onların istifadəsi baxımından bir sıra layihələr həyata keçirilib. Bu sahədə həm beynəlxalq platformalarda, həm də ölkə səviyyəsində xeyli iş görülüb.

Rəsmi hissə bitdikdən sonra gün ərzində davam edən bölmə iclaslarında "Qoruq və muzeylərin tarixi və çağdaş rolu", "Mədəni irsin qorunması və rəqəmsallaşdırılması", "Abidələrin bərpası və konservasiyası", "Qoruq və muzey pedaqogikası və təhsil sahəsində istifadəsi", "Qoruq və muzeylərdə eksponatların təqdimatı və innovativ yanaşmalar", "Bələdçilik və ziyarətçi təcrübəsinin artırılması", "Cəmiyyətin qoruq və muzeylərə marağının artırılması və qoruq-muzey marketinqi", "Qoruq və muzey menecmenti və strateji idarəetmə", "Qoruq və muzeylərdə inklüzivlik və əlçatanlıq" və digər mövzularda elmi müzakirələr aparılıb.

80-ə yaxın elmi məqalənin təqdim olunduğu simpoziumda 100-dən çox iştirakçı iştirak edib və materiallar əsasında toplu hazırlanıb.

***Akif ƏLİYEV,***
***"Azərbaycan"***

# Bərpa olunmuş eksponatlarla bağlı müzakirə aparılıb

**Muzey Sərvətləri və Xatirə Əşyalarının Elmi Bərpa Mərkəzində (MSXƏEBM) Elmi Bərpa Şurasının növbəti iclası olub.**

Mərkəzdən AZƏRTAC-a bildirilib ki, iclasın gündəliyinə uyğun olaraq Azərbaycan Dövlət Rəsm Qalereyasının və Cəfər Cabbarlı adına Azərbaycan Dövlət Teatr Muzeyinin bərpa olunmuş eksponatlarının nəticələrinə baxış keçirilib, həmçinin Nizami Gəncəvi adına Gəncə Dövlət Tarix-Diyarşünaslıq Muzeyinə məxsus xalça nümunəsinin bərpa prosesi müzakirə olunub.

Muzey Sərvətləri və Xatirə Əşyalarının Elmi Bərpa Mərkəzinin direktoru Zərifə Məlikovanın sədrliyi ilə keçirilən iclasda Abdulla Şaiqin mənzil-muzeyinin direktoru Ülkər Talıbzadə, Azərbaycan Milli Xalça Muzeyinin Ənənəvi texnologiya şöbəsinin müdiri, Azərbaycan Rəssamlar İttifaqının üzvü Taryer Bəşirov, MSXƏEBM-in elmi işlər üzrə direktor müavini İranə İbrahimova, Baş fond mühafizi Pakizə Almazova, MSXƏEBM-in şöbə müdirləri, elmi işçiləri və bərpaçı-rəssamları iştirak ediblər.




# Azərbaycan medalların sayını 166-ya çatdırdı





**Ötən bazar günü Göygöl Olimpiya İdman Kompleksində cüdo üzrə yarışlara yekun vurulub. Qarışıq komanda yarışlarında Azərbaycan millisi Özbəkistana qalib gələrək (7:4) qızıl medal qazanıb. Bundan əvvəl isə idmançılarımız 21 medal əldə ediblər. Beləliklə, Azərbaycan cüdoçuları turniri 22 medalla başa vurublar.**







Mingəçevirdəki "Kür" Olimpiya Tədris-İdman Mərkəzində avarçəkənlərimiz oyunlara dörd medalla başlayıblar. Yarışda Birnəfərlik kayak qayığında 200 metr məsafəyə 2009-2010-cu il təvəllüdlü idmançılar arasında Əlimurad Hacızadə gümüş medala sahiblənib. Amil Ramazanov birnəfərlik kayak qayığında 200 və 500 metr məsafələrə 2007-2008-ci il təvəllüdlü idmançılar arasında iki bürünc medala yiyələnib. İkinəfərlik kayak qayığında 200 metr məsafəyə 2009-2010-cu il təvəllüdlü idmançılar arasında İvan Vorobjanski-Hüseyn Həsənov dueti də final yürüşündə finiş xəttini üçüncü keçib.

Rusiya Avarçəkmə Federasiyasının prezidenti Aleksey Svirin bildirib ki, III MDB Oyunları yüksək səviyyədə təşkil olunub. O, yarışların yüksək səviyyədə təşkilinə görə təşəkkürünü bildirib: "Azərbaycana hər zaman məmnuniyyətlə gəlirik. Hazırlıq səviyyəsi göz önündədir - bu yarışlara böyük məsuliyyət və peşəkarlıqla yanaşmışınız. Müasir idman dünyasında hər bir beynəlxalq yarış gənc atletlər üçün əvəzolunmaz təcrübə, rəqabət imkanı və yeni tanışlıqlar deməkdir. Mingəçevirdəki şərait yüksək beynəlxalq standartlara tam cavab verir. Məşqçi heyətimiz uzun illərin təcrübəsinə əsaslanaraq idman məktəblərinin ənənələrini davam etdirir. Bu səbəbdən komandamızın medal cədvəlində birinci pillədə qərarlaşmasını görmək xoşdur".

Svirin Belarus, Azərbaycan və Özbəkistan komandalarını xüsusi qeyd edib və idmançılara uğurlar arzulayıb: "Atletlərə qələbə arzu edirəm. Kimsə podiuma qalxa bilməzsə belə, bu, yolun sonu deyil. Əsas odur ki, hər bir nəticəni düzgün təhlil edib, irəliyə doğru addımlasınlar. Ən vacibi ruhdan düşməmək və qalib gələndə də təvazökarlığı qorumaqdır. Əlbəttə, burada - bu startlar zamanı yaranan dostluqları gələcək illərdə də qoruyub saxlamaq lazımdır".

Gəncədə 3x3 basketbol yarışlarına start verilib. Oğlanlardan və qızlardan ibarət Azərbaycan yığma komandaları (U-17) yarımfinala yüksəliblər. "A" qrupunda yer alan oğlanlardan ibarət komandamız (Hüseyn Qaflanov, Emanuel Aqbasan, İsmayıl Abdullayev və Oğuzxan Quliyev) Tacikistanı (21:13) və Qırğızıstanı (18:6) məğlub edib, Rusiyaya məğlub olublar (8:21). Qrupu ikinci yerdə tamamlayan yığmamız yarımfinala adlayıb. Yarımfinalda Azərbaycan yığması "B" qrupunu lider kimi tamamlayan Belarus millisi ilə qarşılaşacaq. İkinci yarımfinalda Rusiya Özbəkistanla üz-üzə gələcək.

Qızlardan ibarət komandamız (Polina Şukina, Deniz Gökçöl, Angelina İsmayılova və Leyla Allahverdiyeva) turnirə Özbəkistana (13:16) məğlubiyyətlə başlasa da, ardıcıl qələbələr qazanaraq yarımfinala adını yazdırıb. Millimiz Qazaxıstanı (20:5), Rusiyanı (19:18) və Belarusu (18:17) məğlub edib.

Qızlardan ibarət turnirdə 5 komanda mübarizə aparıb. Turnir dairəvi sistemlə keçirilib və ilk dörd yeri tutan komandalar yarımfinala yüksəliblər. Azərbaycan yığması yarımfinala birinci yerlə adlayıb. Yarımfinalda rəqibimiz Özbəkistan yığması olacaq. Digər yarımfinalda Rusiya Belarusla qarşılaşacaq.

Xankəndi şəhər stadionunda isə kamandan oxatma yarışları başa çatıb. Mükafatlandırma mərasimindən dərhal sonra idmançılar və nümayəndə heyətlərinin üzvləri Qarabağın incisi olan qədim Şuşaya tura yola düşüblər. Qonaqlar şəhərin tarixi və mədəni məkanlarını - Mərkəzi Meydanı, əfsanəvi "Xan qızı" bulağı, Şuşa qalası, Yuxarı Gövhər ağa məscidi və məşhur Cıdır düzünü gəziblər. Tur iştirakçılarına Azərbaycan mədəniyyətinin beşiyi, görkəmli şairlərin, musiqiçilərin və rəssamların vətəni olan Şuşanın tarixi barədə məlumat verilib. Qonaqlar şəhərin özünəməxsus olduğunu xüsusi vurğulayıblar. Turun sonunda iştirakçılar Şuşanın mənzərəli yerləri fonunda xatirə fotoları çəkdiriblər. Axşam dostluq mühitində keçirilən şam yeməyi ilə davam edib.

Oktyabrın 5-də Yevlax Olimpiya İdman Kompleksində boks yarışlarında final döyüşləri keçirilib. Azərbaycan boksçuları Qardaş Rəhimov (46 kq), Əli Əliyev (48 kq), Əli Abaslı (52 kq), Şahin Aslanov (60 kq) və Səfdər Məmmədzadə (+80 kq) qızıl medal qazanıblar. Bundan başqa, Əli Ruşanov (46 kq), Ayxan Həsənov (50 kq), Raul Heydərli (57 kq), Əflatun İsmiyev (57 kq), Toğrul Quliyev (60 kq), Haqverdi Həsənov (63 kq), Adil Zalov (70 kq), Şükar Əliyev (75 kq), İsmayıl Vəliyev (80 kq) bürünc medallara sahibləniblər. Xatırladaq ki, bundan əvvəl qadın boksçularımız turniri 1 qızıl, 5 gümüş və 4 bürünc medalla başa vurmuşlar. Beləliklə, Azərbaycan idmançıları turnirdə 24 medal qazanıblar.

Gəncə İdman Sarayında qılıncoynatma yarışları davam edib. Azərbaycan qılıncoynadanları Valentina Zeynalova və Zərifə Hüseynova yarımfinalda Rusiya təmsilçilərinə məğlub olublar. Hər iki idmançımız bürünc medal əldə edib.

Gəncə İdman Sarayında voleybol yarışları davam edib. Yarımfinalda Azərbaycanın qızlardan ibarət millisi gərgin mübarizədə Belarusa 2:3 hesabı ilə uduzub. Bürünc medal uğrunda qarşılaşmada komandamızın rəqibi Rusiya-Özbəkistan cütünün məğlub tərəfi olacaq.

Oktyabrın 6-da - oyunların 11-ci günündə 8 idman növü üzrə yarışlar keçirilib. Şəki şəhər stadionunda çövkən üzrə bürünc medal uğrunda matçda Qazaxıstan və Qırğızıstan millilәri qarşılaşıblar. Qırğızıstan millisi qalib gələrək (2:0) bürünc medal qazanıb. Bu gün Azərbaycan və Özbəkistan komandaları arasında final görüşündə çempion müəyyənləşəcək.

Şəki Olimpiya İdman Kompleksində isə bədii gimnastika üzrə yarışlara start verilib. Finala yüksələn Azərbaycan gimnastları müəyyənləşib. Azadə Atakişiyeva top və halqa, Şəms Ağahüseynova top, Nur Sadıqova halqa ilə finala vəsiqə qazanıblar. Qrup hərəkətləri komandası isə 5 halqa ilə finalda çıxış edəcək. Bədii gimnastika yarışlarına oktyabrın 8-də yekun vurulacaq.

Gəncə İdman Sarayında voleybol yarışının sonuncu günündə mükafatçılar müəyyənləşiblər. Qızlardan ibarət millimiz bürünc medal uğrunda Özbəkistana qalib gələrək (3:1) bürünc medal qazanıb. Ardınca qızıl medal uğrunda Rusiya və Belarus komandaları qarşılaşıblar. Rəqibini 3:0 hesabı ilə məğlub edən Rusiya yığması qızıl, Belarus isə gümüş medal əldə ediblər. Oğlanlardan ibarət millimiz də Belarus komandasına qarşı növbəti oyununu keçirib.

Bundan başqa, qılıncoynatma yarışları davam edib, güllə atıcılığı üzrə turnirə isə yekun vurulub.

Azərbaycan ən azı daha bir bürünc medalı təmin edib. Bu, şpaqa növündə mübarizə aparan təmsilçilərimiz Mirxətai Məmmədov və Vahab Fətullayevin 1/4 finalda bir-birlərinə rəqib olmasından sonra müəyyənləşib. İki qılıncoynadandan biri yarımfinala yüksələcəyi üçün Azərbaycan daha bir medal qazanacaq.

Son məlumata görə, güllə atıcısı Xanna Əliyeva bürünc mükafat əldə edib. O, 10 metr məsafəyə solo tapança ilə atəşaçmada üçüncü olub.

Bununla yanaşı, Gəncədə keçirilən 3x3 basketbol üzrə yarışın mükafatçıları müəyyənləşib. Yarımfinalda qızlardan ibarət Azərbaycan komandası Özbəkistanla, oğlanlardan ibarət millimiz isə Belarusla qarşılaşıblar. Qızlardan ibarət Azərbaycan millisi finala vəsiqə qazanıb. Yarımfinalda Özbəkistan komandası ilə qarşılaşma Azərbaycan basketbolçularının qələbəsi ilə yekunlaşıb - 22:10. Komandamız finalda Rusiya - Belarus cütünün qalibi ilə qarşılaşıb.

Mingəçevir "Kür" Olimpiya İdman Kompleksində isə avarçəkmənin kayak və kanoe növü üzrə final yarışları keçirilib. İki gün davam edən yarışların nəticəsinə əsasən, Azərbaycan avarçəkənləri ümumilikdə dörd medal qazanıblar.

Azərbaycan medal sıralamasında ilk üçlükdə qərarlaşıb və müxtəlif əyarlı medallarının sayını 166-ya çatdırıb.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***


## OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə*

***2025-ci il üçün abunə yazılışı davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**




### Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*



## "Respublika Diaqnostika Mərkəzi" ASC-nin səhmdarlarının nəzərinə

"Respublika Diaqnostika Mərkəzi" ASC (VÖEN 1300143511) 09.10.2025-ci il saat 10:00-da səhmdarların növbədənkənar ümumi yığıncağının keçiriləcəyini bildirir.

**Gündəlikdəki məsələ:**

1. Cəmiyyətin Baş direktorunun seçilməsi.

**Ünvan: Baki şəhəri, Tbilisi prospekti, 147, inzibati bina, 2-ci mərtəbə.**

***Rəhbərlik***


# Paytaxtda 21-26 dərəcə isti olacaq

Azərbaycanda oktyabrın 7-nə gözlənilən hava proqnozu açıqlanıb.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, sabah Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, əsasən yağmursuz keçəcəyi, gecə və səhər bəzi yerlərdə zəif duman olacağı gözlənilir. Şimal-qərb küləyi əsəcək, gündüz cənub-şərq küləyi ilə əvəzlənəcək. Havanın temperaturu gecə 16-18, gündüz 21-26 dərəcə isti olacaq. Atmosfer təzyiqi 762 millimetr civə sütunu, nisbi rütubət isə gecə 80-85, gündüz 50-55 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi proqnozlaşdırılır. Lakin gündüz bəzi yerlərdə qısamüddətli yağış yağacağı, duman olacağı ehtimalı var. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 12-17, gündüz 23-28, dağlarda gecə 5-10, gündüz 15-20 dərəcə isti olacağı ehtimal edilir.



## ALLAH RƏHMƏT ELƏSİN!

Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı Goranboy Rayon İcra Hakimiyyətinin başçısı Məhərrəm Quliyevə anası

**TÜKƏZ QULİYEVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəhbərliyi və kollektivi sabiq səhiyyə naziri

**OQTAY ŞİRƏLİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Mərkəzi Bankının rəhbərliyi və kollektivi Azərbaycan Respublikasının sabiq səhiyyə naziri

**OQTAY ŞİRƏLİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Mirqiyas Kazımov, Rahib Qarayev, Əlikram Qasımov, Ələddin Məmmədov, Vaqif Məhərrəmov, Hikmət Quliyev, Vaqif və Rafiq Hüseynovlar, Azər Baxışov, Famil Balayev, Əlövsət Əliyev və Hidayət İsmayılov dostları İxtiyar Qafarova anası

**RAYA MƏHƏMMƏDƏLİ QIZI QAFAROVANIN**

Beyləqan rayonunda vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin rəhbərliyi və kollektivi sabiq səhiyyə naziri, professor

**OQTAY ŞİRƏLİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin rəhbərliyi və kollektivi Goranboy Rayon İcra Hakimiyyətinin başçısı Məhərrəm Quliyevə anası

**TÜKƏZ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin rəhbərliyi və kollektivi sabiq səhiyyə naziri

**OQTAY ŞİRƏLİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının kollektivi komissiyanın Tibb və əczaçılıq elmləri üzrə ekspert şurasının üzvü, professor Rəna Şirəliyevaya qardaşı, professor

**OQTAY KAZIM OĞLU ŞİRƏLİYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Akademik Mehdi Mehdizadə adına Cəbrayıl şəhər tam orta məktəbin 1980-ci il buraxılış 10A sinfinin məzunları sinif yodaşları Naibə Məhərrəmovaya bacısı

**ELMİRA MƏHƏMMƏDƏLİ QIZI MƏHƏRRƏMOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Qafqaz Müsəlmanları İdarəsinin sədri, Şeyxülislam Allahşükür Paşazadə və Milli Məclisin deputatı Cavanşir Paşazadə sabiq səhiyyə naziri, professor

**OQTAY ŞİRƏLİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı Zakir Fərəcov sabiq səhiyyə naziri, professor

**OQTAY ŞİRƏLİYEVİN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı Zakir Fərəcov Goranboy Rayon İcra Hakimiyyətinin başçısı Məhərrəm Quliyevə anası

**TÜKƏZ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəyli Azərbaycanın tanınmış ictimai-siyasi xadimi, sabiq səhiyyə naziri

**OQTAY ŞİRƏLİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Mübariz Hümbətov, Elbrus Əhmədov, Qəşəm Məmmədov, Əlikram Qasımov, Şahin və Fizuli Şirinovlar, Adil, Elşən və Rövşən Şərifovlar, Fikrət, Vaqif və Rafiq Hüseynovlar İmişli Rayon Mərkəzi Xəstəxanasının direktoru Şahin Qurbanova anası

**ELMİRA MƏHƏMMƏDƏLİ QIZI MƏHƏRRƏMOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR

**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və | |
| Baş redaktor müavinləri | - 538-86-86, 539-72-39 | informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Məsul katib | - 539-43-23, | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib müavinləri | - 539-44-91, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

**"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir**

**Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır**

**Gündəlik rəsmi dövlət qəzeti**

**Tiraj 4095**
**Sifariş 2050**

**Qiyməti 60 qəpik**